Xalqın qəzeti!

# Xalq qəzeti

№ 176 (30292) 19 avqust 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

### Prezident İlham Əliyev:

**Cənubi Qafqazda inkişaf, əsasən, Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşmasından asılıdır. Hazırda bir sıra beynəlxalq təşkilatlar bizə qarşılıqlı qəbul olunacaq həlli tapmaqda yardım etməyə çalışır. Bütün beynəlxalq təşkilatlar başa düşür ki, bu həllər beynəlxalq hüquqa əsaslanmalıdır.**

# Azərbaycan diplomatiyası ölkəmizə nüfuz və dəstək qazandırır

## Kolumbiya ilə siyasi əlaqələr məmnunluq doğurur



**Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kolumbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luis Fernando Kuartas Ayalanın etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir Azərbaycan ilə Kolumbiya arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd etdi, ölkələrimizin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr mexanizminin uğurla inkişaf etdiyini bildirdi. Minatəmizləmə sahəsində kolumbiyalı mütəxəssislərin Azərbaycanda fəaliyyət göstərdiyi qeyd olundu. Luis Fernando Kuartas Ayala ölkələrimiz arasında turizm sahəsində əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğuladı.

Səfir ölkəmizdə akkreditə edilmiş diplomatik korpusun nümayəndələrinin Ağdama səfərində iştirak etdiyini, həmin ərazilərdə aparılan bərpa-quruculuq işləri ilə yerində tanış olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Kolumbiya arasında siyasi əlaqələrin məmnunluq doğurduğunu vurğuladı, ölkələrimizin BMT, Qoşulmama Hərəkatı çərçivəsində səmərəli əməkdaşlıq etdiyini və daim bir-birini dəstəklədiyini dedi.

Prezident İlham Əliyev iqtisadi-ticari əlaqələrin genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğuladı, mədəniyyət sahəsində əlaqələrin genişləndirilməsinin vacibliyini bildirdi.

*AZƏRTAC*

# Oskanyan "köhnə bayatılar"ından əl çəkmir

## *Sabiq XİN rəhbəri məyusdur, amma BMT-dəki fiaskoda "uğur rüşeymləri" axtarır*

**BMT Təhlükəsizlik Şurasının Qarabağda humanitar vəziyyətlə bağlı keçirdiyi iclasın Ermənistanda doğurduğu isterik durumun pik nöqtəsindən söz açaq. Söhbət Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyandan gedir.**



Daha doğrusu, onun sözügedən müzakirəyə münasibətindən. Oskanyan nəticəni bir sözlə belə ifadə edir – Məyusluq. "Cəmiyyətimizdə nikbinlik və ümid yaradan BMT Təhlükəsizlik Şurasının iclası məyusluqla başa çatıb. Heç bir qətnamə və ya bəyanat qəbul edilməyib və nə vaxtsa beynəlxalq hüquq normalarına uyğun olaraq, Azərbaycanı Laçın dəhlizini açmağa məcbur edəcək qətnamənin qəbulu şübhə doğurur", – deyən sabiq erməni XİN rəhbəri özünün "facebook" səhifəsində ağlaşma qurub.

(ardı 3-cü səhifədə)

## Avantüristlərin "aclıq isterikası" sərhəd tanımır

Səhifə ⇨ 4

# Ermənistanda isterik depressiya

## *Son diplomatik məğlubiyyət cəmiyyətdəki çatları böyüdür*

**Ermənistanda BMT Təhküləsizlik Şurasının avqustun 16-da Qarabağda humanitar vəziyyətə dair keçirilmiş müzakirəsinin ölkə üçün uğursuzluğu fonunda isterik vəziyyət yaranıb. Bir qisim beynəlxalq strukturları, o cümlədən BMT Təhlükəsizlik Şurasını ədalətsizlikdə günahlandırır, o biri cinah isə baş nazir Nikol Paşinyanı, necə deyərlər, ağ yuyub qara sərməklə məşğuldur.**



Bəli, Ermənistanın xəstə ictimai rəyi reallıqları görmür və yaxud görmək istəmir. Reallıq isə budur ki, Azərbaycan hərbi meydanda olduğu kimi, siyasi-diplomatik müstəvidə də güclüdür və onun mövqeyi ilə barışmaq lazımdır. Barışmamağın bir yolu var – müharibə. Ermənistan buna hazırdırmı? Yox! Ona görə də ölkənin isterik durumdan uzaqlaşması, həqiqətləri anlaması, düzgün nəticə çıxarması, ümumən Azərbaycana münasibətdə pozitiv yanaşması şərtdir. Yazımıza rasional yanaşma baxımından diqqətçəkən bir məqamla başlayacaq, ardınca haqqında söz açdığımız isterik durumun təzahürlərinə nəzər salacağıq.

### Birbaşa dialoq və ya Navasardyanın rasionallığı

Beləliklə, İrəvan Mətbuat Klubunun rəhbəri, siyasi icmalçı Boris Navasardyan özünün Facebook səhifəsində yazır ki, Ermənistan ictimai rəyinin xoşuna gəlsə də – gəlməsə də, ümidləri doğrultsa da – doğrultmasa da, BMT Təhlükəsizlik Şurası iclasının konkret nəticələri var. Navasardyanın fikrincə, iclas göstərdi ki, Rusiya – Türkiyə – Azərbaycan proqramının həyata keçirilməsinə alternativ, Qərblə Rusiya arasında Qarabağ uğrundakı müharibə deyil, birbaşa Ermənistan–Azərbaycan dialoqudur.

Deməli, politoloq Ermənistan hakimiyyətinin, eləcə də ölkənin siyasi istableşmentinin ziddiyyətli kimi görünən tərəflər arasında konflikt yaratmaq düşüncəsinin mövcudluğunu vurğulayır. O, həmçinin vəziyyətdən yararlanaraq, Qarabağa sahiblənmək taktikasının mənasızlığını diqqətə çatdırır. Əslində isə yol göstərir, İrəvanın Bakı ilə birbaşa dialoqa getməsinin labüdlüyünü önə çəkir.

Yeri gəlmişkən, qeyd edək ki, Navasardyan əvvəllər də bu sayaq açıqlamaları ilə yadda qalıb. Ancaq, o, hazırda Ermənstan rəhbərliyinin konstruktiv olacağı təqdirdə də maksimum fayda götürəcəyinə inanmır. Çünki fürsətin əldən verildiyi qənaətindədir. Başqa sözlə desək, erməni cəmiyyəti və iqtidarı Navasardyanı və onun kimi tək-tük adamları zamanında eşitməli idi. Amma eşitmədi…

Əlbəttə, Navasardyan anti-Rusiya meyillidir. Onun sözlərindən gəlinən qənaət budur ki, Bakı Ankara və Moskva ilə birgə hərəkət edir. Ancaq siyasi şərhçi mövcud platformada Rusiyanın rolunun azlığına eyham vurur. Bunu sübuta yetirmək üçün fəaliyyət göstərilməsinin zəruriliyini əsas götürür. Onun cızdığı trayektoriya təxminən belədir: Ermənistan şərtləri qəbul edib əməkdaşlıq platformasında yer alacaq. Tədricən, Ankara görəcək ki, Moskvanın perspektivi yoxdur. Belə bir durum Qərb üçün maraqlı olacaq. Deməli, Navasardyan Azərbaycan – Ermənistan birbaşa dialoqunu məhz Rusiyanın lazımsızlığını göstərmək üçün ilk addım sayır. Politoloqun qənaətincə, əks halda regional məsələlər Ermənistanın subyektiv iştirakı olmadan həllini tapacaq.

### Abovyanın "Kağız qaşıq" prinsipi

Bəli, BMT Təhlükəsizlik Şurasının iclası fonundakı isterik durum göstərir ki, Ermənistan cəmiyyəti hazırda enerjisini Azərbaycanı, dünya birliyini qınamağa, habelə, qətiyyətsiz və yanlış mövqe tutan Paşinyan hakimiyyətinə qarşı hiddət püskürməyə sərf edir. Mülahizələrinin mütləq doğruluğundan və yanlışlığından asılı olmayaraq, Navasardyan kimi rasional düşünənlərin sırası isə çox seyrəkdir və nəticədə meydana fikirləri ni diqqətə çatdıracağımız arman abovyanlar, beniamin matevosyanlar, vahe hovannisyanlar və digərləri çıxır.

(ardı 3-cü səhifədə)

# İrəvan Moskvaya böhtan atır

**Azərbaycanın BMT Təhlükəsizlik Şurasındakı diplomatik qələbəsini həzm edə bilməyən haylar yalan, təhrif və uydurma ilə müşayiət olunan siyasi avantürizm fəaliyyətlərini davam etdirirlər. Sözsüz ki, bunun bariz nümunəsi hayların baş naziri Nikol Paşinyanın BMT TŞ-nin iclasındakı müzakirələri təhrif edən açıqlamasıdır.**



Ermənistan hökumətinin avqustun 17-də keçirilən iclasında çıxış edən N.Paşinyan qeyd edib ki, Laçın yolunun (Paşinyan hay leksikonuna uyğun olaraq "dəhliz" ifadəsini işlədir-S.H.) bağlandığı (?) ən yüksək beynəlxalq məhkəmədə vurğulanıb: "Bunu BMT Təhlükəsizlik Şurasındakı müzakirə kontekstində qeyd etməyim Ermənistan cəmiyyətinə qəribə görünə bilər, lakin unutmaq olmaz ki, Azərbaycan daim və davamlı olaraq yolun bağlanmadığını təkid edir. BMT Təhlükəsizlik Şurasında keçirilən müzakirə Qarabağda humanitar böhranın mövcudluğunu (?) və 120 min əhalinin (?) həyatının təhlükə altında olduğunu təsdiqləyib. Vurğulanıb ki, Azərbaycan Beynəlxalq Ədalət Məhkəməsinin Laçın yolunda hər iki istiqamətdə insanların, nəqliyyat vasitələrinin və yüklərin fasiləsiz hərəkətinin təmin edilməsi ilə bağlı qərarını icra etməyib".

BMT TŞ-də üzləşdiyi uğursuzluğu pərdələmək üçün N.Paşinyan çıxışının sonrakı hissəsində də yenə Beynəlxalq Ədalət Məhkəməsinin qərarından bəhs edib. Qeyd edib ki, Qarabağda, guya, humanitar böhranın yaranması ilə bağlı həqiqət beynəlxalq məhkəmədə üzə çıxıb.

(ardı 3-cü səhifədə)

## "Füzuli, biz doğma qoynuna qayıdırıq"



Səhifə ⇨ 7

## "Taxıl sazişi" ətrafında vəziyyət gərginləşir



Səhifə ⇨ 10

## Daha bir görüşün tarixçəsi

**Gülağa Məmmədovun səsini hələ uşaqlıq illərindən eşidirdim. Sovet dönəminin əmək qəhrəmanları, adlısanlı insanlar haqqında oxuduğu mahnılar demək olar ki, dillər əzbəri idi. Çünki o mahnıları orta məktəblərdə də öyrədirdilər və biz o nəğmələri ondan öyrənirdik.**

Mən həmin illlərdə inana bilməzdim ki, nə zamansa o böyük sənətkarla dövlət radiosunun canlı yayımına çıxacaq, qəzet üçün məqalə hazırlayacağam. Ağlıma gətirməzdim ki, sonrakı yazılarımda ilk müsahibənin ilk sualına dəfələrlə qayıdacağam. Nə biləydim ki, Gülağa müəllim mənim müsahibə götürmək üçün evinə getdiyim ilk Xalq artisti olacaq.

(ardı 11-ci səhifədə)

## Bölgələr ümumi tərəqqi yolunda

Səhifə ⇨ 8

# Tacikistan qardaş və dost ölkədir



**Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İlxom Abduraxmonun etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra səfirlə söhbət edən dövlətimizin başçısı Azərbaycan ilə Tacikistan arasında münasibətlərin qardaşlıq və dostluq xarakteri daşıdığını vurğuladı, hökumət üzvləri, parlamentlər, ictimai təşkilatlar xətti ilə daim təmasların və qarşılıqlı səfərlərin həyata keçirildiyini dedi.

Prezident İlham Əliyev Tacikistana dövlət səfərini məmnunluqla xatırladı, səfər çərçivəsində aparılmış müzakirələr zamanı müəyyənləşdirilmiş hədəflərə nail olunması istiqamətində ardıcıl fəaliyyətin həyata keçirildiyini bildirdi. Dövlətimizin başçısı Tacikistana səfəri zamanı bu ölkənin və Düşənbənin inkişafının şahidi olduğunu vurğuladı.

Azərbaycan Prezidenti iqtisadiyyat, ticarət, nəqliyyat, logistika və digər sahələrdə ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi üçün bir çox təşəbbüslərin olduğunu diqqətə çatdırdı, ölkələrimiz arasında tərəfdaşlıq əlaqələrinin möhkəmləndiyini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın və Tacikistanın regionları arasında əməkdaşlığın və şəhərlərarası birbaşa əlaqələrin yaradılmasının vacibliyini bildirdi.

Səfir, ilk növbədə, Tacikistan Prezidenti Emoməli Rəhmonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Tacikistan Prezidentinə çatdırmağı xahiş etdi və Prezident Emoməli Rəhmonu Azərbaycana dövlət səfərinə dəvət etdi.

Səfir İlxom Abduraxmon dövlətimizin başçısının Tacikistana səfəri zamanı ikitərəfli əlaqələrin inkişafı baxımından çox vacib və səmərəli müzakirələrin aparıldığını vurğuladı, müxtəlif səviyyələrdə, o cümlədən parlament sədrlərinin səfərlərinin önəmini qeyd etdi, hökumətlərarası komissiyanın bu yaxınlarda iclasının keçirildiyini xatırladı, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiyini vurğuladı.

İlxom Abduraxmon Bakı ilə Düşənbə arasında birbaşa aviareyslərin açılmasının turizm sahəsində əməkdaşlığımızın inkişafına ciddi təkan verəcəyini qeyd etdi. O, Azərbaycanın sürətli inkişafının, Bakının gözəlliyinin və şəhərin memarlıq üslubunun onda dərin təəssürat hissi yaratdığını dedi.

*AZƏRTAC*

# Koreya XDR ilə əlaqələrimiz gələcəkdə də inkişaf edəcək



**Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Koreya Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sin Xon Çxolun etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Qəbula görə dövlətimizin başçısına təşəkkürünü bildirən səfir Koreya Xalq Demokratik Respublikası Dövlət Şurasının Sədri Kim Çen Inın salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarının Koreya Xalq Demokratik Respublikası Dövlət Şurasının Sədrinə çatdırmağı xahiş etdi.

Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdıran səfir xalqımızın Ümummilli lideri Heydər Əliyevin 1985-ci ildə Koreya Xalq Demokratik Respublikasına səfərinin məmnuniyyətlə xatırlandığını bildirdi. O, Azərbaycanın və Koreya Xalq Demokratik Respublikasının beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığının vacibliyini vurğuladı, iki ölkənin parlamentləri, eləcə də Yeni Azərbaycan Partiyası ilə Koreya Xalq Demokratik Respublikasının Əmək Partiyası arasında əməkdaşlığın inkişaf etdirilməsinin önəmini qeyd etdi. Sin Xon Çxol Azərbaycanın neft-qaz sahəsində zəngin təcrübəsini nəzərə alaraq, Koreya Xalq Demokratik Respublikasından olan tələbələrin Azərbaycanda bu sahədə təhsil almasının vacibliyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin qarşılıqlı maraq doğuran sahələrdə gələcəkdə də inkişaf edəcəyinə əminliyini bildirdi. Ulu öndər Heydər Əliyevin 1985-ci ildə Koreya Xalq Demokratik Respublikasına səfərini xatırladan Prezident İlham Əliyev bu səfərin sonrakı illərdə - Ümummilli liderin müstəqil Azərbaycana rəhbərliyi dövründə Koreya Xalq Demokratik Respublikası ilə əlaqələrin inkişafına təkan verdiyini qeyd etdi.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının 2019-cu ildə Azərbaycanda keçirilən Zirvə görüşü çərçivəsində Koreya Xalq Demokratik Respublikasının yüksək səviyyəli nümayəndə heyəti ilə görüşünü məmnunluqla xatırladı, Qoşulmama Hərəkatı, BMT və digər beynəlxalq təşkilatçılar çərçivəsində ölkələrimiz arasında əlaqələri diqqətə çatdırdı.

Dövlətimizin başçısı parlamentlər, hakim partiyalar arasında münasibətlərin və mədəni əlaqələrin genişləndirilməsinin vacibliyini vurğuladı.

*AZƏRTAC*

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 783-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97, № 3, maddələr 346, 375, № 4, maddələr 472, 483, 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2190 nömrəli, 17 iyul tarixli 2221 nömrəli, 18 iyul tarixli 2228 nömrəli və 1 avqust tarixli 2272 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na aşağıdakı məzmunda 70-1 – 70-7-ci hissələr əlavə edilsin:

"70-1. Məcəllənin 598.1.1, 598.1.2, 598.1.4 – 598.1.6, 598.4 və 598.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Mərkəzi Bankı adından – bu Siyahının 37.4-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

70-2. Məcəllənin 598.1.3, 598.6 və 598.7-ci (Məcəllənin 598.1.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətaya münasibətdə) maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti adından – İdarə Heyətinin sədri, onun müavinləri və departament rəhbəri.

70-3. Məcəllənin 598.2 və 598.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

70-3.1. maliyyə institutlarına münasibətdə Azərbaycan Respublikasının Mərkəzi Bankı adından – bu Siyahının 37.4-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-3.2. notariuslara münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının Ədliyyə sahəsində xidmətlər baş idarəsinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Aparatının ədliyyə sahəsində xidmətlər üzrə müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri;

70-3.3. rieltorlar, hüquq, mühasibat və vergi məsləhəti xidmətləri göstərən müstəqil şəxslərə, belə xarici hüquqi şəxslərin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-3.4. vəkillərə münasibətdə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası adından – Rəyasət Heyətinin sədri, onun müavinləri.

70-4. Məcəllənin 598.7-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar (Məcəllənin 598.1.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xəta istisna olmaqla) haqqında işlər üzrə protokol:

70-4.1. notariuslara münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – bu Siyahının 70-3.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-4.2. rieltorlar, hüquq, mühasibat və vergi məsləhəti xidmətləri göstərən müstəqil şəxslərə, belə xarici hüquqi şəxslərin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-4.3. vəkillərə münasibətdə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası adından – bu Siyahının 70-3.4-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

70-5. Məcəllənin 598.8-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

70-5.1. qeyri-hökumət təşkilatlarına, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – bu Siyahının 36.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-5.2. dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi adından – bu Siyahının 36.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

70-6. Məcəllənin 598.9-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

70-6.1. maliyyə monitorinqi orqanının verdiyi yazılı göstərişlərin vaxtında və ya tam icra edilməməsinə münasibətdə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti adından – bu Siyahının 70-2-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

70-6.2. digər hallarda Azərbaycan Respublikasının Auditorlar Palatası adından – Auditorlar Palatasının sədri, onun müavini, Aparatın rəhbəri.

70-7. Məcəllənin 598.10-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

70-7.1. maliyyə institutlarına münasibətdə Azərbaycan Respublikasının Mərkəzi Bankı adından – bu Siyahının 37.4-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-7.2. notariuslara münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – bu Siyahının 70-3.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-7.3. rieltorlar, hüquq, mühasibat və vergi məsləhəti xidmətləri göstərən müstəqil şəxslərə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-7.4. qeyri-hökumət təşkilatlarına, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – bu Siyahının 36.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-7.5. dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi adından – bu Siyahının 36.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-7.6. vəkillərə münasibətdə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası adından – bu Siyahının 70-3.4-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-7.7. auditor xidməti göstərən şəxslərə münasibətdə Azərbaycan Respublikasının Auditorlar Palatası adından – bu Siyahının 70-6.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-7.8. digər fiziki şəxslərə və qurumlara münasibətdə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti adından – bu Siyahının 70-2-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.".

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 32.1-ci bəndində dəyişiklik edilməsi ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 avqust 2023-cü il**

## "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"nın təsdiqi və "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2.** "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 685; 2012, № 3, maddə 197, № 4, maddə 289, № 6, maddə 532; 2016, № 1, maddə 76, № 11, maddələr 1804, 1828, № 12, maddə 2086; 2017, № 7, maddə 1360, № 10, maddə 1800, № 12 (I kitab), maddə 2313; 2018, № 2, maddə 216, № 12 (I kitab), maddə 2545; 2019, № 5, maddə 848, № 7, maddə 1229, № 8, maddə 1398; 2020, № 5, maddə 549, № 7, maddə 868, № 11, maddə 1362, № 12 (I kitab), maddə 1469; 2021, № 6 (I kitab), maddə 571, № 11, maddə 1218, № 12, maddə 1364; 2023, № 2, maddə 244; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2235 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə "26.5-3-cü," sözlərindən sonra "27.4-cü," sözləri, "44.2-ci maddəsinin" sözlərindən sonra "birinci cümləsində (xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması qaydalarının müəyyən olunması üzrə) və" sözləri əlavə edilsin;

2.2. 2.2-ci bənddən "27.4-cü," sözləri çıxarılsın və həmin bəndə "44.2-ci maddəsinin birinci cümləsində" sözlərindən sonra "(Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması qaydalarının müəyyən olunması üzrə)" sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 avqust 2023-cü il**

## Masallı rayonunun Ləngan–Əhmədli–Təklə–Köçəkli, Bala Təklə–Şərəfə və Öncəqala–Hüseynhacılı–Viləş–Xallıcalı–Dəlləkli–Qədirli avtomobil yollarının tikintisi ilə bağlı tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Əlli bir min nəfər əhalinin yaşadığı 27 yaşayış məntəqəsini birləşdirən Ləngan–Əhmədli–Təklə–Köçəkli, Bala Təklə–Şərəfə və Öncəqala–Hüseynhacılı–Viləş–Xallıcalı–Dəlləkli–Qədirli avtomobil yollarının tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.8-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 14,6 milyon (on dörd milyon altı yüz min) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 avqust 2023-cü il**

# Oskanyan “köhnə bayatılar”ından əl çəkmir

## Sabiq XİN rəhbəri məyusdur, amma BMT-dəki fiaskoda “uğur rüşeymləri” axtarır



(əvvəli 1-ci səhifədə)

Ancaq Oskanyan paylaşımında “diplomatik bacarığını”, guya, ağıllı olduğunu ortaya qoymağı da yaddan çıxarmayıb, öz aləmində, mübarizə naminə, belə demək mümkünsə, tutacaq yerlər müəyyənləşdirib. Məsələn, o yazıb ki, BMT TŞ-nin beş daimi üzvündən heç biri öz çıxışında Ermənistanın Qarabağı vaxtından əvvəl Azərbaycanın bir hissəsi kimi tanımasına xüsusi diqqət yetirməyib. Adam heyrətlənir. İstər-istəməz, sual yaranır: necə olub ki, belə korafəhm adam on il ərzində ölkənin XİN rəhbəri postunu tutub? Əlbəttə, düşünəndə ki, Oskanyan Ermənistan kimi dövlətin xarici siyasətinə rəhbərlik edib, heyrət mənzərəsi bir qədər yumşalır. Ermənistan bir dövlət kimi nədir ki, onun XİN rəhbəri də nə ola? Digər tərəfdən, ölkənin indiki XİN başçısı Ararat Mirzoyan Oskanyandan çoxmu ağıllıdır?..

Əlqərəz, Oskanyanın sözlərindən belə çıxır ki, BMT TŞ-nin iclasında çıxış edənlər Qarabağda humanitar böhranla bağlı rəsmi İrəvanın qaldırdığı məsələyə əhəmiyyətsiz yanaşdıqlarını göstərərkən, mütləq Ermənistan hakimiyyətinin Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdığını başa vurmalı idilər. Vurmayıblarsa, deməli, ümid yeri var. Göründüyü kimi, Oskanyan bir yandan məyusluq mahnısı oxuyur, digər tərəfdən, “reallıq” uydurur. Sabiq XİN rəhbərinin məntiqinə görə, BMT TŞ-dəkilər yığılıb Ermənistanın nümayəndəsini zaldan qovmalı idilər ki, ümid yeri qalmasın. Yəni onlar Azərbaycan Ordusu kimi davranmayıblarsa, nə isə gözləmək mümkündür.

Bəli, V.Oskanyan hər kəsdən ermənilərin anladıqları zor dilində danışmağı istəyərkən, tipik erməni xəstəliyinin ən bariz obrazı rolunda çıxış edir. Yazır ki, “hazırkı danışıqlarda əsas vasitəçilərdən biri olan Avropa İttifaqının nümayəndəsi Dağlıq Qarabağ Muxtar Vilayətinin adını çəkdi. Bu, təsadüfi deyil. Ola bilsin ki, beynəlxalq ictimaiyyət danışıqlar gündəliyinin dəyişdirilməsinin mümkünlüyünü istisna etmir”.

***

Özündəki beyin qıcolmasının təzahürlərini sıralayan V. Oskanyan son dövlər etdiyi çıxışlarındakı ənənəvi “xətti” bir daha işə salır. O, hazırkı XİN rəhbəri A.Mirzoyanın Təhlükəsizlik Şurasının iclasında nələri deməli olduğunu, əslində, nələri demədiyini nöqsan kimi görür və diqqətə çatdırır. Məsələn, Oskanyanın fikrincə, Mirzoyan deməli idi ki, “Azərbaycanın son hərəkətləri və bəyanatları bizi bu qənaətə gətirir ki, ölkə nəinki müqavilələri və imzalanmış sənədləri cəzasız olaraq pozur, həm də erməni tərəfinin xoş niyyətindən sui-istifadə edir”.

Oskanyan Mirzoyanın bunu da deməli olduğunu bildirir: “6 oktyabr 2022-ci il tarixli Praqa Bəyanatında yer alan Azərbaycanın ərazi bütövlüyü ilə bağlı ifadə Ermənistanın Azərbaycanla danışıqlar prosesində əlverişli şərait yaratmaq cəhdindən başqa bir şey deyildi. Ancaq hər şey razılaşdırılmayana qədər diplomatiyada və danışıqlarda heç nə olmur. Bildiyiniz kimi, hələ razılaşmalı olduğumuz çox şey var. Danışıqlar iki xalq arasında ədalətli və davamlı sülhə səbəb olarsa, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazırdır”.

Göründüyü kimi, Oskanyan Mirzoyanın BMT tribunasından Ermənistanın hazırda Azərbaycanın ərazi bütövlüyünü tanımadığını bəyan etməli olduğunu bildirir. Hesab edir ki, bu yolla beynəlxalq ictimaiyyət İrəvana dəstək verəcək. Ancaq unudur ki, əgər dəstək olsaydı, elə indiki məqamda da olardı. Hər halda, Ermənistan hakimiyyəti Qarabağda humanitar böhran şousunu BMT-yə elə-belədən daşımamışdı. Əgər, orada nəticə əldə etmiş olsaydı, bu, faktiki olaraq, İrəvanın Qarabağ da daxil Azərbaycanın suveren hüquqlarını tanımaqdan imtinasına çevriləcəkdi. Yəni indiki durumda baş nazir Nikol Paşinyan iqtidarı ən azı Oskanyan qədər ermənilik edir. Daha dəqiq desək, mövcud reallıqların inkarı üçün vasitələr axtarır. O da görünür ki, ölkənin bütün cəhdləri boşa çıxır. Yəni, sabiq XİN rəhbərinin “köməyinə” ehtiyac yoxdur.

***

Oskanyan xəstə təfəkkürünü işə salaraq onu da bildirir ki, Azərbaycan heç vaxt özünün müstəqil bir hissəsi olmayan Dağlıq Qarabağın sovet dövründə muxtar statusa malik olması faktını görməzdən gələ və “Qarabağ xalqının” taleyi və statusu ilə bağlı istənilən müzakirə üçün minimum əsasın olduğunu unuda bilməz. Bu yerdə ilk növbədə deyilməlidir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti yaranada da Azərbaycanın tərkibində olub, sonrakı mövcudiyyəti dövründə də.

İkincisi, Vardanın Ermənistanın XİN rəhbəri olduğu dövrü yada salaq. Həmin vaxt Azərbaycan Qarabağa özünün tərkibində ən yüksək status verməyə hazır idi. Ancaq Ermənistan hakimiyyəti bununla razılaşmadı. Nəinki razılaşmadı, digər torpaqlarımızın da işğalına son qoymaqdan boyun qaçırdı. Belə yanlış yanaşma isə 44 günlük müharibə reallığını doğurdu. Ermənistan savaş meydanında darmadağın oldu.

***

Deməli, yeni reallıqların qalib Azərbaycanın haqqı kimi meydana çıxması həm qanunauyğundur, həm də ədalətli. Qanunauyğundur ona görə ki, ölkəmiz müharibədə qan tökdü, yəni İrəvan xoşluqla heç nə etmədi. Ədalətlidir o səbəbdən ki, ortada beynəlxalq hüquq və tarix var. Tarix isə onu göstərir ki, hazırkı Ermənistan Azərbaycanın əzəli torpaqlarında qərarlaşıb. Əgər Oskanyan və digər avantüristlər bu qərarlaşmanı qiymətləndirmək istəmirlərsə və yeni iddialara düşürlərsə, deməli, əllərində olanın qədrini bilmirlər. Qədri bilinməyən hər şey isə itirilir. İrəvan buna doğru gedir.

***R.ƏVƏZ, “Xalq qəzeti”***

# İrəvan Moskvaya böhtan atır

## Hökumətə yaxın erməni mediası Polyanskinin çıxışını təhrif edib

(əvvəli 1-ci səhifədə)

Ermənistan baş nazirinin BMT TŞ-dəki müzakirələri təhrif etməsinə ən tutarlı cavabı Azərbaycanın Xarici İşlər Nazirliyi verib. Nazirlik bildirib ki, N.Paşinyanın BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələri və üzv dövlətlər tərəfindən səslənmiş bəyanatları təhrif etməsi Ermənistanın növbəti dəfə düçar olduğu uğursuzluqla barışmaq istəmədiyini bir daha göstərir: “Bölgədə “humanitar vəziyyət” barədə hazırkı iddiaların aradan qaldırılması üçün Azərbaycan tərəfindən təklif olunmuş Ağdam-Xankəndi yolundan istifadənin əksər üzv dövlətlər tərəfindən dəstəklənməsinə və bu yoldan istifadə edilməsi barədə çağırışlara baxmayaraq, Nikol Paşinyanın yoldan istifadəni qəbul etməməsi Ermənistan tərəfinin bölgədə vəziyyəti daha da gərginləşdirmək niyyətindən xəbər verir. Ermənistan tərəfi anlamalıdır ki, bölgədə sülh və sabitliyin təminatının yolu əsassız iddialarla BMT Təhlükəsizlik Şurasında məsələ qaldırmaqdan yox, ərazi bütövlüyünün və suverenliyin təsdiq olunması və hörmət edilməsi əsasında qonşu ölkələrlə münasibətlərin qurulmasından və sülhün bərqərar olunması üçün Azərbaycanla birbaşa konstruktiv danışıqlardan keçir”.

***

Ermənistanın baş naziri ilə yanaşı, bu ölkənin media subyektləri də BMT TŞ-dəki müzakirələri təhrif etməkdədirlər. Məsələn, “Armenpress” saytı Rusiyanın BMT-dəki daimi nümayəndəsinin birinci müavini Dmitri Polyanskinin Təhlükəsizlik Şurasının iclasındakı çıxışını fərqli formada təqdim edib. Sayt rusiyalı diplomatın adından belə bir cümlə yazıb: “Rusiya Laçın dəhlizinin davam edən blokadasından narahatdır və hesab edir ki, Dağlıq Qarabağ xalqı üçün təhlükəsizlik təminatları olmadan Ermənistanla Azərbaycan arasında barışıq mümkün deyil”. Bu cümlə saytdakı məqalənin sərlövhəsini təşkil edib.

Biz D.Polyanskinin Rusiyanın BMT-dəki daimi nümayəndəliyinin saytında yerləşdirilmiş çıxışının mətnini diqqətlə oxuduq. Mətnin heç bir yerində belə bir cümləyə rast gəlmək mümkün deyil. Həmin cümlə diplomatik nümayəndəliyin saytında bu cür verilib: “Ermənistan–Azərbaycan barışığı Azərbaycanın hüquqi müstəvisi çərçivəsində hamılıqla tanınmış beynəlxalq prinsiplər əsasında Qarabağ sakinlərinin təhlükəsizliyinə və hüquqlarına riayət olunmasına etibarlı və aydın təminat olmadan ağlabatan deyil. Bu məntiq Ermənistan və Azərbaycan liderlərinin 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq, tərəflərin bir-birinin ərazi bütövlüyünü qarşılıqlı tanınması haqqında dəfələrlə təsdiqlənmiş son razılaşmalardan irəli gəlir”.

D.Polyanski qeyd edib ki, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-2022-ci illərdə imzaladıqları bəyanatlar Bakı ilə İrəvanın barışması üçün alternativsiz “yol xəritəsi” olaraq qalır: “Üçtərəfli sazişlərin potensialı tükənməkdən uzaqdır. Onların əsas komponentləri Rusiyanın ekspert yardımı ilə Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və sonradan demarkasiyası, Rusiya, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinlərinin həmsədrlik etdiyi Üçtərəfli İşçi Qrupu çərçivəsində nəqliyyat kommunikasiyalarının blokunun açılması, Ermənistan–Azərbaycan sülh müqaviləsinin hazırlanmasına yardım, parlamentarilər və ictimaiyyətin nüfuzlu nümayəndələri arasında dialoqun inkişaf etdirilməsidir. Bu sahələrin hər birində müəyyən irəliləyişlər əldə edilib. Rusiya müvafiq səylər göstərməyə davam etməkdə qərarlıdır”.

O, həmçinin deyib ki, Rusiya Qarabağ ətrafında vəziyyətin normallaşdırılmasında və ümumilikdə, Ermənistan-Azərbaycan barışığında maraqlı olan bütün məsuliyyətli oyunçularla işləməyə hazırdır: “Azərbaycan və erməni xalqlarının köklü maraqlarına söykənən bu ssenariyə səmimi əməl edən hər kəs istənilən geosiyasi və müxtəlif daxili siyasi mülahizələri bir kənara qoymalıdır. Biz, həmçinin bu kontekstdə Təhlükəsizlik Şurasının platformasından istifadəyə məsuliyyətlə yanaşmağa çağırırıq: istənilən halda problemlər Bakı ilə İrəvan arasında həll edilməlidir. Və heç bir xaricdən tətbiq edilən sxemlər və həllər onların dialoqunu əvəz etməyəcək. Biz öz tərəfimizdən tərəfləri ilkin mehriban qonşuluq həllinə yaxınlaşdırmaqla, o cümlədən Rusiya sülhməramlı kontingentinin imkanlarından istifadə etməklə bunu təşviq etməyə davam edəcəyik”.

D.Polyanski onu da qeyd edib ki, iyulun 25-də Rusiya, Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında danışıqlar zamanı Moskva real kompromislər təklif edib: “Bu, mülki əhalinin və yüklərin daşınması üçün Ağdam və Laçın vasitəsilə paralel humanitar dəhlizin açılmasını nəzərdə tutur ki, Qarabağ sakinlərinin nümayəndələri ilə Bakı nümayəndələri arasında dialoq tez bir zamanda bərpa olunsun”.

Göründüyü kimi, rusiyalı diplomatın çıxışının heç bir yerində “Dağlıq Qarabağ” xalqı deyilən qondarma ifadədən istifadə olunmayıb. Bu ifadəni hayların haradan götürdüyü başdan-ayağa müəmmadır. Buradan çıxan nəticələrdən biri də bundan ibarətdir ki, ağa qara deməyə öyrəşmiş, öz yalanlarını həqiqət kimi sırımağa adət etmiş haylar artıq başqa ölkənin diplomatının adından danışmağı da özlərinə rəva görürlər.

Bu hadisə bir daha göstərir ki, artıq ermənilər üçün toxunulmaz heç nə qalmayıb. Digər tərəfdən, bununla heç nə qazanmadıqlarını anlamamaq bir toplumun faciəsidir. Vətən müharibəsindən sonra Azərbaycanın regionda yaratdığı yeni reallıqlar da bu xalqın düşüncə tərzini dəyişməyib. Bundan sonra dəyişəcəyinə də inam çox azdır. Əslində, özlərini “böyük Ermənistan” yalanı ilə aldadan bir cəmiyyətdən bundan artığını gözləmək də düzgün olmazdı. BMT TŞ-yə uydurma dolu müraciət etməyi özünə sığışdıran xalqın nümayəndələrinin Rusiya diplomatının çıxışını təhrif etmələri də adi sayılmalıdır. Bu, bizim üçün təəccüblü deyil, zənnimizcə, bundan sonra çıxışı təhrif edilən şəxslər üçün də təəccüblü olmayacaq.

***Səxavət HƏMİD, “Xalq qəzeti”***

### Ekspert rəyi

**Zaur MƏMMƏDOV, politoloq**



– Nikol Paşinyana yaxın olan Ermənistan media qurumlarının Rusiyanın BMT-dəki daimi nümayəndəsinin Qarabağ məsələsi ilə bağlı çıxışını təhrif etməsi gözlənilən idi. Çünki Paşinyan hazırda daxildə çox ciddi təzyiqlə üz-üzədir. İnsanlar hər yerdə onun siyasətindən narazılıq edirlər. 2020-ci ildə baş vermiş müharibənin onun təqsiri üzündən başladığı qənaətindədirlər. Müharibədə övladları həlak olan erməni analar aksiyalar keçirirək, Paşinyandan cavab tələb edirlər. Belə bir məqamda BMT TŞ-də diplomatik uğursuzluğa düçar olan N.Paşinyan bu uğursuzluğu pərdələmək, necə deyərlər, sudan quru çıxmaq istəyir. Ancaq unudur ki, bu kimi saxta gedişlərlə Ermənistan cəmiyyətini aldatmaq mümkün deyil.

İnformasiya-kommunikasiya texnologiyalarının inkişaf etdiyi bir zamanda alternativ mənbələrə müraciət edərək BMT TŞ-dəki müzakirələrdə Rusiya nümayəndəsinin necə çıxış etdiyini öyrənmək çətin deyil. Bu mənada yaxşı olardı ki, Ermənistan rəhbərliyi Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsilli sakinlərin ölkə qanunvericiliyi çərçivəsində reinteqrasiya siyasətinə müqavimət göstərməsin. Baş nazir Paşinyan, guya, Azərbaycanın erməni sakinlərə atəş açdığı barədə iddialar və ölkəmizin ünvanına “etnik təmizləmə” kimi ağır ittihamlar səsləndirməsin. Bunların baş verməsi Ermənistan rəhbərliyinin bölgədə reallıqları hələ də düzgün qiymətləndirmədiyini nümayiş etdirir.

# Ermənistanda isterik depressiya

## Son diplomatik məğlubiyyət cəmiyyətdəki çatları böyüdür



(əvvəli 1-ci səhifədə)

Beləliklə, siyasi müşahidəçi Arman Abovyan BMT Təhlükəsizlik Şurasındakı müzakirəni nəzərdə tutaraq deyir ki, mənfi prosesin səbəblərini başa düşmədikcə, nəticələr həmişə acınacaqlı olacaq: “Dünya bizi tərk etdi”, – deyə qışqırmazdan əvvəl gəlin bir şeyə diqqət yetirək: Erməniləri ən mənfi ssenariyə kim aparıb? İndiki Ermənistan hakimiyyəti! Qarabağı vermək bahasına Ermənistanın təhlükəsizliyini “almağın” mümkün olduğuna kim qərar verdi? Kim Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıdı və bununla da Azərbaycanın “Qarabağ xalqı” ilə istədiyini etmək hüququnu qanuniləşdirdi? Kim Ermənistanın dövlət və milli maraqlarından imtina edib, sülhü alacağını gözləyib? Hazırkı Ermənistan hakimiyyəti! Və bundan sonra dünya ictimaiyyətinin özünü məhv etməklə razılaşan erməniləri qurtaracağına ümid varmı? BMT Təhlükəsizlik Şurasının iclasının nəticələrinə etiraz etməzdən əvvəl kağız qaşıq prinsipini xatırlayın”.

### Matevosyanın isteriyası

A.Abovyandan fərqli olaraq, politoloq Beniamin Matevosyan bilavasitə BMT TŞ-dəki iclasın nəticələrinə köklənir. Qurumun Laçın dəhlizinin “blokadasının” aradan qaldırılmasına kömək etmədiyini və bu hadisədən fərqli nəticə gözləməyin özünü aldatmaq olduğunu deyən politoloqun şərhi təxminən belədir: Birincisi, iclasda “Qarabağ xalqının” öz müqəddəratını təyinetmə hüququ ilə bağlı minimal ifadələr belə işlənmədi. İkincisi, Qarabağ məsələsinə Azərbaycanın ərazi bütövlüyü prizmasından baxıldı. Üçüncüsü, yalnız Təhlükəsizlik Şurasının Qarabağın blokadası ilə bağlı deyil, həm də Beynəlxalq Cinayət Məhkəməsinin Laçın dəhlizinin blokadasının ləğvi qərarına məhəl qoymadığına görə Azərbaycanın necə cəzalandırılacağına dair qətnaməsi yoxdur. Dördüncüsü, Türkiyə nümayəndəsi Azərbaycanın mövqeyinə tam dəstək verdi. Baxmayaraq ki, Paşinyanın bütün təbliğatları Ermənistan cəmiyyətini “Türkiyə Azərbaycan deyil” fikrinə və hətta Türkiyənin Ermənistanın təhlükəsizliyinin təminatçısı ola biləcəyinə inandırır. Beşincisi, Ağdam yolunun Laçın dəhlizi ilə bərabər istifadəsinə dair müraciətlər olmadı.

Bütün bunları vurğulayaraq, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi, BMT Təhlükəsizlik Şurasının da Ermənistandan çəkildiyini deyən Matevosyan bu fikirdədir ki, avqustun 16-da keçirilmiş müzakirəni erməni cəmiyyətinin və siyasi elitasının əhəmiyyətli hissəsi, ümumiyyətlə, dərk etmədi. “Dərk etmədi ki, müzakirəyə çıxarılan məsələ Ermənistanın gələcəyi idi. Əgər indiki hakimiyyət Ermənistanı xilas etmək naminə Qarabağı Azərbaycanın öhdəliyinə buraxmaq siyasətini davam etdirirsə, o zaman Ermənistanın təhlükəsizliyi və onun sərhədlərinin legitimləşdirilməsi sistemi məhv ediləcək ki, bu da öz növbəsində tam təhdidlərlə doludur və dövlətçiliyin süqutudur”.

### Vahenin “alternativ” fikri və uçmaq həvəsi

Ermənistandakı siyasi isteriyanı ortaya qoyanlardan biri də “Alternativ layihələr” qrupu adlandırılan təşkilatın üzvü, siyasi icmalçı Vahe Hovannisyandır. O deyir: “İnsanlar bir-birindən soruşurlar ki, BMT Təhlükəsizlik Şurasının iclasında nə baş verib? Heç kim bir söz demir. Hakimiyyət nə gözlədiyini, nə əldə etdiyini açıqlamır. Amma reallıq dəyişmir: blokada, kəskin ərzaq və dərman çatışmazlığı. Müxalifət də susur. Bəzi insanlar nəyisə formalaşdırmağa çalışırlar. Lakin, bu, hər halda, fərdidir. Bütövlükdə, cəmiyyət üçün az-çox inandırıcı cavab yoxdur. Qarabağdan da heç bir reaksiya yoxdur, halbuki olmalı idi”.

V.Hovannisyan Braziliya nümayəndəsinin BMT TŞ-dəki çıxışına söykənərək, onu da bildirib ki, hətta ənənəvi ermənipərəst mövqedə dayanan bir ölkə, bu dəfə başqa cür mövqe tutursa, vəziyyət çox pisdir. Bununla belə o, ənənəvi erməni xislətindən qalmayıb. Hovannisyan Paşinyan administrasiyasının BMT müstəvisindəki fiaskoda günahlandırarkən, ikincinin Qarabağın xarici dünya ilə hava əlaqəsi məsələni qaldırmamasını da ciddi nöqsan kimi xarakterizə edib. Deyəsən, Vahe uçmaq istəyir...

### Başın itirilməsi dövlətçiliyin itirilməsi deməkdir

Haylar onsuz da başlarını itirmişdilər. Göründüyü kimi, BMT Təhlükəsizlik Şurasındakı müzakirə aqoniyanı bir qədər də dərinləşdirib. Onlar kimi günahlandıracaqlarını bilmirlər. Halbuki ən optimal yol belə yanaşmadan, ümumiyyətlə, əl çəkmək, reallıqları qəbul etməkdir. Təəssüf ki, Ermənistan cəmiyyətində bunun işartıları görünmür. Mövcud durumda qətiyyətlə, demək olar ölkəni yalnız bir aqibət gözləyir. Onun adı isə fəlakətdir.

Bəli, Ermənistan hər ötən gün fəlakətə doğru addım-addım irəliləməkdədir. Fəlakət aqibətinin bir detalını İrəvan mətbuat klubunun rəhbəri Boris Navasardyanın fikirləri ilə diqqətə çatdırdıq. Söhbət Ermənistanın taleyinin onun özünün iştirakı olmadan müzakirəsi perspektivindən gedir. Şübhə yoxdur ki, bu perspektiv erməni dövlətçiliyinin süqutudur. Əslində, buna İlahi qanunauyğunluq da demək mümkündür. Çünki müasir erməni dövlətçiliyi Qarabağ amili üzərində qurulmuş avantürizm dağarcığıdır. Deməli, Qarabağ yoxdursa, o da yoxdur. Proseslər buna doğru gedir və erməni cəmiyyəti, ölkənin ziyalı mühiti vəziyyətə təsir gücündə deyil.

***Ə.CAHANGİROĞLU, “Xalq qəzeti”***

# Azərbaycanın Ermənistana qarşı ərazi iddiası yoxdur

## Amma torpaqlarımızı separatçı və terrorçulardan təmizləməkdə israrlıyıq

**Məlum məğlubiyyətlərdən sonra Ermənistanda baş qaldıran revanşistlərin atacağı hansısa addımlar təkcə Cənubi Qafqaza sülh gətirilməsinə mane olmayacaq, həm də regionun, deməli, həm də onların özlərinin iqtisadi inkişafını əngəlləyəcək. Unudurlar ki, revanş məqsədilə düşünülən plan, terror və təxribatlar yeni hərbi əməliyyatların başlanmasını qaçılmaz edəcək və nəhayət, onlar otuz il Azərbaycan torpaqlarında törətdiklərinin hesabını verməli olacaqlar.**




Hamı bilir ki, Azərbaycan Ordusu və ya hansısa fərdimiz heç bir mülki erməniyə zərər verəcək addım atmayıb. Ancaq ermənilər bilavasitə dövlət səviyyəsində yüzdən çox türk siyasətçisinə, diplomatına qarşı terror törədib, yüzlərlə günahsız azərbaycanlı körpəni qanına qəltan ediblər. Ona görə də regionun yeni hərbi əməliyyatlara cəlb edilməsi Ermənistan üçün təsəvvür etdiklərindən qat-qat ağır nəticələr verəcək. Odur ki, suyun yenidən bulandırılmasından əl çəkməlidirlər.

O da faktdır ki, son günlər Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə məhz olduğu kimi çatdırılması, eləcə də Ermənistanın dövlət səviyyəsində uydurduğu iyrənc yalanların növbəti dəfə ifşa edilməsi barədə yayılan xəbərləri eşidəndə qədim bir el məsəlimiz yada düşür: "Yanlış da bir naxışdır". Yəni biz – təbii ki, elə mən də neçə gün əvvəl eşidəndə ki, ermənilər məlum məsələnin BMT Təhlükəsizlik Şurasının fövqəladə iclasında müzakirə edilməsinə nail olublar, ciddi şəkildə narahat olmuşduq. Çünki beynəlxalq aləmdən kifayət qədər riyakarlıqlar, ikili standartlar görmüşdük və indi də hansısa ədalətsizliyin baş verəcəyini istisna etmirdik. Ancaq müzakirələrdən sonra məlum oldu ki, bunlar tamamilə Azərbaycanın xeyrinə imiş.

Dünya ictimaiyyəti bir daha gördü ki, Azərbaycan heç bir ərazini "blokada"ya almayıb. Əksinə, Qarabağ iqtisadi rayonumuzda yaşayan ermənilərin istənilən humanitar məqsədlə ölkədən getməsinə və qayıdıb gəlməsinə zəmin yaradılıb. Hamıya məlum oldu ki, Qarabağ ermənilərinin aclıqdan ölməsi tamamilə ağ yalandır. Əksinə, "blokada"da olan ərazilərdə təmtəraqlı toy məclisləri, ad günləri və digər məclislər keçirilir. Azərbaycan diplomatiyası bütün dünyaya sübut etdi ki, İrəvan, Tehran və Parisin aləmə car çəkdiyi "Azərbaycan Qarabağda soyqırımı törətməyə hazırlaşır" haray-həşiri müəyyən zümrənin qəsdən uydurduğu cəfəngiyatdır. Məlum oldu ki, Ermənistanda fəaliyyət göstərən bəzi millətçi təşkilatlar revanşist çağırışlarla erməni gənclərinin beynini zəhərləyirlər.

Elə bu yazı da məhz həmin çağırışların Ermənistan üçün olduqca ağır fəsadlar törədəcəyi barədədir. Çünki "Daşnaksütyun" partiyasının quldurları başda olmaqla, tarix boyu ( onların Qafqazdakı tarixi iki əsrdən bir az çoxdur) türk düşmənçiliyindən əl çəkməyən faşist düşüncəli ermənilər 2020-ci ilin dərslərindən nəticə çıxara bilmirlər. Yəni revanş çağırışlar son aylar işğalçı ölkədə tez-tez səslənir. BMT Təhlükəsizlik Şurasındakı məğlubiyyətdən sonra isə daha da fəallaşırlar. Ancaq unudurlar ki, bu addımlarla Ermənistanın məğlubiyyətlər seriyasını "zənginləşdirəcəklər". Çünki Azərbaycan da daha kiminsə nazıyla oynamaq fikrində deyil, beynəlxalq ictimaiyyət də erməni nağıllarına qulaq asmaqdan bezib.

Bu məzmunlu bəzi arqumentləri yada salaq. Dövlət başçımız hələ ötən ilin aprelində demişdi ki, əgər Ermənistanda hələ də revanşizm haqqında düşünən və buna əsaslanaraq, sülh müqaviləsinin imzalanmasına və Azərbaycanın ərazi bütövlüyünün tanınmasına mane olan müəyyən qüvvələr varsa, o zaman biz də analoji addımlar atmalı və işğalçı Ermənistanı tanımamalı olacağıq. Yəni Ermənistanın ərazi bütövlüyünü məhz bu ölkədəki revanşistlər təhlükə altına alırlar. Amma Azərbaycan lideri bu məqamda da ermənilərə xatırladır ki, indiki halda bizim Ermənistana heç bir ərazi iddiamız yoxdur. Ona görə də daşnaklar və onların ətrafındakılar yaxşı düşünməlidirlər.

Yeri gəlmişkən, dövlət başçımızın "Euronews" televiziyasına verdiyi müsahibədə qisas almalı (yəni revanş addımı atmalı) tərəfin kimin olduğu açıq-aydın görünür: "Otuz illik işğaldan əziyyət çəkmiş ölkəmizin işğal altında olan əraziləri tamamilə məhv edilmişdir. Şuşada qeyri-qanuni məskunlaşmalar olduğu üçün şəhər tamamilə dağıdılmamışdır. Onlar Orta Şərqdən olan erməniləri burada məskunlaşdırmaq istəyirdilər və burada bir neçə min erməni yaşayırdı. Məhz buna görə heç də bütün şəhərlər dağıdılmamışdır. Lakin Füzuli tamamilə yerlə-yeksan edilmişdir, Ağdamda da vəziyyət eynidir.

Demək olar ki, bir milyon azərbaycanlı evindən məhrum olmuşdur. Bütün bu acılara baxmayaraq, biz qisas almadıq. Mən dedim ki, biz qisası döyüş meydanında alacağıq, lakin Ermənistan müharibənin ilk günündən mənim tələb etdiyim bütün ərazilərdən geri çəkiləcəyi tarixləri təqdim edən kimi biz dayandıq və sonra da sülh haqqında danışıqlara başladıq. İndi sülh bizim gündəliyimizdədir. Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddiamız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik".

Xatırladaq ki, Azərbaycan tərəfinin fikrincə, Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan ermənilər ölkəmizdəki digər çoxsaylı milli azlıqlar kimi, Azərbaycan vətəndaşları olaraq, yaşayacaqlarına və yaxud Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər. Bu, onların seçimidir. Rəsmi Bakı onlara seçim hüququ verir.

Bəs ermənilər Azərbaycanın bu sülh jestlərini necə qiymətləndirirlər? Əslində, onların nəyi, necə qiymətləndirməsi bizim üçün o qədər də maraqlı deyil. Ancaq Qarabağ erməniləri başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq onlar normal həyat yaşayacaqlar. Dövlət başçımızın dediyi kimi, onlar manipulyasiyanın girovu olmağa son qoyacaqlar: "Həmçinin onlar başa düşməlidirlər ki, bizi saymamağa davam etsələr, bizim mövcud olmadığımız kimi davranmağa davam etsələr və ya "prezidenti", "nazirləri", "parlamentariləri" olan qondarma ölkədə yaşayırlarmış kimi davransalar, bu gün olduqları vəziyyət onların xeyrinə dəyişməyəcək. Bütün bunlar yalandır. Biz onlara normal həyat təklif edirik. Düşünürəm ki, onlar mənə qulaq assalar başa düşəcəklər və bilirlər ki, mən sözümə əməl edirəm".

Bu məqamda yuxarıdakı arqumentlərimizi təkrarlamaqdan başqa heç bir fikrimiz yoxdur: Biz heç bir dövlətə qarşı ərazi iddiaları etmirik. Ancaq ölkəmizin bütün ərazilərini terrorçu, təxribatçı, separatçı və işğalçı ünsürlərdən tamamilə təmizləməkdə israrlıyıq. Nə qədər ki, gec deyil, Xankəndi də bu həqiqətləri anlamalı, lazım olan addımları atmalıdır. Atmasalar, başqa addımların şahidi olacaqlar.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Avantüristlərin "aclıq isterikası" sərhəd tanımır

## Haylar İsrail Prezidentindən də "humanitar fəlakət"ə əncam çəkməyi xahiş ediblər

**Nə qədər qəribə səslənsə də, bu, faktdır. İsraildəki erməni lobbisi bu günlərdə Prezident İsxak Hersoqa Qarabağda "humanitar fəlakət" səbəbindən "aclıqdan əziyyət çəkən" ermənilərə yardım göstərmək xahişi ilə müraciət edib. Bu barədə məqalə dərc edən Caliber.az saytı siyasi texnoloq və tarixçi, İsrailin ITON TV kanalında yayımlanan "Asiya. Böyük oyun" telelayihəsinin rəhbəri David Eydelmandan məsələyə münasibətini öyrənib.**



Yerli erməni lobbisinin dövlət başçısına ünvanladığı məktubun yuxarıda heç bir reaksiya doğurmadığını söyləyən Eydelman müraciət müəlliflərinin əsl niyyətlərinin nədən ibarət olduğuna bu cür aydınlıq gətirib: "Onlar bu müraciətlə İsrail rəhbərliyinə şikayətlənmək və eyni zamanda, yəhudilərin azərbaycanlılar barədə ənənəvi müsbət rəyini dəyişmək məqsədini güdürlər. Azərbaycanın ünvanına şər-böhtanla dolu məktubu göndərənlər Təl-Əvivin Qarabağdakı separatçı rejimə münasibətdə rəsmi Bakının mövqeyini dəstəklədiyini çox gözəl bilirlər. İsraildəki erməni lobbisi, hər halda, BMT TŞ-nin məlum iclasına qədər ümid edirdilər ki, Nyu-Yorkda Bakını ittiham edəcək, cəzalandıracaq və onu Laçın yolunu açmağa, eləcə də başqa addımları atmağa məcbur edəcəklər. Amma bu düşüncədə olan ermənilərin və onların tərəfdarlarının gözlədiyinin əksinə olaraq, BMT TŞ Qarabağda "aclığın" olduğuna və "soyqırımı təhlükəsinə" inanmaqdan imtina etdi. Ölkəmizdəki erməni lobbiçilərin bu məktubu yazarkən nəyə bel bağladıqlarını anlamaq, ümumiyyətlə, mümkün deyil. Məgər onlar bununla çoxəsrlik Azərbaycan–İsrail dostluq əlaqələrini poza biləcəklərinə ümid edirdilər? Biz hələ bu münasibətlərin indiki qarşılıqlı səmimiyyətə və effektə söykənən əməkdaşlıq səviyyəsindən danışmırıq".

### Prezidentin bu məsələdə mövqeyi dəqiqdir

Erməni lobbiçilərin İsrail Prezidentinə "aclıq isterikalı" müraciətinə sıravi yəhudilərin reaksiyası barədə danışan David Eydelman onun üçün bu məsələnin tam aydın olmadığını bildirib: "Açığı, ermənilərin niyə məhz Prezident İsxak Hersoqa üz tutduqlarını anlamaq çətindir. Cənab Prezident elə bu ərəfədə Azərbaycanla möhkəm dostluq və tərəfdaşlıq əlaqələrinin daha da genişləndirilməsi ilə bağlı çıxış etmişdi. Bəlkə onların niyyəti dövlət başçımızın gözünü "əsl həqiqətə" açmaq imiş? Biz bunu, sadəcə, güman edə bilərik. Onu deyim ki, İsxak Hersoqda Azərbaycanla dostluq əlaqələrinin möhkəmlətmək meyilləri bu gün və hətta prezident seçiləndən sonra yaranmayıb. Yadımdadır, onunla hələ iyirmi il bundan əvvəl Türkiyə və Azərbaycanla münasibətlərin qurulmasının vacibliyindən danışanda o, hələ Fəhlə Partiyasının siyahısında Knessetə seçkilərdə iştirak edirdi. Yəni Prezidentimizin bu məsələdə mövqeyi aydın və dəqiqdir. Amma İsrail demokratik dövlətdir və istənilən vətəndaş dövlət başçısına müraciət edə bilər. Həmin müraciət mütləq oxunur və ona baxılır. Fəqət, ermənilərin müraciəti ilə bağlı məsələdə maraqlı detal odur ki, məktubdakı imzaları toplamaq təşəbbüssünün kimə məxsus olduğu onun özü üçün də aydın deyil".

### Müraciətdə nələr yazılıb?

Məlum məktubun mətnində nələrin yer aldığı barədə İsrailin "Wella" saytı məlumat verib. Saytın yazdığına görə, məktubda Qarabağda 120 min (?) ermə-

**Ekspert rəyləri**



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Erməni lobbiçilərin İsrail Prezidentinə müraciəti, mən deyərdim ki, daha çox təbliğat xarakteri daşıyır. Yəni, Azərbaycan–İsrail münasibətlərinin indiki səviyyəsini, eləcə də ermənilərin fələstinlilərlə əlbir olub Təl-Əvivə qarşı fəaliyyət göstərdiklərini nəzərə alaraq, bu müraciətə müsbət reaksiyanı gözləmək mümkün deyil. Aydın məsələdir ki, sadəcə, müraciət təbliğat xarakteri daşıdığından, onun müəllifləri indi İsrailin Qarabağdakı daxili proseslərə hansısa formada müdaxiləsinə bel bağlayırlarsa, bunun heç bir nəticəsi olmayacaq. Eyni zamanda, onu da qeyd etməliyik ki, İsraildə çox yaxşı dərk edirlər və aparılan bütün sorğular göstərir ki, Ermənistan və onun müttəfiqləri yəhudilərə qarşı daim antisemit mövqedə dayanıblar. Belə olduğu təqdirdə Ermənistanın Qarabağ məsələsində İsraildən hansısa dəstəyi gözləməsi boş cəhddən başqa bir şey deyil.



**Tofiq ABBASOV,**
**siyasi şərhçi**

İsrail cəmiyyəti özünəməxsus bir cəmiyyətdir və orada erməni amili həmişə destruktiv rol oynayıb. Onlar üçün məğlubiyyətlə barışmaq tarixi ənənəyə çevrilib. Sadəcə, hər il təşkil etdikləri ianə oyunlarında topladıqları pullarla guya dünyada çətinə düşən, Qarabağda darda qalan ermənilərə kömək edirlər. Bir halda ki, böyük pullar yığılır, deməli ona yiyələnmək lazımdır. İsraildəki azsaylı erməni lobbisinin başında Aleksandr Sinker deyilən biri dayanıb. Vaxtilə Ermənistanda yaşamış demaqoq yəhudidir. Siyasi savadı çox aşağı səviyyədə olan bu adam avantüristin biridir. Guya, erməni icmasının rəhbəridir, vaxtaşırı yersiz, bəsit bəyanatlar verir. Məqsədi isə ermənilərin hesabına gəlir əldə etməkdir.

İsraildə parlament üsullu idarəetmədir və əsas fiqur baş nazirdir. Prezident ikinci dərəcəli sayılır. Bir çox hallarda rəmzi rəhbər funksiyasını yerinə yetirir. Görünür, erməni lobbisi baş nazirə müraciətə cürət etməyib. Bu faktın özü onların niyyətlərinin nə qədər cılız və mənasız olduğunu göstərir. Amma belə gedişlərin heç bir siyasi çəkisi yoxdur, ola da bilməz.



**Fərid ŞƏFİYEV,**
**beynəlxalq münasibətlər üzrə ekspert**

Hazırda ermənilər dünyanın az qala bütün ölkələrinin prezidentlərinə yazır, müraciət edirlər. İsrailin özündə də Ermənistanı dəstəkləyən müəyyən qüvvələr var. Bu qüvvələr belə bir məntiqdən çıxış edirlər ki, əgər yəhudilər soyqırımına məruz qalmış xalqdırsa, onlar ermənilərə də bu məsələdə yardım etməlidirlər. Çox güman ki, bu sonuncu addım da həmin liberal qüvvələrə hesablanaraq atılıb. İsraildə ermənilərə görə daim Azərbaycanı tənqid edən, qarayaxma kampaniyası aparan bir qəzet var. Bu nəşrin əsas missiyası yeri gəldi–gəlmədi, İsrail-Azərbaycan münasibətlərini tənqid atəşinə tutmaq, iki xalq arasında yaxın, səmimi münasibətlərə kölgə salmağa cəhdlər etməkdir.

Əlbəttə, oradakı erməni lobbisi oxşar müraciətləri təkcə İsrailin Prezidentinə deyil, dünyanın bir çox dövlət və hökumət başçılarına da ünvanlayıb. Amma bunun nə daxildə, nə də xaricdə heç bir faydasının olmayacağını özləri də çox gözəl bilirlər.

ninin son səkkiz ayda faktiki olaraq azərbaycanlıların mühasirəsində qaldığı və bu səbəbdən ərzaq və dərman kimi zəruri malların daşınmasını çətinləşdirdiyi əks olunub. Məktub müəllifləri vurğulayıblar ki, onlar münaqişəyə siyasi müdaxilə deyil, "ağır təhlükə altında olan" bölgə sakinlərinə yardım gözləyirlər. Məktubda Azərbaycan-Ermənistan müharibəsinin İsrailin maraqları üçün doğurduğu "fəsadlar" açıqlanır, qərar qəbul edənlərdən Bakıya qarşı fərqli mövqe tutmaları və müharibəyə "regional və beynəlxalq töhfələri" nəzərə almaları tələb olunur.

Erməni lobbiçilərin İsrailin dövlət başçısına müraciəti barədə Livanın "Arabi21" saytı da xəbər yayıb. Saytın versiyasına görə, belə bir məktubun meydana çıxması İrəvan–Təl-Əviv əlaqələrini yaxşılaşdırmağa hesablansa da, onun müəllifləri bu üsulla Azərbaycanın yaxın müttəfiqləri ilə münasibətlərini korlamaq niyyətini güdürlər. Bu isə ermənilərin köhnə şakəridir. Sayt məlum məktuba imzasını atanların kimliyi ilə də maraqlanıb. Məlum olub ki, İsraildəki erməni lobbisi əvvəllər əsasən Knessetin ərəb-xristian üzvlərindən Azərbaycan və Türkiyə əleyhinə istifadə edib. Amma indi siyahının genişlənməsi, "fəaliyyətə" yeni adların əlavə edilməsi diqqət çəkir. Bu siyahıya Açıq Universitetdən soyqırımı üzrə tədqiqatçı professor Yair Oron, Holokost və Soyqırımı Araşdırma İnstitutunun sədri, professor İsrael Tşarani, jurnalist Yaakov Achimair və yazıçı Ora Achimair, ravvin Michael Melchior, jurnalist Şari Raz və digərləri daxil edilib.

### "Verilişə gəlməkdən boyun qaçırdı"

Qayıdaq David Eydelmanın Caliber.az-a verdiyi açıqlamasına O, deyir ki, bu günlərdə ITON TV-də bu mövzuda veriliş hazırlayıb və studiyadakı söhbətə Bakıdan onlayn formada qonaqlar da qoşulub: "Proqram mənim "Asiya. Böyük oyun" layihəm çərçivəsində canlı yayımlandı. Efirdən sonra sosial şəbəkədəki akkauntuma erməni lobbi təmsilçilərinin təhqir dolu şərhləri gəlməyə başladı. Yəni məni özlərinə loyal yanaşmamdan ötrü hər üsula əl atırdılar. Əlbəttə, bu, səciyyəvi erməni yanaşması idi. Axı onlar nəyə görə isə əmindirlər ki, qabalıq və vay-şivəndən istifadə etməklə özlərinə qarşı sayğılı münasibətə nail ola bilərlər.

Ünsiyyət mədəniyyəti üzrə mütəxəssis kimi mən onlara, başlanğıc üçün, bu metodikanı dəyişmələrini təklif edərdim. Postun altındakı şərhlərdə özünü Prezident Hersoqa məktubun müəllifi kimi təqdim edən adam efirə "aclığın" qurbanlarını deyil, "cəlladları" qoşduğuma görə məni ittiham edəndə onu mövqeyini açıqlamaq üçün proqrama dəvət elədim. Bundan sonra o, daha böyük isterika qopardı və verilişə gəlməkdən qəti imtina etdi".

### "Təxribatçılar cəzalandırılsın!"

Eydelmanın sözlərinə görə, ümumiyyətlə, İsrail jurnalistləri azərbaycanlı politoloqlara suallar verəndə onların cavabları intellektual, arqumentli, məzmunlu olur. Ermənilərdən birinə sorğu göndərəndə isə növbəti isterikanı dinləməli olduqlarını vurğulayan ekspert məhz bu səbəbdən azərbaycanlı politoloqlara daha tez-tez müraciət etdiklərini dedi. Qarabağda "aclığ"a və "soyqırımı"na gəldikdə isə siyasi texnoloq hesab edir ki, sosial şəbəkələrdə "aclıqdan ölmüş" ermənininin fotoşəklinin yerinə peykdən çəkilmiş Xankəndidəki təmtəraqlı toy şəkillərini yerləşdirmək olardı: "Bu mövzu dəfələrlə müzakirə olunub. Azərbaycanlılara məsləhət görərdim ki, bu dəfə ermənilərin dediklərini yoxlasınlar. Əgər onlar "aclıq" və "humanitar fəlakət"dən danışırsa, aydın məsələdir ki, Azərbaycan hakimiyyəti bu məsələyə laqeyd yanaşa bilməz. Birincisi, orada nə baş verdiyini aydınlaşdırmaq üçün özünün humanitar missiyasını Xankəndiyə göndərməsi daha məntiqli addım olardı. İkincisi, bu təxribatın təşkilatçılarını, konkret olaraq separatçıların rəhbərlərini cəzalandırmaq istiqamətində aktiv tədbirlər görmək lazımdır".

Qarabağda aclıq situasiyasının qəsdən yaradıldığına əmin olduğunu söyləyən David Eydelman bunu bütün dünyaya car çəkənlərin müttəhimlər kürsüsünə əyləşdirməyin vacibliyini vurğuladı: "Azərbaycanın özünün suveren ərazisində bütün vasitələrdən istifadə etməklə bu problemi həll etməyə tam haqqı var. O zaman yalançı təhlükələr də aradan qalxacaq, yerli ermənilər də girovluqdan xilas olub rahat nəfəs alacaqlar".

İsrailin ITON TV kanalının əməkdaşı David Eydelmanın hüquqa və ədalətə söykənən obyektiv açıqlamasına bircə o faktı əlavə etmək qalır ki, İsxak Hersoq İsrailin Azərbaycana rəsmi səfər edən ilk prezidenti olub. Ondan sonra bu ölkənin müdafiə naziri Yoav Qalant da Bakıya gəlib.

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

# Dünyanın şahmat nəbzi Heydər Əliyevin Vətənində döyünür

**Taleyin hökmü ilə Beynəlxalq Şahmat Federasiyasının (FİDE) təqvimində ən mötəbər yarışlardan biri olan növbəti Dünya kuboku turniri Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunduğu 2023-cü ildə onun Vətəni Azərbaycanda keçirilir. İyulun 30-dan dünyanın ən yüksək reytinqli şahmatçısı, beşqat dünya çempionu, norveçli Maqnus Karlsen başda olmaqla planetin bütün məşhur qrossmeysterlərini öz bayrağı ətrafına toplayan, indi isə artıq finişin astanasında olan belə böyük yarışın təşkilinin paytaxtımıza etibar edilməsi FİDE-nin uzun illər ərzində respublikamızda qədim və müdrik oyunun inkişafına göstərdiyi daimi qayğı və diqqətə görə Ümummilli liderə dərin ehtiramının təzahürüdür. Əgər 2015-ci ildə də zəka sahiblərinin Dünya kuboku yarışının şəhərimizdə keçirildiyini xatırlasaq, həqiqətən, Bakının, Azərbaycanın şahmat aləmində xüsusi yeri var.**



Bunun üçünsə şahmat ictimaiyyətimiz ilk növbədə ulu öndər Heydər Əliyevə, onun müdrik, şahanə gedişlərinə minnətdardır. Ümummilli liderin respublikamıza rəhbərlik etdiyi elə ilk vaxtlardan – ötən əsrin yetmişinci illərindən idmanın, o cümlədən, şahmatın inkişafına hərtərəfli köməyi sayəsində Azərbaycanın hər yerində şahmat məktəbləri açılması, uşaq və yeniyetmələrlə məşğələlərə təcrübəli mütəxəssislərin cəlb edilməsi istedadların aşkara çıxarılmasında və onların müxtəlif miqyaslı yarışlarda ölkəmizi layiqincə təmsil etmələrində mühüm rol oynamışdır.

Biz Heydər Əliyevin Azərbaycan rəhbəri olduğu uzun illər ərzində, istər KP MK-nın birinci katibi vəzifəsində çalışdığı sovet dövründə, istərsə də dövlətimizin müstəqilliyinin bərpa olunduğu illərdə idmana sevgisi, onun təbliği və inkişafını daim diqqət mərkəzində saxlaması haqqında yazılarımızda bir məqamı həmişə xüsusi vurğulamışıq. Bu görkəmli şəxsiyyətin bir ildə iki dəfə — 1998-ci ilin fevralında və yenə həmin ilin sonlarında " Azərbaycan uşaq şahmatçıları Teymur Rəcəbov və Vüqar Həşimova dövlət qayğısının artırılması haqqında" və "Azərbaycan uşaq şahmatçılarına dövlət qayğısının artırılması haqqında" sərəncamlar imzalaması respublikanın idman həyatında çox böyük hadisə idi. İndi həmin sərəncamların qüvvəyə mindiyi günlərdən 25 il ötür. O illərin uşaq və yeniyetmə şahmatçılarının bir çoxunun adının bu gün dünyanın məşhur qrossmeysterləri ilə yanaşı çəkilməsi də məhz həmin sərəncamlar və onlardan irəli gələn məsələlərin uğurlu həlli sayəsində mümkün olmuşdur.

Azərbaycan şahmatı son 25 ildə az qələbə qazanmayıb. Bu müddət ərzində istər uşaq və yeniyetmələr, istərsə də adlı-sanlı ustalar neçə-neçə mötəbər beynəlxalq yarışın qalib və mükafatçıları sırasında təbrikləri qəbul etmişlər.

Şahmatımızın nailiyyətləri siyahısında kişilərdən ibarət milli komandanın üçqat Avropa çempionu adı daşıması faktını isə həmişə zəka sahiblərimizə böyük hörmət və rəğbət hissi ilə xatırlayacağıq. Onlar cəmi yeddi-səkkiz il ərzində, 2009-cu ildən 2017-ci ilədək özlərini Avropa şahmatının liderləri kimi göstərmişlər. Həmin sərəncamların imzalandığı 1998-ci ilin hələ uşaq və yeniyetmə şahmatçıları Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, istedadının yenicə çiçəklənməyə başladığı bir vaxtda vəfatı bütün ölkəni sarsıdan Vüqar Həşimov, habelə Rauf Məmmədov, Qədir Hüseynov və Eltac Səfərlinin birgə səylə, çox əzmkar və səmimi komanda şəklində qazandıqları üçqat müvəffəqiyyət təkcə Azərbaycan şahmatında və idmanında deyil, ölkəmizin bütün tarixində xüsusi yer tutur. Milli komandalar səviyyəsində üç dəfə Avropa çempionu olmaq hər komandanın işi deyil. Bizim "qızıl" oğlanlar isə bu tarixi nailiyyətin hədsiz sevincini yaşamışlar –2009-cu ildə Serbiyanın Novi-Sad şəhərində, 2013-də Polşanın paytaxtı Varşavada və daha dörd il sonra, 2017-ci ildə Yunanıstanın Krit adasında. Millimizin üç çempionluğuna Avropa birinciliklərindən Azərbaycana gətirilmiş daha bir dəst gümüş və bir dəst bürünc medalı da əlavə etsək, bir daha tam əmin olarıq ki, Məmmədyarov, Rəcəbov, Həşimov, Məmmədov, Hüseynov və Səfərli iyirmi birinci əsrin ilk 15-20 ilində Avropa şahmatında Azərbaycan adına möhtəşəm bir tarix yazmışlar.

İllər ötəcək, nəsillər dəyişəcək, yeni qələbələr də olacaq, məğlubiyyətlər də. Ancaq milli sərvətimizə çevrilmiş Avropa komanda çempionatlarında üç çempionluq çələngi, eləcə də, gümüş və bürünc medal dəstləri, onları uzaq-uzaq ellərdən Azərbaycana gətirmiş qrossmeysterlərin hünərləri heç vaxt unudulmayacaq, yaddaşlarda əbədi yaşayacaqdır.





Bununla əlaqədar Prezident İlham Əliyev üçüncü dəfə Avropa çempionatının qalibi olmuş komandamızın üzvlərini 2017-ci il noyabrın 8-də qəbul edərkən fəxrlə bildirmişdi ki, Azərbaycan növbəti böyük uğura imza atıb. Bu dəfə idmanın şahmat növündə, intellektual idman növündə qazanılmış qələbə xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan komandası Avropa çempionatında birinci yer tutub və çempion olub. Bu möhtəşəm qələbə münasibətilə şahmatçıları, məşqçiləri, federasiyanı ürəkdən təbrik edirəm.

Cənab İlham Əliyev daha sonra demişdi: "Bu, bütün Azərbaycan xalqını sevindirən qələbədir. Şadam ki, bu, artıq birinci qələbə deyil, bu, üçüncü qələbədir. Yəni üç dəfə Azərbaycan şahmatçıları Avropada birinci yeri tutublar. Bu, onu göstərir ki, budəfəki qələbə də təsadüfi qələbə deyil, bu, təbii qələbədir. Bu qələbə Azərbaycan xalqının istedadına, intellektinə əsaslanan qələbədir.

Gərgin mübarizədə bizim şahmatçılarımız Azərbaycan xalqının intellektual potensialını bütün Avropaya və eyni zamanda, dünyaya bir daha nümayiş etdirdilər…".

Çox təəssüf ki, uzun illər ərzində bu tarixi nailiyyətlər üçün möhkəm zəmin yaradan ulu öndər Heydər Əliyev onların sevincinin şahidi olmadı. Ancaq bu dahi şəxsiyyətin ölkəmizdə şahmatın inkişafına göstərdiyi böyük qayğı həmişə Ümummilli liderə minnətdarlıqla xatırlanacaq.

Nailiyyətlərimiz isə təkcə Avropa çempionatlarında qazanılmış 3 dəst qızıl, 1 dəst gümüş və 1 dəst bürünc medal deyil. Müdrik oyun ustalarımızın daha neçə-neçə qələbəsini, məsələn, Rəcəbovun 2019-cu ildə Rusiyanın Xantı-Mansiysk şəhərində Dünya kuboku yarışının qalibi olmasını, həmçinin dünya şahmat tacı uğrunda iddiaçıların turnirində oynamasını, Məmmədyarovun dünyanın ən görkəmli qrossmeysterlərinin iştirakı ilə keçirilən bir çox mötəbər beynəlxalq yarışda, o cümlədən superturnirlərdə mükafatçılar sırasında yer tutduğunu, hazırda Abdulla Qədimbəyli və Gövhər Beydullayevanın 20 yaşadək şahmatçılar arasında dünya çempionu adı daşımalarını və digər yüksək nəticələri də qeyd etmək olar.

G.Beydullayevanın adını çəkmişkən, deyək ki, ölkəmizdə qadın şahmatının da ənənələri inamla davam etdirilir. Bu ənənələrin yaranmasında Tatyana Zatulovskaya, Elmira Əliyeva, sonralar onların davamçıları, İslam dünyasında qadınlar arasında ilk beynəlxalq qrossmeyster Aynur Sofiyeva, o illərin yığma komandasında onun özü kimi məşhur rəfiqələri Firuzə Vəlixanlı, İlahə Qədimova, Göyçay şahmat məktəbinin yetirməsi Fənarə Babayeva, daha sonralar isə Zeynəb və Türkan Məmmədyarova bacıları, Nərmin Məmmədova, Nərgiz Umudova, Nərmin Kazımova, Xəyalə İsgəndərova və digər istedadlı xanım şahmatçılar mühüm rol oynamışlar.

Azərbaycanda qadın şahmatı bizim günlərdə də beynəlxalq idman dairələrində yaxşı nüfuz sahibidir. Milli komandamızın lideri Günay Məmmədzadə, onun komanda yoldaşları Ülviyyə Fətəliyeva, Gülnar Məmmədova, Gövhər Beydullayeva və Xanım Balacayeva Avropa və dünya çempionatlarında, ümumdünya şahmat olimpiadalarında ən güclü komandalara qarşı layiqli mübarizə aparırlar.

Dünyanın bir-birindən məşhur qrossmeysterlərinin hər il turnirlərdə iştirak etmək üçün məmnuniyyətlə Azərbaycana gəlib, Bakı, Naxçıvan, Şəmkir, ötən ildən isə Şuşada və digər şəhərlərimizdə oynadıqlarını da yaddan çıxarmaq olmaz. Təkcə unudulmaz Vüqar Həşimovun xatirəsinə həsr edilən və superturnir səviyyəsinə yüksələn yarışları qeyd etmək kifayətdir. Müxtəlif illərdə qonağımız olmuş keçmiş dünya çempionları Maqnus Karlsen (Norveç), Vişvanatan Anand (Hindistan), Vladimir Kramnik (Rusiya), habelə Fabiano Karuana (ABŞ), Aniş Giri (Hollandiya), Maksim Vaşye-Laqrav (Fransa) kimi mahir ustalar bu turnirlərdən vətənlərinə xoş təəssüratla qayıtmışlar

Ümummilli lider Heydər Əliyevin Azərbaycan şahmatına verdiyi töhfələri xatırlayarkən o da yada düşür ki, respublikamızda zəka sahiblərinin oyununa böyük maraq nəzərə alınmaqla, ötən əsrin səksəninci illərində "İdman" qəzetinə "Şahmat" əlavəsinin də nəşrinə başlanmışdı. Bu qəzet də o vaxtlar Bakı Dövlət Universitetinin məşhur professoru, eyni zamanda, şahmat üzrə ustalığa namizəd Azər Zeynallının redaktorluğu ilə "Azərbaycan" nəşriyyatının 9-cu mərtəbəsində yerləşən otaqlarında respublikamızda şahmatın təbliğinə və inkişafına xidmət edirdi.

Xatirələrdə Azərbaycan idmanının böyük himayədarı kimi yaşayan ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilində onun Vətənində ümumi mükafat fondu 2.500.000 ABŞ dolları olan Dünya Kuboku turniri finişə yaxınlaşır. Üç həftə əvvəl kubok, eləcə də, iddiaçıların turnirlərinə vəsiqə uğrunda uzun yolda ağır mübarizəyə başlayan 206 kişi və 103 qadın, ümumilikdə, 309 şahmatçıdan meydanda yalnız 6 qrossmeyster qalır. Bunlar kişilərin yarışında 4 yarımfinalçı və qadınların turnirində 2 finalçıdır.

Yarımfinalçılardan birinin Azərbaycan şahmatının yeni ulduzu Nicat Abasovun olması isə Dünya kubokunun həlledici matçlarına marağımızı ikiqat artırmışdır.

Bakıda ən yüksək səviyyədə təşkil edilib, bütün planetin diqqət mərkəzində olan Dünya Kuboku yarışında baş rollardan birini Heydər Əliyevin həmvətəni oynayır. Ulu öndərin 100 illik yubileyi ilində Azərbaycan şahmat tarixinə yeni parlaq səhifə yazılır. Yarımfinalın necə nəticələnəcəyindən asılı olmayaraq, 28 yaşlı qrossmeysterimiz ardıcıl altı rəqibi turnirlə vidalaşmağa məcbur etməklə, bu yarışda öz vəzifəsini artıqlaması ilə yerinə yetirmişdir.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# Ulu öndərin 100 illiyinə həsr olunmuş layihə



**Azərbaycan Diasporuna Dəstək Fondunun Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Qardaşlaşmış Qarabağ məktəbləri" layihəsinə yekun vurulub.**

Layihə avqustun 7-13-də İsveçrədə baş tutub. Layihə çərçivəsində Azərbaycanın işğaldan azad edilmiş Ağdam, Şuşa, Laçın, Cəbrayıl, Füzuli, Zəngilan şəhər məktəblərinin şagirdləri İsveçrədə fəaliyyət göstərən "Qarabağ" həftəsonu məktəbinin şagirdləri ilə birlikdə "Juvenat" düşərgəsində yerləşiblər. Layihədə Azərbaycandan 17 şagird və 2 müəllim, İsveçrədən 11 şagird və 2 müəllim iştirak edib. Düşərgəyə "Azərbaycanlıların İsveçrədəki Mədəniyyət Mərkəzi"nin rəhbəri Qasım Nəsirov rəhbərlik edib.

Düşərgə zamanı şagirdlər Qarabağın tarixi haqqında məlumatlandırılıb, mədəni-maarifləndirici panellərdə iştirak ediblər, Bern, Balenberq və digər şəhərlərin görməli yerləri ilə tanış olublar. Həmçinin İsveçrə parlamentinə, müxtəlif muzeylərə səfər ediblər, təbiət gəzintiləri, əyləncəli oyunları və təcrübə mübadiləsi ilə məşğul olublar.

***"Xalq qəzeti"***

# Kanadada Heydər Əliyev Mərkəzi yubiley konsertinə hazırlaşır

**Kanadanın Ontario əyalətində yerləşən Niaqara-Fols şəhərindəki "Mount Carmel Spiritual Centre" konsert zalında avqustun 26-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konsert təşkil ediləcək.**



Bu barədə "Music Niagara Festival"ın "İpək yolu" komitəsinin sədri, Kanadada Heydər Əliyev Mərkəzinin prezidenti, Azərbaycanın Əməkdar incəsənət xadimi İsmayıl Hacıyev bildirib.

"Kanadada Heydər Əliyev Mərkəzinin "Mədəniyyətlərin və sivilizasiyaların dünya irsi" adlı devizini diqqətə alaraq biz müxtəlif ölkələrdən olan musiqiçiləri konsertimizdə iştirak üçün dəvət etmək və tədbiri "One World Family" şüarı altında keçirmək qərarına gəldik. Konsertdə əsasən Böyük İpək yolu üzərində yerləşən ölkələrdən olan nümayəndələr – Çin, Hindistan, türk və İran əsilli musiqiçilər iştirak edəcəklər", - deyə İ.Hacıyev qeyd edib.

***"Xalq qəzeti"***

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması qaydaları

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 27.4-cü və 29.0.21-ci maddələrinə əsasən hazırlanmışdır və xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması (bundan sonra – tanınma) ilə bağlı təşkilati və hüquqi məsələləri tənzimləyir.

1.2. Tanınma xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının sahiblərinə Azərbaycan Respublikasında təhsilini davam etdirmək və (və ya) ixtisasına uyğun əmək fəaliyyəti ilə məşğul olmaq hüququnu verir.

1.3. Tanınma Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində Təhsildə Keyfiyyət Təminatı Agentliyi (bundan sonra – Agentlik) tərəfindən həyata keçirilir.

1.4. Tanınma Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər qanunları, bu Qaydalar, Azərbaycan Respublikası Prezidentinin digər fərmanları, həmçinin sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, habelə Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının tələbləri nəzərə alınmaqla həyata keçirilir.

1.5. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.5.1. **Avropa Kredit Transferi və Toplanması Sistemi** (bundan sonra – AKTTS) – Avropa İttifaqı və digər tərəfdaş Avropa ölkələrində ali təhsilli məzunların təhsil nailiyyətlərinin və fəaliyyətinin müqayisəsi məqsədilə istifadə olunan standart;

1.5.2. **alternativ tanınma** – xarici dövlətin ali təhsilə aid Azərbaycan Respublikasında mövcud olmayan kvalifikasiyanın həmin xarici dövlətdə aid olduğu təhsil pilləsindən (səviyyəsindən) daha aşağı pillə (səviyyə) üzrə və ya eyni pillə (səviyyə) üzrə, lakin fərqli kvalifikasiyaya uyğun olaraq həyata keçirilən akademik tanınma növü;

1.5.3. əhəmiyyətli fərq – xarici dövlətin ali təhsilə aid kvalifikasiyasının əsas elementləri (kvalifikasiyaların səviyyələri, təlimin həcmi və (və ya) yekun attestasiyanın nəticəsi, kvalifikasiyanın istiqaməti (profili) və təlimin nəticələri) ilə Azərbaycan Respublikasındakı uyğun kvalifikasiyanın əsas elementləri arasında ərizəçinin Azərbaycan Respublikasında təhsilini növbəti səviyyədə davam etdirməsi və (və ya) ixtisasına uyğun əmək fəaliyyəti ilə məşğul olmaq hüququnun yaranmasına kifayət etməyən həcmdə fərq;

1.5.4. ərizəçi – xarici dövlətin ali təhsilə aid kvalifikasiyasının tanınması üçün müraciət edən şəxs;

1.5.5. **kvalifikasiyanın akademik tanınması** (bundan sonra – akademik tanınma) – xarici dövlətin səlahiyyətli orqanları tərəfindən verilmiş ali təhsilə aid kvalifikasiyanın sahibinə Azərbaycan Respublikasında təhsilin növbəti pilləsində (səviyyəsində) təhsilini davam etdirmək hüququnun verilməsi;

1.5.6. **kvalifikasiyanın peşə tanınması** (bundan sonra – peşə tanınması) – xarici dövlətin səlahiyyətli orqanları tərəfindən verilmiş ali təhsilə aid kvalifikasiyanın sahibinə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən əmək müqaviləsi bağlanılarkən onun əmək funksiyasının xüsusiyyətlərinə uyğun olan peşə hazırlığının və ya təhsilin olması zəruri sayılan hallarda işəgötürənə təqdim edilən təhsil sənədində qeyd edilən müvafiq peşə fəaliyyəti göstərmək hüququnun verilməsi;

1.5.7. **qismən tanınma** – xarici dövlətin ali təhsil müəssisəsində təhsil alan şəxsin natamam ali təhsilinin qalan hissəsini Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin birində davam etdirə bilməsi üçün həyata keçirilən akademik tanınma növü;

1.5.8. **tanınma şəhadətnaməsi** – "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə (bundan sonra – TMİS) elektron sənəd formasında yaradılan və elektron formada verilən tanınmaya dair sənəd;

1.5.9. **tanınma** – xarici dövlətlərin səlahiyyətli orqanları tərəfindən verilən və verildiyi ölkədə ali təhsil pilləsinə qəbul olunmaq və ya ali təhsilin növbəti səviyyələri üzrə təhsilini davam etdirmək və (və ya) ixtisasına uyğun əmək fəaliyyəti ilə məşğul olmaq hüququ verən, həmçinin şəxsin müvafiq standartlara uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik olduğunu təsdiq edən təhsil haqqında sənədlərin (bundan sonra – xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyası) Azərbaycan Respublikasının ərazisində qüvvədə olmasının təsdiqi;

1.5.10. **xarici dövlətin səlahiyyətli keyfiyyət təminatı qurumu** – müvafiq xarici dövlətdə təhsil müəssisələrinin akkreditasiyasını həyata keçirən ixtisaslaşmış səlahiyyətli qurum;

1.5.11. **xarici dövlətin səlahiyyətli orqanları tərəfindən verilmiş ali təhsil pilləsinə qəbul olunmaq hüququ verən kvalifikasiya** (bundan sonra – ali təhsil pilləsinə qəbul olunmaq hüququ verən kvalifikasiya) – xarici dövlətlərin səlahiyyətli orqanları tərəfindən verilən və verildiyi ölkədə ali təhsil pilləsinə qəbul olunmaq hüququ verən, habelə şəxsin müvafiq standartlara uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik olduğunu təsdiq edən təhsil haqqında sənəd;

1.5.12. **xarici dövlətin səlahiyyətli orqanları tərəfindən verilmiş ali təhsil pilləsi üzrə kvalifikasiya** (bundan sonra – ali təhsil üzrə kvalifikasiya) – xarici dövlətlərin səlahiyyətli orqanları tərəfindən verilən və verildiyi ölkədə ali təhsilin növbəti səviyyələri üzrə təhsilini davam etdirmək və (və ya) ixtisasına uyğun əmək fəaliyyəti ilə məşğul olmaq hüququ verən, həmçinin ali təhsil pilləsinin bakalavriat (o cümlədən əsas (baza) ali tibb təhsili) və magistratura səviyyələri üzrə şəxsin müvafiq standartlara uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik olduğunu təsdiq edən təhsil haqqında sənəd;

1.5.13. şərti tanınma – ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsilinə) və magistratura səviyyələri üçün müəyyən edilmiş minimal kredit sayından az toplayan ərizəçiyə ixtisasına uyğun Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin birində mühazirələrdə (praktik məşğələlərdə) iştirak etməklə mövcud əhəmiyyətli fərqi aradan qaldırmaq hüququ verən akademik tanınma növü.

1.6. Bu Qaydalarda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

1.7. Bu Qaydalar keçmiş SSRİ-nin tərkibində olan dövlətlərin təhsil müəssisələri tərəfindən 1993-cü il yanvarın 1-dək verilmiş kvalifikasiyalara münasibətdə tətbiq edilmir.

1.8. Tanınmaya görə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş məbləğdə xidmət haqqı ödənilir.

### 2. Tanınmaya dair müraciətin edilməsi

2.1. Tanınma ərizəçinin müraciəti əsasında həyata keçirilir.

2.2. Tanınmaya dair müraciət elektron qaydada edilir, TMİS-də qeydiyyata alınır və hər bir ərizəçiyə sistemdə şəxsi kabinet yaradılır. Müraciət Agentliyə daxil olduqdan sonra ərizəçinin müraciətində göstərdiyi əlaqə telefonuna və ya elektron poçt ünvanına qeydiyyat şifrəsi göndərilir. Ərizəçi qeydiyyat şifrəsi vasitəsilə onun üçün yaradılmış şəxsi kabinetdə olan məlumatları əldə edə və müraciətinin statusunu izləyə bilər.

2.3. Ərizəçinin ərizəsində tanınmanın məqsədi qeyd edilir. Ərizəçi TMİS-ə müraciət edərkən aşağıdakıları təsdiq edir:

2.3.1. təqdim edilmiş sənədlərin və məlumatların doğruluğunu;

2.3.2. onun barəsində məlumatların alınması üçün aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya sistemlərinə və ehtiyatlarına, aidiyyəti orqanlara (qurumlara) və ya təhsil müəssisəsinə sorğuların göndərilməsinə razılığını.

2.4. Ərizəçinin elektron müraciətinə aşağıdakı sənədlərin surətləri əlavə edilir:

2.4.1. ərizəçinin şəxsiyyət vəsiqəsi, pasportu və ya şəxsiyyətini təsdiq edən digər sənədlər;

2.4.2. xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyası və onun əlavəsi;

2.4.3. tanınma üçün müraciət edilən təhsil səviyyəsinə (pilləsinə) qəbul üçün istifadə olunan təhsil sənədi;

2.4.4. ərizəçi tədris müddətində bir təhsil müəssisəsindən digərinə və ya təhsil müəssisəsi daxilində bir ixtisasdan digərinə köçürüldüyü halda, onun təhsil aldığı müddətdə digər təhsil müəssisəsində və ya digər təhsil proqramında tədris olunmuş fənlərə (toplanılmış kreditlərə) dair arayış;

2.4.5. akademik transkript və ya akademik arayış (qismən tanınma üçün müraciət olunduqda);

2.4.6. tanınmaya görə xidmət haqqının ödənilməsini təsdiq edən sənəd.

2.5. Bu Qaydaların 2.4-cü bəndində qeyd edilən sənədlər (türk, rus və ingilis dillərində verilmiş sənədlər istisna olmaqla) Azərbaycan dilinə tərcümə edilməli və notariat qaydasında təsdiq olunmalıdır.

2.6. Bu Qaydaların 2.4.2 – 2.4.5-ci yarımbəndlərində qeyd olunan sənədlər Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi" ilə müəyyən edilmiş qaydada və ya "Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya"nın tələblərinə uyğun olaraq leqallaşdırılmalıdır.

2.7. Bu Qaydaların 2.6-cı bəndinin tələbləri aşağıdakı kvalifikasiyalara münasibətdə tətbiq edilmir:

2.7.1. Azərbaycan gənclərinin dövlət proqramları çərçivəsində xarici ölkələrdə əldə etdikləri ali təhsil üzrə kvalifikasiyalar;

2.7.2. Nazirliklə xarici dövlətlərin səlahiyyətli orqanları arasında imzalanmış beynəlxalq müqavilələr əsasında tələbə mübadiləsinə dair hökumətlərarası təqaüd proqramları çərçivəsində əldə edilmiş kvalifikasiyalar;

2.7.3. beynəlxalq müqavilələr çərçivəsində Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən xarici ali təhsil müəssisələri tərəfindən verilmiş kvalifikasiyalar;

2.7.4. dövlət tərəfindən müəyyən edilmiş təhsil qrantı proqramları və hökumətlərarası təqaüd proqramları çərçivəsində təhsil alacaq əcnəbi və vətəndaşlığı olmayan şəxslərin xarici ölkələrdə əldə etdikləri ali təhsil üzrə kvalifikasiyalar.

2.8. Ərizəçinin bu Qaydaların 2.4-cü bəndində qeyd edilən sənədlərlə yanaşı, akademik və peşə hazırlıq səviyyəsini və təcrübəsini təsdiq edən əlavə sənədlər təqdim etmək hüququ vardır.

### 3. Tanınmaya dair müraciətə baxılması

3.1. Ərizəçinin müraciətinə bu Qaydaların 2.4-cü bəndində qeyd edilən sənədlər TMİS-ə bu Qaydalarla müəyyən edilmiş tələblərə uyğun olaraq daxil edildiyi gündən etibarən ən geci 3 (üç) ay müddətində baxılır.

3.2. İlk növbədə ərizəçinin təqdim etdiyi sənədlərin rəsmi məlumat mənbələri (Azərbaycan Respublikasının və xarici ölkələrin aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatları və sistemləri, təhsil sənədlərinin tanınması üzrə beynəlxalq şəbəkə, xarici ölkələrin aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri, xarici ölkələrin ali təhsil müəssisələrinin ali təhsilə dair məlumat bazaları və s.) vasitəsilə doğruluğu müəyyən edilir. Apostil reyestri mövcud olan ölkələr tərəfindən verilmiş apostil şəhadətnaməsinin (möhürünün) həqiqiliyi həmin reyestr vasitəsilə yoxlanılır.

3.3. Ərizəçinin müraciətinə baxılması üçün Agentlik aşağıdakı məlumatların yoxlanılmasını həyata keçirir:

3.3.1. ərizəçinin fərdi məlumatlarındakı (soyadı, adı, atasının adı, yaşayış ünvanı, qeydiyyat ünvanı, vətəndaşlığı və s.) dəyişiklik;

3.3.2. ərizəçinin təhsilalma tarixi;

3.3.3. ərizəçinin hərbi mükəlləfiyyəti;

3.3.4. ərizəçinin əmək fəaliyyəti;

3.3.5. ərizəçinin sərhədkeçmə qeydiyyatı.

3.4. Bu Qaydaların 2.4-cü bəndində qeyd edilən sənədlərin və 3.3-cü bəndində qeyd edilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda, onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) və ya təhsil müəssisəsindən tələb olunur və ya ərizəçi tərəfindən kağız daşıyıcıda (elektron sənəd formasında) 20 (iyirmi) gün müddətində təqdim edilir.

3.5. Aşağıdakı hallar barədə ərizəçinin müraciəti Agentliyə daxil olduğu gündən 10 (on) gün müddətində ərizəçinin şəxsi kabinetinə məlumat göndərilir:

3.5.1. təqdim olunmuş sənədlərdə (məlumatlarda) çatışmazlıq və ya ziddiyyət aşkar olunduqda;

3.5.2. sənədlər bu Qaydalarla müəyyən edilmiş tələblərə uyğun təqdim olunmadıqda;

3.5.3. bu Qaydaların 3.4-cü bəndinin ikinci cümləsində qeyd olunan halda.

3.6. Agentlik tanınma üçün yerli və xarici müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb edə bilər.

3.7. "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən qaçqın və məcburi köçkün statusu olan ərizəçi tərəfindən bu Qaydaların 2.4-cü bəndində qeyd edilən sənədlərdən birinin və ya bir neçəsinin təqdim edilməsi mümkün olmadıqda, Agentlik həmin sənədə (və ya sənədlərə) dair ərizəçinin ərizədə qeyd etdiyi məlumatlar əsasında qiymətləndirməni aparır.

3.8. Tanınma ilə bağlı Agentlik aşağıdakı qərarlardan birini qəbul edir:

3.8.1. ali təhsilə aid kvalifikasiyanın akademik və peşə tanınması;

3.8.2. ali təhsilə aid kvalifikasiyanın akademik tanınması (tam, qismən, şərti və ya alternativ tanınması);

3.8.3. ali təhsilə aid kvalifikasiyanın peşə tanınması;

3.8.4. ali təhsilə aid kvalifikasiyanın tanınmasından imtina edilməsi.

3.9. Bu Qaydaların 3.8.1 – 3.8.3-cü yarımbəndlərində nəzərdə tutulan qərarlar tanınma şəhadətnaməsi ilə rəsmiləşdirilir və həmin qərarın qəbul edildiyi tarixdən 3 (üç) gün müddətində ərizəçinin şəxsi kabinetinə göndərilir.

3.10. Aşağıdakı hallarda kvalifikasiyanın tanınmasından imtina edilir:

3.10.1. bu Qaydaların 4.1-ci bəndində nəzərdə tutulan ümumi tələblərə riayət olunmadıqda;

3.10.2. ərizəçinin müraciət etdiyi kvalifikasiya ilə Azərbaycan Respublikasında mövcud olan uyğun kvalifikasiya arasında əhəmiyyətli fərq aşkar olunduqda və ya həmin kvalifikasiya Azərbaycan Respublikasında mövcud olmadıqda və qismən, şərti və ya alternativ tanınma mümkün olmadıqda;

3.10.3. peşə tanınmasına münasibətdə bu Qaydaların 6.2-ci bəndinə uyğun olaraq, ərizəçi sınaq imtahanında müvəffəqiyyət qazanmadıqda.

3.11. Tanınmadan imtina edildiyi halda bu barədə qərar səbəbləri göstərilməklə həmin qərarın qəbul edildiyi tarixdən 3 (üç) gün müddətində ərizəçinin şəxsi kabinetinə göndərilir.

### 4. Tanınmaya dair tələblər

4.1.Tanınma üzrə ümumi tələblər aşağıdakılardır:

4.1.1. müvafiq kvalifikasiyaya dair sənədin əldə olunduğu təhsil müəssisəsinin fəaliyyət göstərdiyi ölkədə səlahiyyətli keyfiyyət təminatı qurumu tərəfindən akkreditasiyadan keçməsi və dövlət lisenziyasının olması;

4.1.2. müvafiq kvalifikasiyaya dair sənədin autentik (həqiqi) olması;

4.1.3. müvafiq kvalifikasiyanın verildiyi ölkənin kvalifikasiyalar çərçivəsində yerinin göstərilməsi;

4.1.4. Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi (bundan sonra – Milli Kvalifikasiyalar Çərçivəsi) üzrə orta ixtisas təhsili, bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura səviyyələrinə uyğun kvalifikasiyalara münasibətdə ərizəçinin hər bir tədris ili ərzində müvafiq kvalifikasiya üzrə nəzərdə tutulmuş təhsilin normativ müddətinin azı yarısı qədər təhsil aldığı ölkənin ərazisində olması (tibb və səhiyyə ixtisasları üzrə təhsilin normativ müddətində təhsil aldığı ölkənin ərazisində olması);

4.1.5. Milli Kvalifikasiyalar Çərçivəsi üzrə orta ixtisas təhsili, bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura səviyyələrinə uyğun kvalifikasiyalara münasibətdə tədris müddətinin azı üçdə ikisində ənənəvi təlim metodlarına əsaslanan formal təhsilin əldə olunması (tibb və səhiyyə ixtisasları üzrə təhsilin normativ müddətində ənənəvi təlim metodlarına əsaslanan formal təhsilin əldə olunması).

4.2. Ali təhsil üzrə kvalifikasiyaların akademik və peşə tanınması zamanı aşağıdakı meyarlar əsasında əhəmiyyətli fərqin mövcud olub-olmaması müəyyənləşdirilir:

4.2.1. kvalifikasiyanın aid olduğu təhsil səviyyəsi;

4.2.2. əldə olunmuş təlimin (tamamlanmış kreditlərin) həcmi;

4.2.3. yekun attestasiyanın nəticəsi və ya ümumi orta müvəffəqiyyət göstəricisi;

4.2.4. kvalifikasiyanın istiqaməti (profili);

4.2.5. təlimin nəticələri.

4.3. Tədris müddətində tədris planında göstərilən fənlər üzrə yaranmış akademik borcların növbəti tədris ilində aradan qaldırılması və tədris proqramının tərkib hissəsi olaraq xarici ölkədə tədqiqat aparmaq və ya təcrübə keçmək faktı aidiyyəti təhsil müəssisəsinə göndərilən sorğu əsasında əldə olunmuş müvafiq arayışla təsdiq olunduğu halda, qiymətləndirmə zamanı nəzərə alınır.

4.4. Tanınma zamanı bu Qaydaların 4.1.4-cü yarımbəndinin tələbi əcnəbilərə şamil edilmir.

### 5. Akademik tanınma

5.1. Akademik tanınma ərizəçiyə Azərbaycan Respublikasında ali təhsil pilləsində təhsilini davam etdirmək hüququnun verilməsi məqsədilə aparılır.

5.2. Akademik tanınma üzrə ümumi tələblər nəzərə alınmaqla, kvalifikasiyanın Milli Kvalifikasiyalar Çərçivəsinə uyğunluğu aşağıdakı qaydada müəyyən edilir:

5.2.1. müvafiq kvalifikasiya üzrə təlimin nəticələrinin Azərbaycan Respublikasındakı uyğun kvalifikasiyalar (təhsil proqramları) üzrə nəzərdə tutulmuş təlimin nəticələrinə uyğunluğu;

5.2.2. kvalifikasiyaların Milli Kvalifikasiyalar Çərçivəsindəki səviyyə deskriptorları ilə uyğunluğu.

5.3. Akademik tanınma nəticəsində kvalifikasiya Milli Kvalifikasiyalar Çərçivəsi üzrə 4-cü və 5-ci səviyyələrə uyğun olarsa, həmin ərizəçiyə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsində (əsas (baza ali) tibb təhsilinə) təhsilini davam etdirmək hüququ verilir.

5.4. Akademik tanınma nəticəsində kvalifikasiya Milli Kvalifikasiyalar Çərçivəsi üzrə 6-cı və 7-ci səviyyələrə uyğun olarsa, həmin ərizəçiyə Azərbaycan Respublikasında ali təhsilin növbəti səviyyələri üzrə təhsilini davam etdirmək hüququ verilir.

5.5. Akademik tanınma zamanı ərizəçinin təhsil müddətində əldə etdiyi kreditlərin ümumi sayının AKTTS üzrə təhsilin orta ixtisas təhsil pilləsi, bakalavriat (əsas (baza ali tibb təhsili) və magistratura səviyyələri üçün müəyyənləşdirilmiş minimal kredit sayına uyğunluğu müəyyən edilir.

5.6. Kvalifikasiyanın istiqamətinin (profilinin) qiymətləndirilməsi təlimin istiqamətinin (nəzəri və ya praktiki olmasının) və ixtisas xüsusiyyətlərinin kvalifikasiyanın istiqamətinə (profilinə) uyğunluğunun müəyyən edilməsini nəzərdə tutur və tanınma zamanı ərizəçiyə təhsilini növbəti səviyyədə davam etdirmək hüququ verən ixtisas istiqamətlərinə təsir edir. Kvalifikasiyanın istiqaməti (profili) Agentlik tərəfindən təsdiq edilir.

5.7. Ərizəçinin akademik tanınma üçün müraciət etdiyi kvalifikasiya ilə Azərbaycan Respublikasında mövcud olan uyğun kvalifikasiyanın təlim nəticələri arasında əhəmiyyətli fərq aşkar olunmadıqda və bu Qaydaların 4.1-ci bəndində nəzərdə tutulan tələblər ödənildikdə, ərizəçinin kvalifikasiyası tam tanınır və tanınma şəhadətnaməsində ərizəçiyə növbəti təhsil pilləsində (səviyyəsində) təhsilini davam etdirmək hüququ verilir.

5.8. Ərizəçinin tanınma üçün müraciət etdiyi kvalifikasiya ilə Azərbaycan Respublikasında mövcud olan uyğun kvalifikasiya arasında əhəmiyyətli fərq aşkar olunduqda və ya həmin kvalifikasiya Azərbaycan Respublikasında mövcud olmadıqda, qismən, şərti və alternativ tanınma barədə qərar qəbul oluna bilər.

5.9. Xaricdə natamam ali təhsil alanlar təhsilinin qalan hissəsini Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin birində davam etdirmək üçün ilkin olaraq kvalifikasiyalarının qismən tanınması üçün müraciət etməlidirlər. Ərizəçinin kvalifikasiyası qismən tanındıqda, o, Azərbaycan Respublikasının ali təhsil müəssisələrindən birinə köçürülmək üçün müraciət etmək hüququnu əldə edir.

5.10. AKTTS üzrə ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura səviyyələri üçün müəyyən edilmiş minimal kredit sayından az toplayan ərizəçinin kvalifikasiyası şərti tanınır və həmin ərizəçiyə ixtisaslarına uyğun Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin birində mühazirələrdə (praktik məşğələlərdə) iştirak etməklə əhəmiyyətli fərqi aradan qaldırmaq hüququ verilir. Ərizəçi kvalifikasiyanın tanınmayan hissəsi üzrə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin birində qiymətləndirmədə (sınaq imtahanında iştirak etməklə və ya eksternat qaydada imtahan verməklə) müvəffəqiyyət əldə etdikdən sonra əvvəlki müraciətinin yenilənməsi barədə müraciət edir və müraciətinə xidmət haqqı ödənilmədən yalnız əvvəl kvalifikasiyanın tanınmayan hissəsinin sonrakı mərhələdə əldə edilməsi üçün müvafiq sənədləri əlavə edir və onun kvalifikasiyası akademik tanınır.

5.11. Xarici dövlətin ali təhsilə aid kvalifikasiyası Azərbaycan Respublikasında mövcud olmadıqda, kvalifikasiyanın xarici dövlətdə aid olduğu təhsil pilləsindən (səviyyəsindən) daha aşağı pillə (səviyyə) üzrə və ya eyni pillə (səviyyə) üzrə, lakin fərqli kvalifikasiyaya uyğun olaraq alternativ tanınması həyata keçirilir və ərizəçiyə təhsilini növbəti pillədə (səviyyədə) davam etdirmək hüququ verilir.

### 6. Peşə tanınması

6.1. Peşə tanınması yalnız ali təhsil üzrə kvalifikasiyalara münasibətdə və Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən əmək müqaviləsi bağlanılarkən işçinin əmək funksiyasının xüsusiyyətlərinə uyğun olan peşə hazırlığının və ya təhsilin olması zəruri sayılan hallarda tətbiq edilir.

6.2. Bu Qaydaların əlavəsində nəzərdə tutulan peşələrə aid ixtisasların peşə tanınması zamanı ərizəçinin müvafiq kvalifikasiya üzrə peşə kompetensiyalarının Azərbaycan Respublikasında mövcud olan uyğun kvalifikasiya üzrə nəzərdə tutulmuş peşə kompetensiyalarının tələblərinə uyğunluğu müəyyən edilir. Müəllimlik, mühəndislik və hüquq ixtisasları üzrə ərizəçinin Agentliyin sifarişi ilə Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin (bundan sonra – DİM) təşkil etdiyi sınaq imtahanında müvəffəqiyyət qazanması (keçid balının toplanması) tələb olunur. Sınaq imtahanının məzmunu, vaxtı, imtahan nəticələrinin qiymətləndirilməsi qaydası və keçid balı Agentliklə razılaşdırılmaqla DİM tərəfindən müəyyənləşdirilir. Ərizəçinin bu Qaydaların əlavəsində nəzərdə tutulan tibb və səhiyyə ixtisasları üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müəyyən etdiyi tələblərə uyğunluğu isə bu sahədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq qaydaya əsasən müəyyən edilir.

6.3. Bu Qaydaların 6.2-ci bəndinin tələbi aşağıdakı kvalifikasiyalara şamil edilmir:

6.3.1. bu Qaydaların 2.7.1–2.7.4-cü yarımbəndləri üzrə əldə olunmuş kvalifikasiyalar;

6.3.2. "Times Higher Education World University Rankings", "QS World University Rankings" və "Academic Ranking of World Universities (Shanghai Ranking)" beynəlxalq reytinq qurumlarının tərtib etdiyi sıralamaların azı birində ərizəçinin qəbul olunduğu ildə ilk 500 pillədə yer alan təhsil müəssisələrindən əldə edilmiş kvalifikasiyalar.

6.4. Bu Qaydaların 6.3.2-ci yarımbəndində qeyd edilən beynəlxalq reytinq qurumlarının tərtib etdiyi sıralamalara istinadən təhsil müəssisələrinin siyahısı Agentliyin rəsmi internet səhifəsində yerləşdirilir və mütəmadi olaraq yenilənir.

6.5. Bu Qaydaların 4.2-ci bəndinə (4.2.4-cü yarımbənd istisna olmaqla) uyğun olaraq ərizəçinin kvalifikasiyası ilə Azərbaycan Respublikasında mövcud olan uyğun kvalifikasiya arasında əhəmiyyətli fərq aşkar edilmədikdə və bu Qaydaların 6.2-ci bəndində nəzərdə tutulan peşələr üzrə ərizəçi sınaq imtahanlarında müvəffəqiyyət qazanması və kvalifikasiya üzrə nəzərdə tutulmuş peşə kompetensiyalarının tələblərinə uyğunluğunun təmin olunması barədə DİM-in və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müvafiq məlumatı əsasında, ərizəçinin kvalifikasiyasının peşə tanınması barədə qərar qəbul edilir.

### 7. Tanınma şəhadətnaməsi

7.1. Ərizəçinin ali təhsilə aid kvalifikasiyasının tanınmasına dair qərar qəbul edildikdə, tanınma şəhadətnaməsi qərarın qəbul edildiyi tarixdən etibarən 5 (beş) gün müddətində hazırlanır.

7.2. Tanınma şəhadətnaməsi elektron sənəddir və TMİS-də elektron sənəd formasında "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq yaradılır.

7.3. Tanınma şəhadətnamələri barədə məlumat Agentliyin rəsmi internet səhifəsində yerləşdirilir.

7.4. Elektron sənəd formasında təqdim edilmiş tanınma şəhadətnaməsinin həqiqiliyi "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlanıla bilər.

7.5. TMİS vasitəsilə əldə edilmiş tanınma şəhadətnaməsinin kağız daşıyıcıda olan surətinin təsdiqi "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçirilir.

7.6. Tanınma şəhadətnaməsi Agentliyin İdarə Heyəti sədrinin (və ya sədr müvəqqəti olmadıqda, onun səlahiyyətlərini icra edən şəxsin) elektron imzası ilə təsdiq edilir.

7.7. Agentlik tərəfindən təsdiq edilmiş tanınma şəhadətnaməsi ərizəçi üçün yaradılmış şəxsi kabinetdə yerləşdirilir.

7.8. Tanınma şəhadətnaməsində aşağıdakı məlumatlar əks olunmalıdır:

7.8.1. şəhadətnamənin nömrəsi (sistem tərəfindən verilir);

7.8.2. tanınma üçün müraciət etmiş şəxsin indentifikasiya məlumatları (soyadı, adı, atasının adı və doğum tarixi) və FİN kod;

7.8.3. akademik məlumatlar:

7.8.3.1. təhsil pilləsi;

7.8.3.2. təhsil müəssisəsinin adı;

7.8.3.3. ixtisasın adı;

7.8.3.4. təhsil sənədinin verilmə tarixi;

7.8.4. tanınmanın növü:

7.8.4.1. akademik tanınma (tam, qismən, şərti, alternativ);

7.8.4.2. peşə tanınması;

7.8.5. tanınmanın verdiyi hüquqlar:

7.8.5.1. təhsilin növbəti pilləsinə qəbul olunmaq hüququ verir;

7.8.5.2. təhsilin növbəti səviyyəsinə qəbul olunmaq hüququ verir;

7.8.5.3. Azərbaycan Respublikasının ali təhsil müəssisələrindən birinə köçürülmək üçün müraciət etmək hüququ verir;

7.8.5.4. Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin birində mühazirələrdə (praktik məşğələlərdə) iştirak etməklə əhəmiyyətli fərqi aradan qaldırmaq hüququ verir;

7.8.5.5. peşə tanınması ixtisasına uyğun əmək fəaliyyəti ilə məşğul olmaq hüququ verir;

7.8.6. şəhadətnamənin verildiyi tarix (sistem tərəfindən verilir).

7.9. Tanınma şəhadətnaməsində bütün məlumatlar Azərbaycan dilində yazılır.

### 8. Yekun müddəalar

8.1. Tanınmanın nəticələrindən şikayət inzibati qaydada və (və ya) məhkəmə qaydasında verilə bilər.

8.2. Tanınmanın nəticələri ilə bağlı şikayətlərə baxılması üçün Nazirlik tərəfindən Apellyasiya Komissiyası yaradılır. Apellyasiya Komissiyasının tərkibini və səlahiyyətlərini Nazirlik müəyyən edir.

8.3. Ərizəçi Apellyasiya Komissiyasına "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 73.1-ci və 73.2-ci maddələrində nəzərdə tutulmuş müddətlərdə şikayət edə bilər. Müraciətə Apellyasiya Komissiyasında 10 (on) gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.

8.4. Ərizəçi Apellyasiya Komissiyasının hərəkətlərindən (hərəkətsizliyindən), eləcə də tanınma ilə bağlı qərarlarından inzibati və (və ya) məhkəmə qaydasında şikayət verə bilər.

“Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları”na əlavə

## Peşə tanınması zamanı sınaq imtahanlarının keçirilməsi tələb olunan ixtisasların siyahısı

| Sıra №-si | | İxtisasların (proqramların) şifri və adı |
|---|---|---|
| 1. | 050102 | Biologiya müəllimliyi |
| 2. | 050103 | Coğrafiya müəllimliyi |
| 3. | 050104 | Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə) |
| 4. | 050105 | Fizika müəllimliyi |
| 5. | 050107 | İbtidai sinif müəllimliyi |
| 6. | 050108 | İnformatika müəllimliyi |
| 7. | 050109 | Kimya müəllimliyi |
| 8. | 050110 | Kimya və biologiya müəllimliyi |
| 9. | 050111 | Korreksiyaedici təlim |
| 10. | 050112 | Məktəbəqədər təhsil |
| 11. | 050114 | Riyaziyyat müəllimliyi |
| 12. | 050115 | Riyaziyyat və informatika müəllimliyi |
| 13. | 050116 | Tarix müəllimliyi |
| 14. | 050117 | Tarix və coğrafiya müəllimliyi |
| 15. | 050120 | Texnologiya müəllimliyi |
| 16. | 050121 | Xarici dil müəllimliyi (dillər üzrə) |
| 17. | 050206 | Hüquqşünaslıq |
| 18. | 050601 | Aerokosmik mühəndislik |
| 19. | 050603 | Aviasiya təhlükəsizliyi mühəndisliyi |
| 20. | 050605 | Dəniz naviqasiyası mühəndisliyi |
| 21. | 050606 | Ekologiya mühəndisliyi |
| 22. | 050613 | Hava nəqliyyatının hərəkətinin təşkili |
| 23. | 050614 | Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi |
| 24. | 050617 | İnşaat mühəndisliyi |
| 25. | 050633 | Nəqliyyat tikintisi mühəndisliyi |
| 26. | 050635 | Qida mühəndisliyi |
| 27. | 050639 | Uçuş mühəndisliyi |
| 28. | 050640 | Yanğın təhlükəsizliyi mühəndisliyi |
| 29. | 050704 | Baytarlıq təbabəti |
| 30. | 050802 | Əczaçılıq |
| 31. | 050803 | Fizioterapiya və tibbi reabilitasiya |
| 32. | 050808 | Tibb bacısı işi |
| 33. | 050901 | Hərbi tibb |
| 34. | 050902 | İctimai səhiyyə |
| 35. | 050903 | Stomatologiya |
| 36. | 050904 | Tibb |
| 37. | 060102 | Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə) |
| 38. | 060103 | Xarici dil müəllimliyi (dillər üzrə) |
| 39. | 060104 | Fizika müəllimliyi |
| 40. | 060105 | Riyaziyyat müəllimliyi |
| 41. | 060107 | Texnologiya müəllimliyi |
| 42. | 060109 | Biologiya müəllimliyi |
| 43. | 060110 | Kimya müəllimliyi |
| 44. | 060111 | Tarix müəllimliyi |
| 45. | 060112 | Coğrafiya müəllimliyi |
| 46. | 060113 | İnformatika müəllimliyi |
| 47. | 060115 | İbtidai sinif müəllimliyi |
| 48. | 060116 | Korreksiyaedici təlim |
| 49. | 060117 | Məktəbəqədər təlim və tərbiyə |
| 50. | 060119 | Pedaqogika |
| 51. | 060212 | Hüquqşünaslıq |
| 52. | 060613 | Avianəqliyyat istehsalatının təşkili mühəndisliyi |
| 53. | 060614 | Aviasiya texnikası avadanlıqlarının istismarı mühəndisliyi |
| 54. | 060615 | Hava nəqliyyatının hərəkətinin idarə olunması mühəndisliyi |
| 55. | 060616 | Uçuş mühəndisliyi |
| 56. | 060617 | Hava nəqliyyatında texnoloji proseslərin və istehsalatın təhlükəsizliyi mühəndisliyi |
| 57. | 060618 | Dəniz texnikası və texnologiyası mühəndisliyi |
| 58. | 060619 | Dəniz texnikası və avadanlıqlarının istismarı mühəndisliyi |
| 59. | 060620 | Gəmiçilik və gəmilərin hərəkətinin idarə edilməsi |
| 60. | 060621 | Dəmir yolu nəqliyyatı və təsərrüfatı mühəndisliyi |
| 61. | 060634 | İnşaat mühəndisliyi |
| 62. | 060636 | Nəqliyyat tikintisi mühəndisliyi |
| 63. | 060642 | Qida məhsulları mühəndisliyi |
| 64. | 060648 | Biotibbi texnika mühəndisliyi |
| 65. | 060649 | Ekologiya mühəndisliyi |
| 66. | 060650 | Yanğın təhlükəsizliyi mühəndisliyi |
| 67. | 060651 | Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi |
| 68. | 060652 | Kosmik texnika və texnologiyalar mühəndisliyi |

## Ukraynalı uşaqlar Heydər Əliyev Mərkəzində



**Ukraynadakı vəziyyətlə əlaqədar zərərçəkən və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı ilə ölkəmizə gətirilərək düşərgələrdə yerləşdirilən 30 ukraynalı uşağın Heydər Əliyev Mərkəzinə ekskursiyası təşkil olunub.**

Ziyarət zamanı Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev də ukraynalı uşaqlarla birgə olub. Uşaqlar ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərini əhatə edən video-foto arxiv, sənədlər, müxtəlif eksponatlarla tanış olublar. Onlar mərkəzdə, həmçinin Azərbaycanın qədim tarixini, zəngin mədəniyyətini, tükənməz təbii sərvətlərini əks etdirən, habelə Salvador Dalinin əsərlərindən ibarət sərgilərlə də tanış olublar.

Qeyd edək ki, bundan əvvəl ukraynalı uşaqların İsmayıllı, Qəbələ, Şəki və Şamaxıya ekskursiyaları təşkil olunub. Uşaqlar 14 günlük sosial reabilitasiya proqramı çərçivəsində art-terapiya və peşəkar psixoloq tərəfindən fərdi və qrup terapiyalarına cəlb ediliblər. Eləcə də psixo-sosial təlimlər, ingilis dili kursları, milli rəqslər, ustad dərslərində də iştirak ediblər.

***“Xalq qəzeti”***

### Yurd həsrətinin sonu

# “Füzuli, biz doğma qoynuna qayıdırıq”



**İşğaldan azad edilən ərazilərdə quruculuq işləri sürətlə davam etdirilir. Prezident İlham Əliyevin iştirakı ilə Qarabağ və Şərqi Zəngəzurda şəhər və kəndlərin, yaşayış məntəqələrinin bərpasının əsası qoyulur. Yeni tərzdə evlər, binalar inşa olunub məcburi köçkünlərin istifadəsinə verilir.**

Artıq Böyük Qayıdış proqramına uyğun olaraq, Zəngilanın Ağalı, Tərtərin Talış kəndlərinə, Laçın şəhərinə yüzlərlə ailə köçüb. İndi isə növbə Füzuli şəhərinə çatıb. Dünən Bakı şəhərinin Qaradağ rayonundakı “Qobu park 3” yaşayış kompleksindən Füzuli şəhərinə ilk köç karvanı yola salınıb. Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış 23 ailə – 90 nəfər bundan sonra doğma yurdda yaşayacaq.

Çoxillik Vətən həsrətinə son qoyulan Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Evlərin bölgüsü məcburi köçkünlərə yeni yaşayış sahələrinin verilməsinin hazırda qüvvədə olan qaydada– şəffaflıq və ədalətlilik prinsipləri əsasında aparılıb. Püşkatma avqustun 5-də Dövlət Komitəsinin Repatriasiya Departamentində keçirilib. Püşkatmada 144 ailə ( 509 nəfər) iştirak edib. Ailə tərkibinə uyğun olaraq, onlardan 51-i ikiotaqlı, 76-sı üçotaqlı,





17-si dördotaqlı mənzil ilə təmin olunub.

Yolasalma mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin və Füzuli Rayon İcra Hakimiyyətinin nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.

Yola düşən karvandan sədalar ucalıb: “Füzuli, biz doğma qoynuna qayıdırıq”. Qarşıdakı günlərdə də Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

Qeyd edək ki, MİDA tərəfindən tikilən Füzuli yaşayış kompleksinin ümumi sahəsi 8,9 hektardır. 6 məhəllədə 38 yaşayış binası tikilir. Bütün mənzillər məcburi köçkünlərə tam təmirli, mətbəx mebeli və qaz plitəsi, su, qaz və elektrik sayğacları ilə təchiz olunmuş vəziyyətdə verilir. Mənzillər həm də mərkəzləşdirilmiş qazanxana vasitəsilə istilik və məişət üçün isti su ilə təmin olunacaq. Yaşayış binaları ilə yanaşı, ərazidə park, yeraltı və yerüstü avtodayanacaqlar, uşaq oyun və idman meydançaları da istifadəyə veriləcək.

Füzuliyə köçən ailələrin uşaqları isə bu tədris ilində yeni tikilmiş məktəbdə oxuyacaqlar. Qardaş Özbəkistan tərəfindən tikilən 960 yerlik tam orta məktəbi yaxın günlərdə istifadəyə veriləcək. Şəhərə qayıdan ilk şagirdlər məhz bu məktəbdə təhsil alacaqlar.

Şəhərdə sakinlərinin işlə təminatında da problem olmayacaq. Çünki Füzuli həm də bir sənaye şəhəri kimi formalaşır. Əhalinin əhəmiyyətli bir hissəsi şəhərdə nəzərdə tutulan sənaye müəssisələrində çalışacaq. Eləcə də Füzuli rayonu ölkəmizin əsas kənd təsərrüfatı rayonlarından biri olub və hər zaman kənd təsərrüfatının bir çox sahələrində – taxılçılıq, pambıqçılıq, üzümçülükdə böyük nailiyyətlər əldə edib. Bu sahədə rayonun böyük potensialı var və rayonda aqrar sənaye kompleksləri də yaradılacaq. Yüzlərlə sakinin işlə təmin edilməsində problem olmayacaq. Ümumiyyətlə, bu istiqamətdə xidmət növləri də nəzərə alınıb.

Füzuli şəhəri həm də nəqliyyat xətlərinin üzərində yerləşir. Üstəlik şəhər yaxınlığında beynəlxalq hava limanı fəaliyyət göstərir. Bunlar onun logistika mərkəzi kimi rolunu artırır.

Xatırladaq ki, bu günədək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daimi yaşamaq üçün 400 ailə, 2 min insan köçürülüb. İlin sonunadək 2 min ailənin, təqribən 10 min nəfərin köçürülməsi nəzərdə tutulur.

***Ə. PÜNHAN, “Xalq qəzeti”***

# Azərbaycan–dünyanı heyran qoyan məkan

## Birinci yarımildə xarici ticarət dövriyyəsi 22,9 milyard dollar təşkil edib



**Azərbaycanın davamlı sosial-iqtisadi inkişafı respublikamızın dünya birliyinə inteqrasiyasının gücləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığın inkişafı, beynəlxalq və regional təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsi üçün əlverişli zəmin yaradır.**

Prezident İlham Əliyevin müəyyənləşdirdiyi siyasətə uyğun olaraq ölkəmizin xarici iqtisadi əlaqələrinin genişləndirilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi davam etdirilir. Son illər ölkəmizin xarici iqtisadi–ticari əlaqələrində diqqətçəkən mühüm məqamlardan biri də ixracın strukturunda qeyri-neft məhsullarının, o cümlədən ərzaq mallarının çəkisinin artması ilə bağlıdır. Çünki qeyri–neft sektorunun davamlı inkişafı ilə bağlı reallaşdırılan layihələr nəticəsində bu sahədə rəqabətqabiliyyətli məhsulların istehsalı davamlı şəkildə xeyli artır və həmin məhsullara dünya bazarlarında maraq da getdikcə güclənir.

Bu sahədə rəqabət indeksi göstəricisini ilbəil yaxşılaşdıran Azərbaycan Respublikasında xarici ticarət dövriyyəsinin tərkibində mühüm dəyişikliklər də özünü göstərir. Belə ki, respublikamızda yeni istehsal sahələrində buraxılan məhsullar daxili bazarda satılan analoji xarici malları tədricən sıxışdırıb çıxarır, hətta bəzi hallarda ixraca da yönəldilir. Bununla da daxili bazarın idxaldan asılılığının azaldılmasına əlverişli imkan yaranır.

Azərbaycanın qeyri-neft məhsullarının xarici bazarlara ixrac imkanlarının daha da genişləndirilməsi məqsədilə də mühüm işlər görülür. Belə ki, qanunvericilik bazası təkmilləşdirilir, ixrac mallarının istehsalı stimullaşdırılır, ixracın infrastruktur təminatı yaxşılaşdırılır. Sənaye şəhərciklərinin, potensial ixrac bazarı ölkələrində Azərbaycan ticarət evlərinin yaradılması sözügedən istiqamətdə görülən mühüm işlər sırasındadır. Bütün bunlar statistik göstəricilərdə də aydın nəzərə çarpır. Məsələn, cari ilin yanvar-iyun aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 187 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 111 ölkəyə məhsul ixrac olunub, 177 ölkədən idxal edilib.

Gömrük orqanlarında qeydiyyatı aparılan, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmayan ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2023-cü ilin yanvar-iyun aylarında xarici ticarət dövriyyəsi 22 milyard dolları, o cümlədən ixracın dəyəri 14 milyard dollar, idxalın dəyəri isə 8198,5 milyon dollar təşkil edib. Nəticədə isə 6 milyard 557 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, xarici ticarət dövriyyəsinin 92,6 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, Almaniya, Yunanıstan, Hindistan, İspaniya, İsrail, Türkmənistan, Çexiya, Gürcüstan, Rumıniya, Fransa, İrlandiya, ABŞ, İran, Qazaxıstan, Yaponiya, Bolqarıstan, Avstriya, Koreya, Xorvatiya və Belarus ilə aparılan ticarət əməliyyatlarının payına düşüb.

Cari ilin yanvar-iyun aylarında ixracın 46,5 faizini İtaliyaya, 15,4 faizini Türkiyəyə, 4,5 faizini Yunanıstana, 3,6 faizini İspaniyaya, hər biri 3,5 faiz olmaqla İsrail və Rusiyaya, 3,4 faizini Hindistana, 2,4 faizini Çexiyaya, hər biri 2,3 faiz olmaqla Rumıniya və Gürcüstana, 2,1 faizini Almaniyaya, 1,8 faizini İrlandiyaya, hər biri 1 faiz olmaqla Bolqarıstan və Xorvatiyaya, 0,9 faizini Avstriyaya, 0,7 faizini Fransaya, hər biri 0,5 faiz olmaqla İndoneziya, Sinqapur və Vyetnama, hər biri 0,4 faiz olmaqla İsveçrə və Portuqaliyaya, 2,8 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil edib.

Hesabat dövründə ixracın 90 faizini boru kəməri və elektrik ötürücü xətləri ilə nəql edilmiş, 5,1 faizini avtomobil, 3,5 faizini dəmir yolu, 0,9 faizini hava, 0,5 faizini dəniz nəqliyyatı ilə göndərilmiş məhsulların dəyəri təşkil edib. İxracın strukturunda xam neft, təbii qaz və neft-qaz məhsullarının, meyvə və tərəvəzlərin, plastik kütlə və ondan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, alüminium və ondan hazırlanan məmulatların, pambıq lifi və ipliyinin, qara metallar və onlardan hazırlanan məmulatların payı üstünlük təşkil edib.

Cari ilin ilk 7 ayında isə qeyri–neft–qaz məhsullarının ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə faktiki qiymətlərlə 20,6 faiz, real ifadədə 16,9 faiz artaraq 1 milyard 773 milyon dollara bərabər olub.

Qeyri–neft–qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (31,1 faiz), Türkiyəyə (28,9 faiz), Gürcüstana (10,2 faiz), İsveçrəyə (3,9 faiz), Qazaxıstana (3,3 faiz), Türkmənistana (2,6 faiz), Ukraynaya (2,1 faiz), Birləşmiş Ərəb Əmirliklərinə (1,6 faiz), Özbəkistana (1,3 faiz), İtaliyaya (1,2 faiz), Rumıniyaya (1,1 faiz), Çinə (1,1 faiz), Belçikaya (1 faiz) göndərilmiş malların payı üstünlük təşkil edib.

Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, ixrac edilən təbii qazın dəyəri isə 8 milyard 934,1 milyon ABŞ dolları olub. Yeri gəlmişkən, 2022-ci ilin eyni aylarında Azərbaycandan 12 milyard 704,1 milyon kubmetr təbii qaz ixrac edilib, həmin ixracın dəyəri 8 milyard 219,9 milyon dollar olub.

Bu göstəricilərdən aydın olur ki, ölkəmizdə həyata keçirilən bir sıra zəruri tədbirlər, strateji məhsulların idxalında və ixracında bütün fiziki və hüquqi şəxslərin bərabər hüquqlarının reallaşdırılması və inhisarçılığın qarşısının alınması istiqamətində görülən işlər, daxili bazarın marketinqinin düzgün müəyyən edilməsi, gömrük əlaqələrinin sadələşdirilməsi, xarici ticarətin liberallaşdırılması, eləcə də əlverişli investisiya mühitinin yaradılması və s. xarici ticarət əlaqələrin həcminin və coğrafiyasının daha da genişlənməsinə müsbət təsir göstərib.

***V.BAYRAMOV, “Xalq qəzeti”***

# Bölgələr ümumi tərəqqi yolunda

## Son yarım ildə dövlət başçısı 200-dən çox obyektin açılışını edib

**Azərbaycanda 2004-cü ildən indiyədək uğurla reallaşdırılan regionların sosial–iqtisadi inkişafı dövlət proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına müsbət təsir göstərib, bununla da ölkəmizin strateji inkişaf hədəflərinə nail olunmasına əhəmiyyətli töhfə verib.**



Kənd təsərrüfatı, emal sənayesi respublikamızda qeyri–neft sektorunun inkişafında əsas prioritet sahələr hesab edilir. Aqrar sektorun subsidiyalaşdırılması və vergi azadolmaları, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, investisiyaların və ixracın təşviqi, digər dövlət dəstəyi mexanizmləri regional inkişafın sürətlənməsində mühüm rol oynayıb.

"Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə bağlı ötən müddətdə görülən işlər də bu barədə aydın təsəvvür yaradır. Dövlətimizin başçısının 29 yanvar 2019-cu il tarixli fərmanı ilə təsdiqlənən həmin Dövlət Proqramında nəzərdə tutulmuş layihələrin icrası hazırda uğurla həyata keçirilir. Prezident İlham Əliyevin bölgələrə mütəmadi səfərlərləri ilə proqramın reallaşması sürətlənir, regionların tarazlı inkişafının təmin olunması, yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi sahəsində yüksək nəticələr əldə edilir.

Ölkə başçısı keçən il və bu ilin ilk yarısında rayonlara səfər çərçivəsində 200-dən çox obyektin– istehsal müəssisələri, yollar, elektrik təchizatı obyektləri, su təchizatı layihələri, səhiyyə və təhsil müəssisələrinin açılış mərasimlərində iştirak edib, müvafiq məsələlərlə bağlı tapşırıq və tövsiyələrini verib.

Bundan başqa, dövlətimizin başçısı tərəfindən həmin müddətdə müxtəlif rayon və şəhərlərin sosial-iqtisadi inkişafı, həmçinin bəzi mühüm layihələrin icrası istiqamətində dövlət büdcəsində nəzərdə tutulmuş əsaslı vəsait qoyuluşu, eyni zamanda, Prezidentin Ehtiyat Fondundan ümumilikdə 208,1 milyon manat vəsaitin ayrılması ilə bağlı 44 sərəncam imzalanıb.

Dövlət proqramı çərçivəsində regionlarda sənayeləşmə siyasətinə uyğun olaraq sənaye parkları və məhəllələrinin fəaliyyətinin təşkili və genişləndirilməsi istiqamətində işlər indiyədək uğurla davam etdirilib. 7 sənaye parkının–Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz vadisi İqtisadi Zonası" sənaye parklarının və 5 sənaye məhəlləsinin– Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələrinin səmərəli fəaliyəti təmin olunub. Həmin kompleks müəssisələrdə sahibkarlığın müasir dünya təcrübəsi əsasında inkişafı üçün əlverişli investisiya mühiti formalaşdırılıb. Sənaye parkları və məhəllələrinin rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular isə ƏDV-dən və gömrük rüsumlarından azad olunub.

İndiyədək sənaye zonalarında rezidentlik statusu verilən 134 sahibkarlıq subyektinin artıq 68-i fəaliyyətə başlayıb. Bu komplekslərə indiyədək 6,56 milyard manatdan çox investisiya yatırılıb və 10 min 600-dən çox daimi iş yeri yaradılıb.

İş yerlərinin yaradılmasından söhbət düşmüşkən, xatırladaq ki, cari ilin altı ayı ərzində ölkədə 38,9 min yeni iş yerləri açılıb. Bu dövrdə yaradılmış iş yerlərinin 9,1 faizi yeni yaradılan müəssisələrin, 90,1 faizi mövcud qurumların, 0,5 faizi fəaliyyəti bərpaolunan təşkilatların payına düşüb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən müddətdə sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, ölkəmizdə sahibkarlığın genişləndirilməsi və iqtisadiyyatda rolunun artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması tədbirləri davamlı şəkildə həyata keçirilib. Respublikada real sektora özəl investisiyaların cəlbini gücləndirmək məqsədilə dövlətimizin başçısının 2016-cı il 18 yanvar tarixli fərmanı ilə təsdiqlənən "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"na əsasən, həmin sənədinin verilməsi davam etdirilib. Təkcə ötən il ərzində 49 sahibkarlıq subyektinə 50 investisiya təşviqi sənədi təqdim olunub. Bunun nəticəsində yerli istehsala 665 milyon manat investisiyanın yatırılması və 2323 yeni iş yerinin açılması nəzərdə tutulub.

İnvestisiya təşviqi sənədini alan hüquqi şəxslərə və fərdi sahibkarlara 77 milyon dollar dəyərində texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün 630 təsdiqedici sənəd verilib və sahibkarlar tərəfindən idxalda tətbiq olunan vergi və rüsumlardan 18,54 milyon ABŞ dolları məbləğində güzəşt əldə edilib.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*

### Ekspert rəyi



**Mirağa ƏHMƏDOV**
**iqtisadçı-ekspert**

Regionların inkişafında ən mühüm amillərdən biri investisiya qoyuluşunun diqqətdə saxlanılmasıdır. Təkcə cari ilin ilk rübündə Azərbaycanın regionlarına investisiya qoyuluşu ötən ilin müvafiq dövrü ilə müqayisədə 22,7 faiz artıb. Bu dövrdə regionlara investisiya qoyuluşu 4,7 milyard manat təşkil edib.

2022-ci ildə isə Azərbaycanda əsas kapitala investisiyaların həcmi 18 milyard 272 milyon manatdan çox olub. Real ifadədə artım 2021-ci illə müqayisədə 5,5 faiz təşkil edib.

Sahibkarlara güzəştli kreditlərlə maliyyə dəstəyinin göstərilməsi də diqqətdə saxlanılıb. Təkcə 2022-ci il ərzində müvəkkil kredit təşkilatları vasitəsilə 2726 investisiya layihəsinin maliyyələşdirilməsinə 145,9 milyon manat, o cümlədən respublikanın regionları üzrə 2644 investisiya layihəsinin maliyyələşdirilməsinə 121,2 milyon manat güzəştli kredit verilib. Maliyyələşdirilən layihələr hesabına 3026 yeni iş yerinin açılması imkanı yaradılıb.

İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondundan bildirildiyinə görə, qurum tərəfindən cari ilin yanvar–iyul aylarında isə 1295 layihənin maliyyələşdirilməsinə 64,8 milyon manat kredit ayrılıb. Həmin güzəştli kreditlər hesabına 937 yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Xatırladaq ki, son illərdə respublikada özəl sektorun dinamik inkişafı istiqamətdə bir sıra tədbirlər həyata keçirilib, iş adamlarına güzəştli kreditlərin verilməsi, investisiya təşviqi mexanizminin tətbiqinin davam etdirilməsi, xarici ölkələrdə ticarət evlərinin açılması, sahibkarların bu prosesə yaxından cəlb olunması daim diqqətdə saxlanılıb. Eyni zamanda, sahibkarlıq sahəsində yoxlamaların, lisenziyaların sayının minimuma endirilməsi, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi, bütün bunlarla bağlı dövlət dəstəyinin daha da artırılması sahibkarların xərclərinin azalmasına səbəb olub, eyni zamanda, büdcəyə vergi ödənişlərinin həcminin artırılmasını şərtləndirib.

Aqrar sektorun inkişafında mühüm önəm daşıyan aqroparkların və müasir iri fermer təsərrüfatlarının yaradılması istiqamətində layihələrə də xüsusi əhəmiyyət verilir. Dövlət başçısının müvafiq tapşırıqlarına uyğun olaraq, hazırda respublikanın 32 rayonu üzrə 239,3 min hektar ərazidə ümumi layihə dəyəri 2,4 milyard manat olan 51 aqropark üzrə işlər davam etdirilir. Sözügedən aqroparklardan 44-ü artıq fəaliyyətə başlayıb, digərlərində isə layihələndirmə və ya tikinti işləri aparılır.

## "Azərişıq" "Karxana"da yenidənqurma işləri aparacaq

**"Azərişıq" ASC-in məlumatında bildirilir ki, qurum Mingəçevir şəhəri ərazisində yerləşən mövcud 35/6-kV-luq 2x10 MVA gücündə "Karxana" yarımstansiyasının 110/35/6-kV-luq 2x40 MVA gücündə yenidən qurulması və 110 kV-luq şəbəkə ilə əlaqələndirilməsi işlərinə 15 milyon manata yaxın vəsait yönəldəcək.**



Bu işlərin həyata keçirilməsi üçün "Smart Energy Services" MMC ilə 14 milyon 987 min 837 manatlıq müqavilə imzalanıb. Müqavilənin dəyəri 14 milyon 987 min 837 manatdır. Şərtlərə əsasən, müqavilə çərçivəsində bütün işlər 2024-cü il fevralın 16-dək tamamlanmalıdır.

Xatırladaq ki, "Azərişıq" ASC-nin funksiyalarına Azərbaycan ərazisində elektrik enerjisini satın almaqla istehlakçıların etibarlı, təhlükəsiz və səmərəli şəkildə elektrik enerjisi ilə təchizatı daxildir.

## İyulda gündəlik 499 min barel xam neft çıxarılıb

**Energetika Nazirliyindən aldığımız məlumata əsasən, 2023-cü ilin iyul ayında respublikada gündəlik neft (kondensatla birlikdə) hasilatı 621 min barel olub. Bunun 499 min barelini xam neft, 122 min barelini isə kondensat təşkil edib.**



"OPEC plus" əməkdaşlığı çərçivəsində 2023-cü ilin sonuna kimi Azərbaycanın ixtisarlarla bağlı öhdəliyi gündəlik 33 min barel, gündəlik xam neft hasilatı üzrə kvotası isə 684 min bareldir.

## Ölkəmiz xaricdən 578 min ton buğda alıb

**Dövlət Gömrük Komitəsinin aylıq hesabatına görə, 2023-cü ilin ilk 7 ayı ərzində Azərbaycana 164 milyon 685 min dollar dəyərində 578 min ton buğda idxal olunub.**



Keçən ilin müvafiq dövrü ərzində isə ölkəmizə 154 milyon 660 min dollar dəyərində 430 min ton buğda gətirilmişdi.

Xatırladaq ki, 1 ton buğdanın orta idxal dəyəri 360 dollardan 285 dollara düşüb.

*"Xalq qəzeti"*

## Tikintidə qeyri-dövlət sektorunun payı 88,8 faizdir

**Dövlət Statistika Komitəsindən verilən məlumata əsasən, xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilən vəsaitin 2 milyard 38,6 milyon manatı (91,1 faizi) Birləşmiş Krallıq, Türkiyə, ABŞ, Fransa, Yaponiya, Rusiya, İsveçrə və Norveç sərmayədarlarına məxsus olub.**



2023-cü ilin yanvar–iyul aylarında tikinti müəssisələri tərəfindən (fərdi sahibkarlar nəzərə alınmaqla) yerinə yetirilən inşaat işlərinin 80,2 faizini tikinti, yenidənqurma və genişləndirmə, 6,3 faizini əsaslı təmir, 8,2 faizini cari təmir, 5,3 faizini isə digər tikinti işləri təşkil edib.

Ümumi inşaat işlərinin 88,8 faizini qeyri-dövlət tikinti müəssisələri yerinə yetiriblər.

## Əhalinin gəlirləri 44 milyard 559 milyon manata çatıb



**Dövlət Statistika Komitəsinin ilkin məlumatına görə, 2023-cü ilin yanvar-iyul aylarında ölkə əhalisinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 14,8 faiz artaraq 44 milyard 559 milyon manat və ya hər nəfərə orta hesabla 4 min 394 manat olub.**

Əhalinin sərəncamında qalan gəlirləri 39 milyard 307 milyon manat təşkil edib.

*"Xalq qəzeti"*

# Qazaxıstana qeyri-neft ixracı 2 dəfədən çox artıb

**Bu gün Azərbaycan–Qazaxıstan arasında yanacaq-energetika, nəqliyyat, logistika, informasiya–kommunikasiya texnologiyaları, kənd təsərrüfatı və qida təhlükəsizliyi, miqrasiya, səhiyyə, mədəniyyət, turizm, təhsil, ətraf mühitin mühafizəsi, gənclər siyasəti və digər sahələrdə əlaqələrin genişləndirilməsinə xüsusi əhəmiyyət verilir.**



Azərbaycan şirkətlərinin Qazaxıstanda həyata keçirilən infrastruktur layihələrində və digər istehsal sahələrində iştirakının təmin edilməsi üçün qarşılıqlı məlumat mübadiləsi aparılır. Ölkənin sənaye parklarının məhsullarının Qazaxıstan bazarına çıxarılması, həmçinin qazax şirkətlərinin ölkəmizdə birgə müəssisələrin yaradılmasına cəlb edilməsi, neft və neft məhsullarının ticarətinin genişləndirilməsi məsələləri də diqqət mərkəzində saxlanılır.

İki ölkə arasında nəqliyyat sahəsində əməkdaşlığa da xüsusi önəm verilir. Bu, təsadüfi deyil. Belə ki, Azərbaycan və Qazaxıstan Çindən Avropaya qədər uzanan beynəlxalq nəqliyyat dəhlizinin üzərində yerləşir. Ölkələrimizin marağı bu tranzit xəttin imkanlarından səmərəli şəkildə faydalanmaqdır. Hazırda Bakı–Tbilisi–Qars dəmir yolu xətti, Yeni Bakı Beynəlxalq Dəniz Limanı, Qazaxıstanın qərb və şərq sərhədlərini birləşdirən dəmir yolu xətləri və Kurık dəniz limanı ölkələrimizin tranzit potensialının daha da artırılmasına müsbət təsir göstərir. Artıq Çin-Avropa istiqamətində region üzərindən yükdaşımalarının artması bunun bariz ifadəsidir.

Azərbaycan və Qazaxıstan ərazisindən keçən Transxəzər beynəlxalq nəqliyyat marşrutunun rəqabət qabiliyyətinin artırılması və bu marşruta beynəlxalq yükdaşımaların cəlb edilməsi üçün işlər uğurla davam etdirilir. Cari ildən Aktau-Bakı istiqamətində fider gəmisinin (konteyner daşıyan gəmi) reysə buraxılması qeyd edilən fikrin parlaq təsdiqidir. Eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə yüklərin daşınmasına Qazaxıstan tərəfindən böyük maraq göstərilməsi də diqqətçəkən məqamdır.

Dövlət Gömrük Komitəsinin hesabatına əsasən, cari ilin ötən 7 ayında ölkəmizdən Qazaxıstana 66 milyon 472 min dollarlıq qeyri-neft məhsulu ixrac edilib. Bu göstəricinin həcmi 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfə və ya 34, 2 milyon dollar çoxdur.

Qeyd edək ki, hesabat dövründə Azərbaycandan Qazaxıstana ümumi ixrac 68,6 milyon dollar, dost ölkədən ümumi idxal isə 169,3 milyon dollar təşkil edib.

*"Xalq qəzeti"*

# *Elçin Əmirbəyov:*
# Çin Azərbaycan üçün dost ölkədir

**Çinin "Phoenix" Televiziyasında Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun müsahibəsi yayımlanıb.**




Prezidentin xüsusi nümayəndəsi müsahibədə Azərbaycan-Çin münasibətlərinin sürətli inkişafı, əməkdaşlığın daha da dərinləşdirilməsi imkanları, Cənubi Qafqaz regionunda hazırkı vəziyyət və digər məsələlər barədə ətraflı məlumat verib. Azərbaycan ilə Çin arasında yüksək səviyyəli siyasi dialoqun mövcudluğunu vurğulayan E.Əmirbəyov dövlətlərimizin başçıları İlham Əliyev ilə Si Cinpinin bir neçə dəfə görüşdüklərini xatırladıb, hər iki liderin şəxsi münasibətlərinin əlaqələrimizin inkişafına da mühüm təsir göstərdiyini deyib.

Prezidentin xüsusi nümayəndəsi Çinə səfərinin məqsədinin ölkələrimiz arasında siyasi dialoqun daha da dərinləşdirilməsi, eləcə də Çin tərəfinin Azərbaycan ilə Ermənistan arasında sülh danışıqları barədə məlumatlandırılması olduğunu vurğulayıb: "Biz Çinin beynəlxalq arenada necə əhəmiyyətli rol oynadığını bilirik. Çin BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Çin Azərbaycan üçün dost ölkədir. Azərbaycan da Çini özünün strateji tərəfdaşı hesab edir".

Ötən il Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğunu xatırladan xüsusi nümayəndə qeyd edib ki, ölkələrimizin liderlərinin şəxsi münasibətləri sayəsində bu gün iki dövlət arasında yüksək səviyyəli əlaqələr mövcuddur. Ə.Əmirbəyov Çin xalqı üçün yeni cəlbedici səyahət məkanı kimi Azərbaycanın imkanlarından bəhs edərək, iki xalq arasında təmasların inkişafı baxımından birbaşa aviareyslərin əhəmiyyətini xüsusi vurğulayıb.

Azərbaycanın neft və qaz tədarükçüsü olduğunu bildirən E.Əmirbəyov vurğulayıb ki, bu gün Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyini təmin edilməsində mühüm rol oynayır. Daha geniş regionda baş verən geosiyasi hadisələr, əməkdaşlığın geoiqtisadi əhəmiyyətinin artması nəzərə alınaraq, ölkələrimizin rəhbərləri Çinin "Bir kəmər, bir yol" təşəbbüsündən yararlanmaq üçün daha geniş fəaliyyətin həyata keçirilməsi barədə razılığa gəliblər. Əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan Şərq ilə Qərb arasında mühüm körpü rolunu oynayır. Uğurla fəaliyyət göstərən Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi, Xəzər dənizini Qara dəniz ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi mühüm infrastrukturlar Orta Dəhliz layihəsinin həyata keçirilməsində böyük rol oynaya bilər. Bunlar, həmçinin Azərbaycanın da tamamilə dəstəklədiyi "Bir kəmər, bir yol" təşəbbüsü ilə əlaqələndirilə bilər. Orta Dəhlizin "Bir kəmər, bir yol" təşəbbüsü ilə əlaqələndirilməsi iqtisadi-ticari əlaqələrin, logistika imkanlarının, həmçinin turizmin daha da inkişafına mühüm töhfə verəcək.

Müsahibədə Azərbaycanda Çin dilinin öyrənilməsinə artan maraqdan da bəhs olunub. Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi vurğulayıb ki, bu gün azərbaycanlı gənclərin bir çoxu bu dili öyrənməyə maraq göstərir. Gözəl Çin ölkəsinə səyahət edərək Çin dili və mədəniyyətini dərindən öyrənməyə can atan azərbaycanlı tələbələrin sayına nəzər salsaq görərik ki, bu sahədə inkişaf göz qabağındadır. Azərbaycanda Çin Dili mərkəzləri uğurla fəaliyyət göstərir.

E.Əmirbəyov müsahibəsində Azərbaycanın 1990-cı illərdən başlayaraq, Ermənistanın təcavüzkar siyasətinə məruz qaldığını və nəticədə torpaqlarımızın 20 faizinin otuz ilə yaxın müddətdə işğal olunduğunu vurğulayıb. Bildirib ki, bu işğal nəticəsində bir milyondan çox azərbaycanlı doğma yurdlarından didərgin düşüb, ölkə ərazisinin səkkizdəbiri tamamilə dağıdılıb. Lakin Azərbaycan İkinci Qarabağ müharibəsində şanlı Qələbə qazanaraq tarixi torpaqlarını işğaldan azad edib. Tarixi ədaləti, ərazi bütövlüyünü bərpa edən Azərbaycan düşmənçilik səhifəsini çevirmək, Ermənistanla mehriban və dinc qonşuluq münasibətləri qurmaq üçün beş əsas prinsipə əsaslanan sülh gündəliyi təklif edib. Münasibətlərin normallaşdırılması üçün hazırda gözəl şanslar var. Çünki Azərbaycan regionun daha yaxşı gələcəyə layiq olduğunu hesab edir.

Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanması istiqamətində danışıqlar prosesi barədə məlumat verən xüsusi nümayəndə prosesin bu ilin mayından daha da intensivləşdiyini vurğulayıb, lakin bunun davamlı sülhə nail olmaq üçün yetərli olmadığını bildirib: "Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı bəyanatı sülh prosesində nikbinlik yaradır. Bu mühüm element onu deməyə imkan verir ki, əsas sazişi imzalamaqdan çox da uzaqda deyilik".

E.Əmirbəyov doğma torpaqlarından zorla qovulmuş və etnik təmizlənməyə məruz qalmış yüz minlərlə azərbaycanlı keçmiş məcburi köçkünün geri qayıtmaları prosesi barədə də məlumat verib, Böyük Qayıdış prosesinə uğurla başlandığını vurğulayıb.

Prezidentin xüsusi nümayəndəsi bildirib ki, Azərbaycan Ermənistandan üzərinə götürdüyü bütün öhdəlikləri tam şəkildə yerinə yetirməsini gözləyir. Ermənistan ilk növbədə silahlı qüvvələrinin hissələrini Azərbaycanın suveren ərazisindən tamamilə çıxarmalıdır. Üçtərəfli Bəyanatın imzalanmasından iki il yarım keçməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələrinin 10 min nəfərlik şəxsi heyəti hələ də Azərbaycanın Qarabağ regionunda qeyri-qanuni qalmaqdadır. Ermənistan silahlı qüvvələrini Azərbaycanın suveren ərazisindən nə qədər tez çıxararsa, sülh sazişi bir o qədər qısa müddətdə imzalana bilər.

# Sərhəd Mühafizəsinin 104-cü ildönümü münasibətilə təntənəli tədbir

**Avqustun 18-də Azərbaycanın Sərhəd Mühafizəsinin 104-cü ildönümü münasibətilə Dövlət Sərhəd Xidmətinin "Sərhədçi" Mədəniyyət Mərkəzində təntənəli mərasim keçirilib.**



Əvvəlcə Xidmətin rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıb, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi hörmətlə yad edilib. İkinci Fəxri xiyabanda və Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə həlak olmuş igid oğulların xatirəsi anılaraq "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Təntənəli mərasimdə DSX-nin rəisi general-polkovnik Elçin Quliyev çıxış edərək 44 günlük Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyünün bərpa olunduğu, 2022-ci il sentyabrın 12-13-də Ermənistan Silahlı Qüvvələrinin bölmələrinin Azərbaycan–Ermənistan dövlət sərhədinin Zəngilan rayonu istiqamətində genişmiqyaslı təxribatlarının qarşısının alınması zamanı DSX-nin qarşısında qoyulmuş döyüş tapşırıqlarının layiqincə icra edildiyi, Azərbaycan sərhədçilərinin igidlik dastanı yazdıqları, dövlətimizin başçısının tapşırığı əsasında Ermənistan-Azərbaycan dövlət sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında, Həkəri çayı üzərindəki körpünün üstündə dövlət sərhədindən buraxılış məntəqəsinin qurulması, fəxarət rəmzimiz olan üçrəngli dövlət bayrağımızın ucaldılması ilə sərhədlərimizin bütövlüyünün təmin edilməsi xüsusi vurğulanıb.

Tədbir zamanı Prezident İlham Əliyevin 2023-cü il 17 avqust tarixli sərəncamları şəxsi heyətə elan edilib, zabitlərə ali hərbi rütbələr təqdim olunub, xidməti-döyüş fəaliyyətində fərqlənən hərbi qulluqçular orden və medallarla təltifləndirilib.

Sonda Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin hazırladığı bayram konserti verilib, Sərhəd Mühafizəsinin xidməti-döyüş fəaliyyətini özündə tərənnüm edən "Şərə qarşı" sənədli filmi nümayiş olunub.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

# Ermənilər təcili tibbi yardım maşınlarında silah daşıyırlar

**Avqustun 18-i səhər saatlarında Azərbaycan ərazilərində müvəqqəti yerləşən Rusiya sülhməramlı kontingentinə məxsus döyüş maşınının müşayiəti ilə Qarabağ iqtisadi rayonunda qeyri-qanuni erməni silahlı birləşmələrinin və Ermənistan silahlı qüvvələrinin qalıqlarının Xankəndi-Qaybalı-Dükanlar-Xəlfəli marşrutu ilə döyüş mövqelərini gücləndirməsi müşahidə edilib.**




Texniki müşahidə vasitələri ilə əldə edilən görüntülərdə qanunsuz daşımaların həyata keçirilməsi üçün içərisi silah, döyüş sursatı, eləcə də piyada və tank əleyhinə minalarla dolu təcili tibbi yardım maşınının da kolonda hərəkəti qeydə alınıb.

***

Həmin gün saat 10:20-də Ermənistan silahlı qüvvələrinin bölmələri İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub. Ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

Bundan başqa, saat 11:55-dən 12:15-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Xocavənd və Füzuli rayonları istiqamətlərində yerləşən mövqeləri ilə üzbəüz mövqelərini gücləndirmək məqsədilə yerdəyişmə etməyə cəhd göstəriblər. Qanunsuz yerdəyişmənin qarşısını almaq məqsədilə bölmələrimiz tərəfindən zəruri tədbirlər görülüb.

***"Xalq qəzeti"***

**KÖŞƏ YAZISI**

# Yalan, böhtan və riyakarlığın "bumeranq effekti"

## "Erməni şəbəkəsi"nin BMT TŞ üzərində qurduğu informasiya təxribatı nəticəsiz qaldı

**Ermənistan rəhbərliyi, siyasi birlikləri, diaspor və lobbi qrupları dünya ictimaiyyətini "Qarabağda humanitar böhran var" yalanlarına inandırmaq üçün ciddi kampaniya apardılar. BMT Təhlükəsizlik Şurasının mövzu üzrə avqustun 16-da keçirilən iclası prosesdə kuliminasiya nöqtəsi oldu.**

O nöqtəyə qədər isə erməni tərəfi fərqli platformalarda informasiya təxribatları gerçəkləşdirdi, öz yalanlarını dünyaya həzm etdirmək üçün bütün potensialını xərclədi. "Erməni şəbəkəsi"nin son kampaniyası ABŞ, Fransa və Rusiya KİV-də xüsusilə qabarıq göründü. "Forbes" jurnalı Evelina Oçabın imzası ilə ermənilərin mövqeyini müdafiə edən məqalə dərc etdi. "Washington Post" qəzeti isə 6 gün ərzində mövzu üzrə 3 məqalə yayımladı. Devid İqnatiusun imzası ilə dərc edilən bu məqalələr Qarabağdakı separatçıların müdafiəçisi rolunda çıxış etdi. Laçın yolunun dırnaqarası bloklanmasını əsaslandırmaq üçün qondarma faktlardan istifafə etdi.



Məsələ təkcə "Washington Post"la tamamlanmadı. ABŞ-də fəaliyyət göstərən bir çox blogerlər də mövzu üzərində fokuslandılar. Litse Sinel adlı blogerin Qarabağ regionunda vəziyyəti təhrif edən statusları onun "həmfikirləri" tərəfindən intensiv şəkildə paylaşıldı. Sinelin açıqlamaları ABŞ-nin fərqli KİV-ləri tərəfindən tirajlandı. Rusiya KİV-ləri də bu metoddan istifadə etdilər. Bu ölkənin bəzi media qurumları bədnam bloger Semyon Peqovun Laçın yolu ilə bağlı qeyri-ciddi iddialarını öz səhifələrində tirajladı.

Vurğulamaq zəruridir ki, "erməni şəbəkəsi"nin ABŞ, Fransa və Rusiya KİV üzərində daha çox fokuslaşmalarının xüsusi səbəbləri var idi. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 5 daimi üzvündən 3-ü məhz bu dövlətlərdir. Ermənilər dünya ictimaiyyətində rəy yaratmağa çalışdılar ki, böyük güclər "erməni həqiqətlərinin tərəfindədir". Həqiqətdə, qeyd edilən KİV-də yayımlanan məqalələrin "müəlliflərinin" hər biri "erməni şəbəkəsi"nin təsiri altında olan şəxslərdir.

Bu məqalələrin dərc edilməsi üçün qeyri-leqal vasitələrdən istifadə edilib. Məsələn, "Washington Post" qəzetində dərc edilmiş məqalənin müəllifi Devid İqnatius 2016-cı ildə Qarabağa qanunsuz səfər etməsi ilə diqqət çəkib. Həmin səfərlərinə görə milyarder "Ruben Vardanyan Fondu" tərəfindən mükafatlandırılıb. Yaxud, Litse Sinel 2016-cı ildə Azərbaycan və Türkiyə əleyhinə yazıları ilə tanınıb. O, Suriya ərazisindən qanunsuz yollarla Türkiyəyə keçərək burada təxribatçı əməllər törədib. Karyerası, bütövlükdə, erməni diasporunun himayəsi altında formalaşıb.

Rusiyalı Semyon Peqovun da karyerası bənzər motivlər üzərində formalaşıb. Onun 2020-ci ildə Qarabağa daxil olması, İkinci Qarabağ müharibəsinə dair erməni mövqelərini ifadə edən təxribatçı informasiyalar paylaşması hər kəsin yaddaşındadır. "Erməni şəbəkəsi" BMT TŞ-nin iclasından öncə Peqovu yenidən dövriyyəyə buraxdı.

Belə bir nəticə çıxır ki, "erməni şəbəkəsi"nin taktikası ötən 7 il ərzində dəyişməyib. Növbəti kampaniyalar da eyni tezislər, eyni şəxslər və eyni KİV qurumları üzərində qurulur. Bu eyniliklər Azərbaycana imkan verir ki, erməni tərəfinin metodlarını təhlil etsin, taktikalarını öyrənsin, preventiv addımlar atsın. Azərbaycan 44 günlük müharibədə olduğu kimi, informasiya və diplomatiya savaşında da yeni metodlardan istifadə edir. Ölkəmiz erməni yalanlarını dünyaya çatdırmaq üçün modern texnologiyalardan faydalanır.

BMT Təhlükəsizlik Şurasının avqustun 16-da Nyu-Yorkda keçirilən və Qarabağ bölgəsinə həsr edilmiş iclasının nəticələri təkcə ABŞ, Fransa və Rusiya KİV-ində deyil, əksər ölkələrdə fəaliyyət göstərən trans-milli və trans-sərhd KİV-də yayımlanıb. Peşəkar media qurumlarında dərc edilmiş oxunaqlı məqalələrin axtarılıb tapılması üzrə ixtisaslaşmış internet axtarış alətlərinə, xüsusən, "Google scholar"a istinad edərkən görünür ki, BMT TŞ-nin 16 avqust iclasının nəticələri dünyanın ayrı-ayrı ölkələrində fəaliyyət göstərən KİV-in diqqət mərkəzində olub.

Yalnız "Google scholar"da aparılan axtarış nəticəsində bəlli olur ki, təqribən, 96 trans-sərhəd KİV qurumu (Azərbaycan və Ermənistandan kənar) mövzunu işıqlandırıb, iclası müxtəlif kontekstlərdən şərh edib. Həmin xəbər və məqalələrin sayı isə 120-dən çoxdur. Bloqlarda, sosial şəbəkə platformalarında yayımlanan informasiyaların sayı isə 200-dən çoxdur. Sıralarında "New York Times", "Washington Post", BMT-nin saytı olmaqla, dünyanın tanınmış informasiya resursları iclasın nəticələrini dərc etməklə, əsl həqiqətləri dünyaya çatdıra bilib. Həmin nəticələr isə "erməni şəbəkəsinin" maraqlarına uyğun deyil.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 5 daimi, 10 qeyri-daimi olmaqla, 15 üzvdən ibarətdir. 15 üzv dövlətdən 9-u 16 avqust iclasında birbaşa və dolayı çıxışlarla Azərbaycanın mövqeyini dəstəkləyiblər. Nəticədə, BMT TŞ mövzu üzrə hər hansı sənəd qəbul etməyib, ümumi müzakirələr keçirməklə yekunlaşıb. Müzakirələr zamanı daha çox bu fikrin üzərində dayanılıb ki, "humanitar yardım mövzusu siyasiləşdirilməməlidir. Humanitar yardımın çatdırılması istənilən mövcud marşrutlardan istifadə edilərək reallaşdırılmalıdır". Bununla da "Xankəndi-Ağdam yolu" layihəsinə haqq qazandırmış oldu.

"Erməni şəbəkəsi"nin BMT TŞ-nin 16 avqust iclasından öncə törətdiyi informasiya təxribatları "bumeranq effekti" verdi. Yalançı informasiya təxribatları dünya ictimaiyyətini, xüsusən, BMT TŞ-nin üzvü olan dövlətləri çaşdıra bilmədi. Azərbaycanın siyasi rəhbərliyi diplomatik məharət göstərərək, erməni tərəfini növbəti ağır məğlubiyyətə uğrada bildi.

***Müşfiq ƏLƏSGƏRLİ,***
***Azərbaycan Mətbuat Şurası idarə heyətinin üzvü, media eksperti***

# "Amnesty International" beynəlxalq təşkilatının ofisi qarşısında etiraz

**London şəhərində yerləşən "Amnesty International" beynəlxalq qeyri-hökumət təşkilatının ofisi qarşısında Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında yaşayan Azərbaycan icması nümayəndələrinin dinc aksiyası keçirilib.**



Birləşmiş Krallıqda yaşayan Azərbaycanlıların Koordinasiya Şurasının təşkilatçılığı ilə baş tutan aksiya Ermənistanın yenidən BMT Təhlükəsizlik Şurasını siyasi, hərbi və informasiya yönümlü manipulyasiya kampaniyası üçün alətə çevirmək cəhdinə etiraz məqsədilə gerçəkləşdirilib.

**Gürcüstanda yaşayan Azərbaycan icmasının nümayəndələri BMT-nin Tbilisidəki ofisi qarşısında dinc aksiya keçiriblər.**



Aksiya iştirakçıları BMT-dən Ermənistanın Azərbaycana qarşı etdiyi haqsızlıqlara, ekoloji terror, mina təhlükəsi və digər cinayətlərə münasibət bildirməyi tələb ediblər.

Aksiyada "Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzi"nin, "Alyans" Gənclər Mərkəzinin, "Azərbaycan Evi"-nin rəhbərliyi və üzvləri, eləcə də, ictimai fəallar iştirak ediblər.

***"Xalq qəzeti"***

# Dövlət sərhədimizi pozan şəxs həbs edilib

**Avqustun 16-da Azərbaycan–Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu ərazisindən keçən hissəsində Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu tərəfindən terror-təxribat əməliyyatları həyata keçirmək məqsədilə Azərbaycanın dövlət sərhədinin pozulması faktı ilə bağlı Baş Prokurorluq tərəfindən cinayət işi başlanaraq ibtidai istintaq aparılır.**

Baş Prokurorluqdan verilən məlumata görə, qeyd olunan qanunsuz əməllərin qarşısı alınan zaman saxlanılmış Ermənistan silahlı birləşmələrinin üzvü Voskanyan Qaqik Aşoti Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

***"Xalq qəzeti"***

BEYNƏLXALQ HƏYAT

# "Taxıl sazişi" ətrafında vəziyyət gərginləşir

**ABŞ, Ukrayna, Türkiyə və digər ölkələr Rusiyanın sazişdən çıxmasından sonra Ukrayna taxılının ixracı üçün alternativ marşrutların genişləndirilməsini müzakirə edirlər. Eyni zamanda, ərzaq təchizatının təhlükəsizliyinin təmin edilməsi üçün hətta hərbi variantlar da istisna olunmur. Ötən gün Türkiyənin Ukraynanın cənubundakı İzmail limanına gedən türk şirkətinə məxsus "Şükrü Okan" yük gəmisinə xəbərdarlıq atəşi açılması ilə bağlı Rusiyaya xəbərdarlıq etməsi taxıl sazişi ətrafında vəziyyətin getdikcə gərginləşməsindən xəbər verir.**



Bir ilə yaxın qüvvədə olduqdan sonra Rusiya tərəfinin bəyanatı ilə taxıl müqaviləsi fəaliyyətini dayandırdı. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bunu Rusiya ilə bağlı razılaşmaların bir hissəsinin "indiyə qədər yerinə yetirilməməsi" ilə izah etdi. D.Peskov bildirmişdi ki, şərtlər yerinə yetirilən kimi "Rusiya tərəfi dərhal bu sazişin icrasına qayıdacaq". Xatırladaq ki, Rusiya-Ukrayna müharibəsinin başlaması ilə bir çox ölkələr Rusiya ilə ticarətdən imtina etdi və döyüş əməliyyatları səbəbindən Ukraynadan taxıl ixracı dayandı. Bundan sonra taxılın qiyməti sürətlə qalxdı və bu, bəzi ölkələrdə aclıq təhlükəsi yaratdı. Belə bir təhlükəli vəziyyətin yaranmaması üçün 2022-ci ilin mayında BMT-nin Baş katibi Antonio Quterreş hamı üçün faydalı olacaq bir razılaşma təklif etdi. Bundan sonra Rusiya, Türkiyə və Ukrayna arasında taxılın daşınmasına dair müqavilə imzalandı. Lakin hazırda müqavilə fəaliyyət göstərmir və rəsmi Moskva şərtlərinin yerinə yetirilməsini gözləyir.

ABŞ, Türkiyə və Ukrayna başda olmaqla digər ölkələr sazişin qüvvəyə minməsi üçün çalışırlar. Bununla belə, məsələnin hüquqi qüvvəyə minməsini gözləməyən Ukrayna və tərəfdaşları taxılın təhlükəsiz daşınması ilə bağlı məsləhətləşmələr və praktiki addımlar atırlar. Ukrayna taxılının ixracı üçün alternativ marşrutların genişləndirilməsinin müzakirəsi ilə yanaşı, ərzaq təchizatının təhlükəsizliyinin təmin edilməsi üçün, hətta, hərbi variantları da istisna edilmir. Belə bir planın olması barədə ilk məlumatın "The Wall Street Journal(WSJ) qəzetinin verdiyi bildirilir. ABŞ-ın planı 2023-cü ilin oktyabrına qədər Ukraynanın ixrac qabiliyyətini ayda dörd milyon tona çatdırmaq imkanını nəzərdə tutur. İxrac Dunay və Qara dəniz vasitəsilə Rumıniya limanlarına, oradan isə digər istiqamətlərə daşınacaq. Bu marşrut daha yavaş və daha bahalıdır, lakin hər hansı bir hərbi hücumdan müdafiə baxımından daha təhlükəsizdir. Qəzetə məlumat verən mənbənin sözlərinə görə, "reallıq budur ki, müharibə başa çatmayana qədər Rusiyanı razılığa qaytarmaq çətin olacaq".

Ukraynadan taxıl ixracı qlobal ərzaq qiymətlərini aşağı saxlamaq üçün çox vacibdir. Belə iddia olunur ki, Rusiyanın taxıl sazişindən çıxması dünyada ərzaq qiymətlərinin 10 faiz artmasına səbəb olub. ABŞ hazırda taxıl dəhlizlərinin təhlükəsizliyini təmin etmək üçün hərbi yol da daxil olmaqla təklif olunan bütün variantları araşdırır. Amerikalı rəsmilər bunu təsdiqləsələr də, ətraflı məlumat verməkdən imtina edir. Məlumdur ki, ABŞ-ın planları Aİ-nin Ukraynadan taxıl ixracı üçün avtomobil, dəmir yolu və dəniz marşrutlarının yaradılması təşəbbüsünə əsaslanır. Dunay marşrutunun səmərəliliyinin artırılması müzakirə olunur. Məsələn, Rumıniya Ukraynadan ayda dörd milyon tona qədər taxıl qəbul etməyə hazırdır. Bununla belə, Dunay Odessa limanlarına yalnız müvəqqəti alternativdir. Üstəlik, Rusiyadan artıq bu yolu bağlamaqla bağlı xəbərdarlıq da verilir.

"Taxıl sazişi"nin memarlarından biri Türkiyə də humanitar böhranın qarşısını almaq üçün fəal diplatik siyasət yürüdür. "Yeni Şəfəq" qəzetinin məlumatına görə, Türkiyənin xarici işlər naziri Hakan Fidan rusiyalı həmkarı Sergey Lavrovla "Taxıl sazişi"ni müzakirə etmək niyyətindədir. Türkiyə hökuməti iyulun 17-də icrası dayandırılmış "Taxıl sazişi" ətrafında vəziyyətin inkişafının üç ssenarisini müzakirə edir. Hakan Fidan məsələni rusiyalı həmkarı Sergey Lavrov və Ukraynanın xarici işlər naziri Dmitro Kuleba ilə müzakirə etməyi planlaşdırır. Bu məsələ ilə bağlı Türkiyə və Rusiya prezidentləri - Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin arasında görüş də keçirilə bilər.

Birinci ssenari qlobal ərzaq böhranının kəskinləşməsinə gətirib çıxaracaq taxıl sövdələşməsi problemini həll etməyin mümkün olmayacağını nəzərdə tutur. Lakin qəzetin qeyd etdiyi kimi, Rusiya, Ukrayna və ABŞ belə vəziyyətin yaranmasında maraqlı deyil. İkinci ssenari "birtərəfli hərəkətlər və ikitərəfli razılaşmalar əsasında alternativ yolların yaradılması" vasitəsilə həyata keçirilə bilər. Məsələn, Dunay boyunca və ya qurudan Avropaya. Nəhayət, üçüncü ssenari Rusiya Federasiyasının narahatlığının aradan qaldırılacağını və taxıl müqaviləsinin eyni formatda bərpa olunacağını nəzərdə tutur. Bu ssenari, nəşrin müəlliflərinin fikrincə, qlobal ərzaq böhranının qarşısını almağa kömək edəcək.

Göründüyü kimi, Türkiyə "taxıl sazişi"nin qüvvəyə minməsində israrlıdır. Zərurət yarandıqda rəsmi Ankara milli maraqlarını qorumaq baxımından zəruri addımlar atacağını bildirir. Məsələn, Türkiyə Ukraynanın cənubundakı İzmail limanına gedən türk şirkətinə məxsus "Şükrü Okan" yük gəmisinə xəbərdarlıq atəşi açılması ilə bağlı Rusiyaya xəbərdarlıq etməsi bunu təsdiqləyir. Xatırladaq ki, bu xəbər Türkiyə Prezidenti Administrasiyasının kommunikasiya şöbəsinin nəzdində yaradılan Dezinformasiya ilə Mübarizə Mərkəzinin məlumatında öz əksini tapmışdı. Məlumatda qeyd olunmuşdu ki,"Rusiyadakı həmkarlarımıza Qara dənizdə gərginliyi artıra biləcək bu cür cəhdlərdən çəkinmələri barədə xəbərdarlıq edilib". Qeyd edək ki, avqustun 13-də Rusiya hərbi gəmisi Qara dənizdə Türkiyəyə məxsus "Şükrü Okan" yük gəmisini dayandırmağa məcbur etmək üçün ona xəbərdarlıq atəşi açmışdı. Bundan sonra rus hərbçiləri gəmiyə enərək axtarış aparmışdılar. Buna səbəb gəminin Ukrayna limanına üz tutması olmuşdu. Bu xəbərdarlıq bir daha göstərir ki, Türkiyə zərurət yarandıqda qəti addımlar da atmağa hazırdır.

***S.MƏMMƏDOV, "Xalq qəzeti"***

# Rusiya sanksiyaları neft gəlirləri ilə dəf edir

**Moskvanın xammal strategiyası Rusiyaya Qərbin sanksiyalarını dəf etməyə kömək edib, onu kapital axınından məhrum etmək cəhdlərinə son qoyub. Bu barədə Fransanın "La Nouvelle Tribune" (LNT) jurnalı yazıb.**

Beynəlxalq Enerji Agentliyinin (BEA) avqustun 15-də dərc olunmuş hesabatına istinadən material müəllifləri qeyd edirlər ki, sanksiyalara baxmayaraq Rusiyanın xam neft gəlirləri artıb. Keçən ay Rusiya neftinin bir barelinin orta qiyməti 64,41 dollar olub. Bu sürətli qiymət artımı ABŞ və müttəfiqlərinin Rusiyanın gəlirlərini məhdudlaşdırmaq səylərinə baxmayaraq davam edib. Müəlliflərin fikrincə, Moskvanın işləyib hazırladığı strategiya, OPEC+ neft ittifaqının tədarükü azaltması, sanksiyaların nəticəsini azaldıb. Qərbin cəhdlərinin qarşısını alıb.



Rusiya təkcə iyul ayında xam neft və yanacaq ixracından 15,3 milyard dollar qazanıb ki, bu da əvvəlki aylarla müqayisədə təxminən 20 faiz çoxdur. Fransa Xalq Cümhuriyyət İttifaqı partiyasının lideri Fransua Asselino qeyd edib ki, iyul ayında "Urals" nefti G7 ölkələri tərəfindən müəyyən edilmiş 60 dollardan yuxarı qiymətə satılıb. Onun sözlərinə görə, bu, Rusiya üçün neft cekpotudur.

Avqustun 1-də Rusiya Maliyyə Nazirliyi 2023-cü ilin yanvar-iyul aylarında "Urals" neftinin orta qiymətinin bir barel üçün 53,94 dollar, iyulda isə 64,37 dollar olduğunu açıqlamışdı. Elə həmin gün "BitRiver"in kommunikasiyalar direktoru Andrey Loboda qeyd etmişdi ki, 7ay ərzində Rusiyanın "Urals" neftinin ABŞ valyutasında qiyməti, təxminən, 35 faiz artaraq G7-nin müəyyən etdiyi tavanı keçib. Sonuncu dəfə "Urals" kotirovkaları 2022-ci ilin payızında yuxarı qiymət həddini keçmiş, 15 oktyabr - 14 noyabr tarixləri üçün orta qiymət bir barel üçün 70,2 dollar təşkil etmişdi. Ekspert avqustda "Urals" neftinin bir barelinin 65-75 dollar diapazonunda satılacağını deyib.

Maliyyə Nazirliyinin məlumatına görə, Rusiyanın "Urals" markalı neftinin orta qiyməti 2022-ci ilin payızından bəri ilk dəfə bir barel üçün 70 dolları ötüb: "2023-cü il iyulun 15-dən avqustun 14-dək olan monitorinqlər dövründə "Urals" neftinin orta qiyməti bir barel üçün 70,33 dollar və ya bir ton üçün 513,4 dollar təşkil edib".

Xatırladaq ki,2022-ci ilin dekabrında Avropa İttifaqı ölkələri Rusiya neftinin idxalına embarqo qoyub və üçüncü ölkələr üçün qiymət tavanı (ABŞ, Kanada və Yaponiya da qoşulub) müəyyən edilib. Amma bu tədbirlər və sanksiyalar göründüyü kimi nəticəsiz qalıb.

***P. ƏFƏNDİYEV, "Xalq qəzeti"***

# Marseldə "narkotik böhranı"

**Fransa hökuməti Marselə elit polis qüvvələri göndərir. Polislər burada onlarla insanın ölümünə səbəb olan narkotik maddələrin ticarəti ilə mübarizə aparacaq. Şəhər zorakılığı ilə mübarizədə ixtisaslaşan "CRS 8" bölməsi yaxın bir neçə gün ərzində cənub şəhərinə gedəcək və təxminən, bir həftə narkotik ticarətinin qarşısını almaq üçün əməliyyatlar aparacaq. Polis qüvvələri narkotik maddələrin satıldığı bölgədə yerləşəcək.**



İyulun ortalarından bəri Marseldə narkotiklə mübarizədə 12 nəfər ölüb. Marsel polisinin prefekti Frederik Kamilleri son mətbuat konfransında bu barədə bildirib: "Yoda" və "Mafia DZ" qrupları arasında uzun müddət davam edən qarşıdurma yenidən pik həddinə çatıb. Bu da cinayət hallarını artırıb". Prefektin sözlərinə görə, ilin əvvəlindən bu 2 güclü şəbəkənin payına Marseldə mütəşəkkil dəstələr tərəfindən törədilən qətllərin və ya buna cəhdlərin 80 faizi düşür.

Kamilleri 2 cinayətkar qrup arasında münaqişənin yeni formalar almasından narahatdır: "Sosial mediada qətllər nümayiş etdiriləndə biz narkotiklə bağlı yeni zorakılıq halları ilə qarşılaşırıq".

***"Xalq qəzeti"***

# Diaspor gəncləri Əlincə zirvəsində

**Naxçıvanda bir həftədir ki, davam edən Diaspor Gənclərinin Yay Düşərgəsi iştirakçılarının növbəti ziyarət ünvanı qədim diyarın qeyrət və hünər adidəsi Əlincə qalası olub. Azərbaycanın, o cümlədən Naxçıvanın zəngin tarixi irsinin daşıyıcısı olan, yüzillər keçsə də, məğrurluğunu qoruyub saxlayan bu tarixi qala Vətənin qonağı olan gənc soydaşlarımızın böyük marağına səbəb olub.**



Günün ikinci yarısında gənclər "Diaspor üçün bir ideyam var" adlı paneldə iştirak ediblər. Müzakirəni Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müşaviri Cahid Kazımov açıb. Qeyd olunub ki, diasporla işin inkişafının təmin olunması üçün ilkin şərtlərdən biri də gənclərin informasiya texnologiyaları haqqında geniş təsəvvür və biliyə yiyələnməsi və bu sahə üzrə ciddi addımların atılmasıdır. Bu mənada, hər bir gənc informasiya vasitələrini, süni intellektin imkanlarını dərindən mənimsəməli və ondan səmərəli istifadə etməyi bacarmalıdır.

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Abbasov İKT bilgilərinin və avadanlığının bütün sahələrdə tətbiqinin əhəmiyyətindən bəhs edib.



Startap Azərbaycan Təşkilat Komitəsinin üzvü, ekspert Rəşad Əliyev bu sahədə layihələrin reallaşdırılması, innovativ ideyaların startapa çevrilməsi və onun metodları haqqında, müstəqil ekspert Vüsal Yusifov isə müvafiq fəaliyyətin təşkili yollarından danışıb.

***

**"Heydər Əliyev İli" çərçivəsində Naxçıvanda baş tutan "Heydər Əliyev – 100" Diaspor Gənclərinin IV Yay Düşərgəsinin rəsmi bağlanış mərasimi keçirilib.**

Prezidentin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli düşərgənin Naxçıvanda keçirilməsindən və iştirakçıların Naxçıvanda aparılan yenidənqurma və quruculuq işləri, eləcə də bu qədim diyarın tarixi yerləri ilə tanışlığından məmnun olduğunu söyləyib. O, Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın icrası sayəsində yaxın beş ildə Naxçıvanda böyük işlər görüləcəyini vurğulayaraq, düşərgə iştirakçılarını beş ildən sonra yenidən Naxçıvana dəvət edib: "Mən sizinlə sağollaşmıram, aramıza xoş gəldiniz deyirəm".

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov IV Yay Düşərgəsinin təşkilində göstərdikləri dəstəyə görə Heydər Əliyev Fonduna və Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəliyinə təşəkkür edib.

Düşərgə iştirakçılarına sertifikatlar təqdim olunduqdan sonra tədbir bədii hissə ilə yekunlaşıb.

Qeyd edək ki, avqustun 12-dən 18-dək davam edən Diaspor Gənclərinin IV Yay Düşərgəsi Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə gerçəkləşdirilib. Düşərgənin tərəfdaşı Heydər Əliyev Fondu, təşkilati dəstək Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı xüsusi nümayəndəliyinə məxsus olub.

Xatırladaq ki, Diaspor tarixinin möhtəşəm layihələrindən biri hesab olunan IV Yay Düşərgəsində 53 ölkəni təmsil edən 100-dən çox gənc iştirak edib.

***S.HƏSƏNOV, "Xalq qəzeti"***

**Naxçıvan**

SOSİAL XƏBƏRLƏR

## DSMF-nin 7 aylıq gəlirləri 3,8 milyard manat olub




**Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri bu ilin 7 ayında proqnozla müqayisədə 7 faiz və ya 243 milyon manat çox olmaqla 3 milyard 848 milyon manat təşkil edib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumatda deyilir.**

Fondun gəlirləri tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları yanvar–iyul aylarında proqnoza nisbətən 9 faiz və ya 243 milyon manat artaraq, 2 milyard 985 milyon manat təşkil edib.

Qeyd edilən dövrdə DSMF-nin xərcləri 3 milyard 513 milyon manat olub. Bu da ötən ilin müvafiq dövründəkindən 15 faiz və ya 460 milyon manat çoxdur.

## Əməyin mühafizəsi və mina təhlükəsizliyi

**Dövlət Əmək Müfəttişliyi Xidməti Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi ilə birgə ölkəmizin işğaldan azad olunmuş ərazilərində əməyin mühafizəsi və mina təhlükəsizliyinə dair maarifləndirmə tədbirlərini davam etdirir.**

Növbəti belə tədbirlər Ağdamın rayon mərkəzində və bir neçə kəndində keçirilib. Tədbirlərdə həmin ərazilərdə fəaliyyət göstərən 26 işəgötürən üzrə 500-dək şəxs iştirak edib. Onlara iş yerlərində əməyin mühafizəsi və mina təhlükəsizliyi ilə bağlı ətraflı məlumatlar verilib, sualları cavablandırılıb.




Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimizdə bu ilin aprel ayından başlayaraq 4 rayonda – Füzuli, Laçın, Tərtər (Suqovuşan, Talış) və Ağdamda 62 işəgötürən üzrə 1000 nəfərdən çox işçinin iştirakı ilə əməyin mühafizəsi və mina təhlükəsizliyinə dair maarifləndirici tədbirlər keçirilib. Belə tədbirlərdə iştirakçılara, həmçinin qeyd olunan mövzularda yaddaş kitabçası və bukletlər təqdim edilib.

## Pensiyaçılara 3,3 milyard manat ödənilib

**Cari ilin yanvar–iyul aylarında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 15 faiz (439 milyon manat) çox olmaqla 3 milyard 319 milyon manat vəsait yönəldilib.**

Pensiya təminatı sahəsində islahatlar bu il də davam edərək, fevralın 1-dən minimum pensiya 240 manatdan 280 manata çatdırılıb. Eyni zamanda, keçən il pensiyaçılara verilən maddi yardımlar 2023-cü ilin əvvəlindən onların pensiyalarına əlavə olunub. Bundan sonra pensiyalar ötən il üzrə orta aylıq əməkhaqqının illik artım tempinə uyğun olaraq, indeksləşdirilməklə 14,7 faiz artırılıb.

Pensiyaların orta aylıq məbləği bu ilin 7 aında 18 faiz artırılaraq 435 manata, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 17 faiz artırılaraq 466 manata çatdırılıb.

Qeyd olunan dövrdə 19 min 500, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən 90 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada aparılıb.

***Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"***

Yaddaşlarda yaşayanlar

# Daha bir görüşün tarixçəsi

## Gülağa Məmmədov Səid Rüstəmovun "öz müğənnisi" idi

(əvvəli 1-ci səhifədə)

Xatırladım ki, şöhrətli müğənniyə bir neçə dəfə verdiyim həmin sual "Dəli Kür" filmini əfsuna bələmiş "Ana Kür" mahnısının lentə alınması zamanı yaşanmış çətinlik haqqında olmuşdu. Çünki onunla hələ tanış olmadığım illərdə televiziyanın qocaman əməkdaşı Tofiq Axundovdan eşitmişdim ki, mahnı Rusiyada lentə alınanda Gülağa Məmmədov mahnını 3 gün dəfələrlə oxuyub, ancaq lentə yaza bilməyiblər. Sonra necə yazıblarsa, aşağıda oxuyacaqsınız.

... Onunla radionun musiqi şöbəsinin müdiri Hacı Məmmədovun otağında görüşüb tanış olmuşduq. Daha doğrusu, mən veriliş üçün musiqi götürməkdən ötrü Hacı müəllimin yanına gedəndə Gülağa Məmmədov orada idi. Hacı müəllim məni təqdim edərək dedi ki, İttifaq Xəbərlər baş redaksiyasının əməkdaşı olsa da, musiqiyə bağlı adamdır. Xalq artisti ayağa qalxıb mənimlə görüşdü və zarafat etdi ki, musiqiyə bağlıdırsa, onda xəbərlər redaksiyasında bizim adamdır.

... Günlərin birində redaksiyamızın ağsaqqalı Hidayət Səfərli baş redaktorumuz Heydər Zeynaloğludan xahiş etdi ki, Gülağa bərk xəstədir, müxbir göndər radio üçün müsahibə hazırlasın. Xatırladım ki, Gülağa Məmmədov yaşadığı ev Nəriman Nərimanovun heykəlinin "sağ əlinin altında", Hidayət müəllimgilin evi isə heykəlin sol əlinin "altında"dır. Yaxın dost olsalar da, Gülağa müəllim Hidayət Səfərli kimi açıq-saçıq zarafatlar eləmirdi.

Heydər müəllim Xalq artistinin görüşünə məni göndərdi. Mən evə girəndə müğənni dərman içirdi. Gedəcəyim barədə Hidayət müəllim ona məlumat verdiyinə görə özünü gümrah göstərməyə çalışırmış. Xeyli söhbət etdik, səsini yazdım və gördüm ki, danışmaqda da elə oxumaqda olduğu kimi pərgardır. Xəstəlik canını üzsə də ( həmin görüşdən bir il sonra – 68 yaşında vəfat etmişdi), yaddaşı da yerində idi, fikirləri də sağlam idi.

Söhbətə belə başladı: "1925-ci ildə Lənkəranın Kiçik Bazar məhəlləsində anadan olmuşam. 15 yaşım olanda "Koroğlu"nun " Səni gördüm, aşiq oldum" sözləri ilə başlanan ariyasını oxumuşam (Həmin ariyanı ifa edərkən çəkilmiş fotosunu 1995-ci ilin payızında "Xalq qəzeti"ndə vermişdim – İ.M.). Elə Azərbaycandan kənarda ifa etdiyim ilk musiqi əsəri də həmin ariya olmuşdu. Onu 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti ongünlüyündə də oxudum".



Mərhum sənətkar danışdı ki, Səid Rüstəmovun ansamblına 15 yaşında qəbul edilən ilk gənc o olub. Sonra Konservatoriyada təhsil alıb: " 20 yaşımdan Musiqili Komediya Teatrında çalışmağa başladım. Müxtəlif operettalarda oxusam da, ifa etdiyim mahnıların çoxu Səid Rüstəmova məxsus olurdu."

O dövrün bütün üzdə olan sənətkarları etiraf edirdilər ki, Səid Rüstəmov mahnılarının əksəriyyətini xüsusi olaraq Gülağa üçün yazıb. Amma o, Tofiq Quliyevin və Cahangir Cahangirovun da bir çox əsərlərinin ilk ifaçısı olub.

Cahangir Cahangirovun "Dəli Kür" filminə yazdığı "Ana Kür" mahnısının lentə alınmasının bəlalı tarixçəsi isə belə olmuşdu: "3 gün təkrar-təkrar oxudum, alınmadı. Elə olanda Cahangir müəllimə dedim ki, mən qayıdım Bakıya, başqa müğənni gəlib oxusun. Bəstəkar razılaşmadı. Bu məqamda səsyazma studiyasının mütəxəssisi maraqlı bir təklif verdi: "Filmdə bu mahnının səslənəcəyi yeri ekranda göstərin, müğənni həmin lövhəni görə-görə oxusun". Təklifə əməl elədilər və Cahangir müəllim dedi ki, əvvəlcə sınaq üçün oxu. Birnəfəsə oxudum. Dedilər ki, vəssalam, yazıldı, lent hazırdır. Beləcə, kino lentinə baxmaqla mahnını birdəfəyə yazdıq".

... Mən gələndə Gülağa müəllim dərman içirdi. Sağollaşıb qalxanda da sarı bir dərmanı içdi. Üzünün turşuduğunu hiss etdiyimi görüb özünü tox tutmağa çalışdı: "Xeyirli olsa da, acıdır, çox acı". Belə bir ustad sənətkarı itirmək də xalqımız üçün çox acı idi.

Allah rəhmət eləsin! "Oxu gözəl" və "Ana Kür" kimi mahnılar onu həle yüz illər yaşadacaq.

***İ.QAÇAYEV,***
***"Xalq qəzeti"***

# "Xəzərin sahilində" maraqlı təqdimatlar



**Sumqayıtdakı Bulvar kompleksi artıq 7-ci ildir ki, şəhər sakinlərinin və qonaqların ən gur istirahət məkanına çevrilib. Açılışında Prezident İlham Əliyevin iştirak etdiyi və "əsl möcüzə" adlandırdığı bu bulvarda tez-tez müxtəlif mədəni-kütləvi tədbirlər keçirilir.**

Bulvarda yenicə start verilən 4 həftəlik "Xəzərin sahilində" adlı layihə xüsusilə diqqətəlayiqdir. Sumqayıt Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə reallaşan layihə çərçivəsində keçirilən ilk tədbirdə Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə şəhərin sakinləri və qonaqları üçün konsert proqramı təqdim edildi. Eyni zamanda gənc rəssamların pleneri – açıq havada rəsm çəkilişləri maraqla qarşılandı.

Konsertdə N.Nərimanov adına Sumqayıt şəhər Mədəniyyət Mərkəzinin nəzdində yaradılmış "Endorfin" özfəaliyyət rok musiqi qrupu rəngarəng proqramla çıxış etdi. Bu kollektivə istedadlı musiqiçi Vüsal Mehdizadə rəhbərlik edir. Qrupun solisti - gənc müğənni Lalə Rahibin ifa etdiyi mahnılar tamaşaçı alqışları ilə müşayiət olundu.

Uğurla sona yetən konsert proqramından sonra Mədəniyyət Mərkəzinin direktoru Samir Şəfiyev "Xalq qəzeti"nə müsahibəsində bildirdi ki, "Xəzərin sahilində" layihəsi sumqayıtlıların bulvarda yay istirahətinə əlavə rəng qatmağı hədəfləyir:

– Çoxsaylı seyrçilərin, xüsusilə də uşaq və gənclərin reaksiyasından da göründüyü kimi, belə tədbirlər hamının xoşuna gəlir. Qarşıdakı bazar günü, axşam saatlarında bulvarın səhnəsi müxtəlif rəqs kollektivlərinin, müğənnilərin və "Zəngəzur" ritm qrupunu ixtiyarına veriləcək. Sonrakı təqdimatlarda da sürprizlər olacaq.

Layihəyə gənc rəssamların qoşulması sumqayıtlıların böyük marağına səbəb oldu. "Dostluq" mədəniyyət evinin həvəskar rəssamları musiqi sədaları altında təcrübə mübadiləsi edərək gözəl təsvirlər yaratdılar.

Gənc həmkarlarının uğurlarını maraqla izləyən tanınmış xalçaçı rəssam, Əməkdar mədəniyyət işçisi Fazil Abbasquluzadə bizimlə söhbətində bu cür tədbirlərin təqdirəlayiq olduğunu bildirərək dedi:

– Bildiyimiz kimi, plener boyakarlığı naturanı bilavasitə öyrənmək və onun real mənzərələrini yaratmaq deməkdir. Məşhurlardan Repin, Surikov, Levitan, bizim Səttar Bəhlulzadə və başqaları möhtəşəm plener rəsmləri çəkiblər. Sumqayıtdakı "Dostluq" mədəniyyət evinin gənc rəssamlarının da bu sahədə ilk təcrübələri fərəh doğurur. Onlara uğurlar arzulayıram. Növbəti plenerdə Cəfər Cabbarlı adına mədəniyyət evinin gəncləri öz istedadlarını nümayiş etdirəcəklər. Sonra daha iki plener təşkil olunacaq. Hamısını izləməyə çalışacağam.

Qeyd edək ki, Sumqayıt bulvarında "Xəzərin sahilində" mədəniyyət layihəsi sentyabrın 3-dək davam edəcək.

***Əli ƏLİYEV, "Xalq qəzeti"***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

öz gəmiləri üçün separatorların satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 23 avqust 2023-cü il saat 17.00-dəkdir.

**Əlaqə telefonu – (012) 404-37-00, daxili –1016.**
**Ünvan – AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2.**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

öz gəmiləri üçün nasosların satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 24 avqust 2023-cü il saat 17.00-dəkdir.

**Əlaqə telefonu – (012) 404-37-00, daxili –1016.**
**Ünvan – AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2.**

BİLDİRİŞ

**"AZƏRİŞIQ" ASC-nin** 2023-cü il avqustun 18-də "Ağdam şəhəri ərazisində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim -Tədris Kompleksinin tikintisi" işlərinin satın alınması üçün dərc edilmiş açıq tender elanında tarixlər aşağıdakı kimi oxunmalıdır.

İddiaçılar tenderdə iştirak üçün hüquqi sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 21 sentyabr 2023-cü il saat 15.00-a, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 29 sentyabr 2023-cü il saat 15.00-a qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 2 oktyabr 2023-cü il saat 15.00-da Bakı, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

**Bakı Atıcılıq Mərkəzində dünya çempionatı davam edir. Dünən daha 2 növdə qaliblər müəyyənləşib.**

10 metr məsafəyə pnevmatik tüfəngdən atəş üzrə qarışıq komanda yarışında da Çin yığmasının üzvləri rəqiblərini böyük fərqlə məğlub edibər. 16 xalla çinlilərin qızıl medal qazandığı yarışda 2 xal toplayan İran komandası gümüş medala sahiblənib. Yarışın bürünc medalçısı Fransa komandası olub. Həmin məsafə üzrə pnevmatik tapançadan atəş üzrə qarışıq komanda yarışında isə Türkiyə komandasının üzvləri Şevval İlayda Tarhan və Yusuf Dikeç birliyi gümüş medal qazanıblar. Yarışın əsas qalibləri – qızıl medal medalçılar Eşa Sinqh və Şiva Narval cütlüyü olub. Çinlilər C.Ranxin və J.Boven cütlüyü isə bürünc medala yiyələniblər.

# Dünya nişançıları: Bakıda hər şey əladır




Qadınlar arasında stend atıcılığının dairəvi növü üzrə final yarışında qızıl medalı 54 xalla Slovakiya təmsilçisi Danka Bartekova qazanıb.

Ondan cəmi 1 xal geri qalan Dania Vissi ikinci yeri tutub. Yunanıstanlı Emmanuela Katzuraki isə bürünc mükafata yiyələnib.

İlk yeri tutanlarla yanaşı, finalçı Krovetto Çadid və finala yüksələ bilməyən Türkiyə təmsilçisi Sena Can Paris-2024 Yay Olimpiya Oyunlarına lisenziya qazanıblar.

Gümüş medalları qazanan İran milli komandasının üzvləri çempionatla bağlı təəssüratlarını bölüşüblər. Qadın idmançı Şərmineh Çehel Amirani turnirin təşkilatçılığından razılığını ifadə edib: "Yarışla bağlı ümumi təəssüratlarımız çox yaxşıdır. Bakı Atıcılıq Mərkəzində hər şey qaydasındadır. Neçə gündür ki, şəhərdəyik. Buvaxtadək heç bir problemimiz yoxdur".




Onun komanda yoldaşı Amir Məhəmməd Nekunam isə Çin komandası ilə final görüşündən danışıb: "Bu, idmandır. İdmanda udmaq da olur, uduzmaq da. Biz görüşə yaxşı başladıq. Ancaq Çin komandası çox güclü idi. Əsas odur ki, yekunda medalsız qalmadıq". O, ölkələrində məşq etməklə bağlı çətinliklərinin olduğunu da bildirib:

"İranda məşq edən zaman güllə ilə bağlı problem yaşayırıq. Bu problemi müxtəlif ölkələrlə əməkdaşlıq edərək həll edirik. Məhdud olsa da, məşq üçün müəyyən qədər imkanımız var".

Bürünc medal qazanan Fransa komandasının kişi üzvü Romayn Ofyer də yarışın təşkilatçılığından razılıq edib: "Təcrübə göstərir ki, bu cür yarışları təşkil etmək çox çətindir. Bakıda olmadıqdan məmnunuq. Burada özümüzü çox yaxşı hiss edirik. Bakı və dünya çempionatı ilə bağlı təəssüratlarımız çox gözəldir".

Romaynın xanım həmkarı Oseann Muller isə iştirak etdikləri növdə Yay Olimpiya Oyunlarına lisenziya olmasa da, nəticənin onlar üçün vacib olduğunu bildirib: "Biz daha əvvəl də həm gənclər, həm də böyüklər arasında keçirilən müxtəlif beynəlxalq yarışlarda iştirak etmişik. Olimpiadaya lisenziya verməsə də, qalib gəldiyimiz yarış bizim üçün vacibdir. Çünki, qarşıdan gələn turnirlərə hazırlıq nöqteyi-nəzərdən gücümüzü bildik. Biz üzərimizdə heç bir təzyiq hiss etmirik. Daim yüksək pillələrdə olub, medallar qazanmaq istəyirik".

Yianq Ranxin belə bir nüfuzlu yarışda qızıl medal qazandığı üçün özünü xoşbəxt hiss etdiyini deyib: "Bütün rəqiblərim güclü idi. Gümüş medal qazanan Anna Korakaki də çox ciddi hazırlaşmışdı. Finala yaxşı konsentrasiya olmuşdu, digər rəqiblərə fikir verirdi.

Niyə həm kişilərin, həm də qadınların mübarizəsində qalib gəlirik? Çünki biz həqiqətən əlimizdən gələni edirik ki, iştirak etdiyimiz yarışlarda qalib gələk. Bunun sirri əzmlə çalışmaq və eyni zamanda soyuqqanlığı qoruyaraq qalib olmaqdır".

Macarıstan komandasının heyətində gümüş medala yiyələnən Rahel Sara Fabian təşkilatçılıqdan məmnunluğunu dilə gətirib, gümüş medalın onlar üçün gözlənilməz olmadığını deyib: "Bizim komanda həm Avropada, həm də dünyada çox güclüdür, iddialılardan biri hesab olunur. Komanda yoldaşım Veronika Mayor dünya səviyyəsində uğurlu idmançılardan biridir. Biz bu uğuru gözləyirdik, təəccüblü olmadı".

İdmançı yarışda atıcıların öz potensiallarından maksimum istifadə etmələri üçün hər bir şəraitin yaradıldığını xüsusilə vurğulayıb: "Yarış yüksək səviyyədə təşkil olunub. Mərkəzə gəlib-getmək çox rahatdır. Hər şey əladır. Xüsusilə atış meydançaları çox gözəldir. Final yarışının keçirildiyi zal çox möhtəşəm idi".

Beləliklə, dünyanın ən güclü nişançıları arasında daha dəqiq atıcıları müəyyənləşdirmək üçün Bakı Atıcılıq Mərkəzində yarışlar gərgin rəqabət və maraqlı mübarizə şəraitində davam edir.

***L.QURBANOVA,***
***"Xalq qəzeti"***

"Maştağa–Aqrotexservis" ASC

səhmdarlarının nəzərinə!

20 sentyabr 2023-cü il saat 14.00-da "Maştağa-Aqrotexservis" ASC-nin inzibati binasında səhmdarların növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** "Maştağa-Aqrotexservis" ASC-nin idarə heyətinin üzvlərinin və sədrinin seçilməsi.

Səhmdarlar gündəlikdəki məsələyə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

**Əlaqə telefonları – (012) 455- 35 -55, (050) 324- 30- 07.**
**Ünvan – Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Nizami küçəsi 4.**

SON SƏHİFƏ

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 176 (30292) 19 avqust 2023-cü il, şənbə

veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## “Qarabağ”–“Olimpiya” matçının vaxtı açıqlanıb



***UEFA Avropa Liqasının pley-off mərhələsində Sloveniyanın “Olimpiya” komandası ilə qarşılaşacaq “Qarabağ”ın oyunlarının başlama saatı açıqlanıb.***

Oyun avqustun 24-də səfərdə – Bakı vaxtı ilə saat 22:00-da başlayacaq. Qarşılaşmanın hakimləri də müəyyənləşib. Belə ki, matç Bolqarıstandan olan hakimlər briqadasına tapşırılıb. FİFA referisi Georgi Kabakova Martin Marqaritov və Diyan Valkov laynsmanlar qismində yardımçı olacaqlar. Radoslav Gidzhenov isə dördüncü hakim funksiyasını yerinə yetirəcək.

Bir həftə sonra Tofiq Bəhramov adına Respublika Stadionundakı görüş isə saat 20:00-da start götürəcək.



## Cüdoçumuz gümüş medal qazanıb

***Azərbaycan cüdoçusu Əhməd Yusifov Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən Qran-pridə gümüş medal qazanıb.***

60 kq çəki dərəcəsində çıxış edən təmsilçimiz yarımfinalda Fransa təmsilçisi Teo Raoul Hebrarda qalib gələrək finala çıxıb. İdmançımız həlledici görüşdə Dilşot Xalmatova məğlub olub.

## Şahmat Olimpiadası – 63 arasında 12-ci

***Niderlandın Eyndhoven şəhərində yeniyetmələrin Ümumdünya Şahmat Olimpiadası başa çatıb.***



Heyətində Read Səmədov, Xaqan Əhməd, Cahandar Azadəliyev və Nərmin Abdinovanın mübarizə apardığı Azərbaycan millisi sonuncu turda Yunanıstan millisinə 1,5:2,5 hesabı ilə məğlub olub. Aktivində 11 xal olan yığmamız yarışı 12-ci sırada başa vurub.

Yarışda 47 ölkədən 63 komanda mübarizə aparıb.

***Leyla SABİRQIZI, “Xalq qəzeti”***

Texnologiya yenilikləri




## “Google”un süni intellekt axtarışı

***Digər şirkətlərdə olduğu kimi, “Google” da bu il generativ süni intellekt sahəsində yarışa qoşulub. Şirkət son zamanlar bu sahədəki tədqiqatların effektivliyinin yollarını axtarır.***

Nəhayət, “Google” nəzdindəki “DeepMind” laboratoriyası ilə “Brain Team” adlı şirkətin daxili komandasını birləşdirib. Nəticədə, hər iki şirkət süni intellekti həyati məsələlərlə bağlı şəxsi köməkçiyə çevirə biləcək yeni iddialı texnologiyanı test etməyə başlayıb.

Qeyd edək ki, “DeepMind” hazırda 21 növ özəl və professional tapşırığın yerinə yetirilməsi üçün nəzərdə tutulmuş generativ süni intellekti sınaqdan keçirir. Buraya, həmçinin həyati məsləhətlər, ideyalar, planlar və təhsil konsepsiyası daxildir. İdeyaların tərtib edilməsi funksiyası istifadəçilər üçün bu və ya digər vəziyyətdən asılı olaraq, məsləhətlər və təkliflər irəli sürə bilər. Süni zəka yeni bacarıqları öyrətməyə və ya artıq mövcud olanları təkmilləşdirməyə qadirdir.

“DeepMind” iş prosesində süni intellektin istifadəsi üçün digər imkanları da test edəcək. Buna misal olaraq elmi, yaradıcı və professional mətnlərin tərtibi, o cümlədən bu və ya digər mətndə qanunauyğunluqların tapılmasını və mətnlərdən məlumatların əldə edilməsini misal göstərmək olar. “Google”, həmçinin hazırda jurnalistlər üçün nəzərdə tutulmuş süni zəka əsaslı köməkçinin hazırlanmasını nəzərdən keçirir. Bu cür köməkçilər xəbərlərin və materiallar üçün başlıqların tərtib edilməsində fəal rol oynayacaq. Bütün bu layihələr “Google” şirkətinin süni zəka sahəsindəki liderliyi ələ keçirtməkdə iddialı olmasının əlamətidir.

***Səadət RZAYEVA, “Xalq qəzeti”***

Maraq dünyamız

## Lalə – müharibə qurbanlarını anım çiçəyi

**Böyük Britaniyada ənənəyə görə, lalə çiçəyi I və II Dünya müharibələri, Folklend və Körfəz müharibəsi zamanı həlak olanların xatirəsini yad etmək üçün “Anım günü” adlı bayram zamanı paltarın yaxasında gəzdirilir.**



Qırmızı lalə I Dünya müharibəsi zamanı minlərlə əsgərin canından keçdiyi Flandriya çöllərində bitən lalələri təcəssüm etdirir. Bayram günü gəzdirilən kağızdan düzəldilmiş lalələr isə müharibə iştirakçıları – Britaniya Kral legionunun tərxis olunmuş üzvləri tərəfindən satılır.

Lalədən hörülmüş çələnglər isə I Dünya müharibəsi qəhrəmanlarının xatirəsinə ucaldılmış müharibə abidəsinin önünə qoyulur.

***S. FİDAN, “Xalq qəzeti”***

## “Bosniyalı Barbilər”

**Bosniyalı gənc qız Barbi kuklaları üçün xüsusi mürəkkəb baş geyimləri və bəzəkli önlüklərdən ibarət ənənəvi Balkan geyimləri hazırlayır. Onun məqsədi bu yaxınlarda nümayiş etdirilən “Barbie” filminin dünyada məşhurlaşmasından istifadə edərək, Balkan incəsənətinin bir növü olan kukla sənətinə marağı artırmaqdır.**



Sarayevodan olan 11 yaşlı Esma Gljiva bu sənətlə bir ay bundan əvvəl suvenir dükanında keyfiyyətsiz hazırlanmış kuklalar gördükdən sonra məşğul olmağa başlayıb.

Esma kolleksiyasından yeni kuklaları göstərərək deyib: “Mağazada gördüyüm kuklalar əsl kukla deyildilər, əksəriyyəti milli geyim geyindirilmiş plastik kuklalar idi. Bu kuklalar, ümumiyyətlə, düzgün və səliqəli geyindirilməmişdilər. Mən isə daha yaxşısını etməyə çalışdım və düşünürəm ki, bunu bacardım”.

Rəqqas ailəsində böyüyən Esma ənənəvi müsəlman, xristian, pravoslav və katolik kostyumlarında gəlinciklər düzəldir. Onlara “Bosniyalı Barbilər” adını verəcəyini deyən Esma rəqqas Ken üçün də kostyumlar hazırlamağı planlaşdırır.

O, kuklaları üçün gündəlik sifarişlər alır və onları Bolqarıstan, Çexiya, Türkmənistan, Norveç, İngiltərə və digər ölkələrə göndərir.

***F. HÜQUQQIZI, “Xalq qəzeti”***

## “iPhone 14” – günün telefonu

**“iPhone 14” “Apple”ın Pro modellərini geridə qoyaraq, 2023-cü ilin ikinci rübündə ən çox satılan telefon olub. “Wccftech” bu məlumatı “Display Supply Chain Consultants”ın statistikasına istinadən xəbər verir.**



2023-cü ilin 2-ci kvartalının satış hesabatına əsasən daha ucuz “iPhone 14” ,əslində, “iPhone 14 Pro” və “iPhone 14 Pro Max”dan daha çox satılıb, dünyada ən yüksək göstərici əldə edib. Göstərilən dövrdə “iPhone 14” dünyada satılan OLED ekranlı cihazların 15,2 faizini təşkil edib. Buna görə də onu ən populyar smartfon adlandırıblar.

2023-cü ilin ikinci kvartalında satışlarda ikinci yerdə “iPhone 13” qərarlaşıb - 11,1 faiz. Ondan sonra “iPhone 14 Pro Max” (10,7 faiz) və “iPhone 14 Pro” (9,2 faiz) gəlir. Satışlarda ilk beşliyi “Samsung S23 Ultra” (5,2 faiz) tamamlayıb.

***Zülfiyyə QURBANƏLİQIZI, “Xalq qəzeti”***

Sağlamlıq

## Ekoloji pəhriz ömrü uzadır

***Harvard Universitetinin alimləri müəyyən ediblər ki, ekoloji pəhrizə əməl edən insanların 30 ildə müəyyən səbəblərdən ölmə ehtimalı 25 faiz azalıb. Tədqiqatçılar PHDİ indeksi tərtib edərək, ərzaqların ekoloji və faydalılıq qiymətləndirməsini apardılar. Sonra bu indeksi 100 min ABŞ sakini üzərində sınayıblar.***



Xəbəri yayan agentlik qeyd edib ki, məlumat bazası 1986–2018-ci illəri əhatə edib. Sınaqların nəticələrinə görə, alimlər sübut edib ki, maksimal PHDİ indeksli pəhrizə uyğun qidalanan insanlarda istənilən səbəbdən ölüm səviyyəsi adi qaydada qidalananlara nisbətən dörddəbir qədər az olub.

Tədqiqatçılar, onu da aşkar ediblər ki, ekoloji pəhriz insanları xərçəng və ürək-damar xəstəliklərindən 15 faiz, neyrodegenerativ xəstəliklərdən 20 faiz, iltihabi xəstəliklərdən isə 50 faiz qoruyur.

Ən faydalı qidalar sırasında nişastasız meyvələr, tərəvəzlər, bütün növ taxıllar, qoz, ləpələr, doymamış yağlar, paxlalılar yer alıb. Ətraf mühit və sağlamlıq üçün zərərli qidalar isə qırmızı ət, un məmulatları, şəkər və yumurta elan edilib.

***Z.HÜSEYNLİ, “Xalq qəzeti”***

Proqnoz

## Əksər yerlərə yağış yağacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən **avqustun 19-da Bakıda və Abşeron yarımadasında** havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Əsasən günün birinci yarısında bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Gecə 21-26°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 40-50 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 33-38°, dağlarda gecə 11-16°, gündüz 20-25° isti olacaq.

***Q. QASIMOV, “Xalq qəzeti”***

## Britaniya muzeyi talan edilib

**Dünyaca məşhur Britaniya Muzeyinin kolleksiyasından, təxminən, 65 min dollar dəyərində Qədim Roma dövrünə aid zinət əşyaları və artefaktlar oğurlanaraq “eBay”da 50 dollara satılıb.**



COVID-19 pandemiyasına qədər 6 milyon insanın ziyarət etdiyi muzeydə hər il, təxminən, 15-19-cu əsrlərə aid qızıl-zinət əşyaları, qiymətli daşlar itib. Araşdırmalar nəticəsində 30 ildir muzeydə çalışmış 56 yaşlı Piter Hiqqs işdən çıxarılıb. Hesablamalara görə, muzeyə dəymiş ziyanın məbləği 102 milyon dollardır.

Qədim dövrlərə aid kolleksiya üzrə mütəxəssislər muzeydəki əşyaların oğurlanması barədə hər il xəbərdarlıq etsələr də, heç kim buna əhəmiyyət verməyib.

Qeyd edək ki, oğurlanmış zinət əşyaları və artefaktlar elmi məqsədlər üçün istifadə olunub və son illər nümayiş etdirilməyib.

***F. SALMANOVA, “Xalq qəzeti”***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4857
SİFARİŞ 2065
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00